Xalqın qəzeti!

# Xalq qəzeti

№ 94 (31063) 2 iyun 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Prezident İlham Əliyev Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memoranduma görə Donald Trampa təşəkkür edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azadlığa Dəstək Aktının 907-ci maddəsinin ləğv müddətinin uzadılması haqqında memorandumla bağlı sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Möhtərəm Prezident Donald Tramp,

Azadlığa Dəstək Aktına 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması barədə memorandumu şəxsi qeydiniz və xoş sözlərinizlə birlikdə mənə xatirə hədiyyəsi olaraq göndərdiyiniz üçün Sizə səmimi təşəkkürümü bildirmək istəyirəm. Bu diqqətəlayiq jesti yüksək qiymətləndirir və ona böyük ehtiram bəsləyirəm".

# "Bakı Enerji Həftəsi" Azərbaycanı qlobal enerji təşəbbüsləri mərkəzinə çevirib

## Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin açılış mərasimində




**İyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak edib.**

Böyük Britaniyanın "ICA Events" şirkətinin İdarə Şurasının müşaviri **Tomas Hord** çıxış edərək dedi:

– Sabahınız xeyir, Zati-aliləri cənab Prezident.

Hörmətli nazirlər, Zati-aliləri xanımlar və cənablar.

Təşkilat Komitəsi adından Sizi 31-ci "Bakı Enerji Həftəsi"ndə salamlamaqdan böyük şərəf duyuruq. Bu gün burada iştirak etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə olduqca minnətdarıq. Bu, tədbirin Azərbaycanın enerji sektoru və bütövlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini vurğulayır. 1994-cü ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müasir tarixində yeni bir səhifə açdı. Tarixi "Əsrin müqaviləsi"nin imzalanması ilə yanaşı, təşkil olunan ilk Xəzər Neft və Qaz Sərgisi ölkənin uzunmüddətli enerji strategiyasının təməlini qoydu, Azərbaycanı qlobal enerji sektorunda etibarlı və vacib tərəfdaş kimi təsdiqlədi. Son üç onillikdə "Bakı Enerji Həftəsi" regionun aparıcı beynəlxalq enerji platformalarından birinə çevrilərək dövlət başçılarını, nazirləri, qlobal enerji şirkətlərini, investorları və sənaye mütəxəssislərini enerji sənayesinin gələcəyini formalaşdıran əsas prioritetləri müzakirə etmək üçün bir araya gətirmişdir. Bu il keçirilən tədbirə gəldikdə, regional enerji əməkdaşlığına, enerji təhlükəsizliyinə və beynəlxalq bazarlara enerji təchizatının şaxələndirilməsinə əhəmiyyətli töhfələr verən əlamətdar bir inkişaf olan "Şahdəniz" layihəsinin 30-cu ildönümünü qeyd etdiyimiz üçün xüsusi əhəmiyyət kəsb edir. Bu mərhələnin əhəmiyyəti cari ildə həyata keçirilən proqram və müzakirələrdə öz əksini tapır.

*(ardı 5-ci səhifədə)*

## Prezident İlham Əliyevin sosial media hesablarında Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edilib




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edilib.**

**Paylaşımda deyilir: "Əziz övladlar! 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə hər birinizi təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram".**

## Birinci vitse-prezident Mehriban Əliyeva Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib




**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.**

**Paylaşımda deyilir: "Yer üzündəki hər bir uşağa möhkəm cansağlığı, sevgi, xoş günlər, qayğısız uşaqlıq və xoşbəxt həyat arzulayıram".**


### Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfələri artır




Səhifə ⇨ 10

### "Gerçək Ermənistan" "böyük Ermənistan"a qarşı



Səhifə ⇨ 10

### London Bakının sülh təşəbbüslərini dəstəkləyir



Səhifə ⇨ 14

### Avropa İttifaqında yeni inkişaf meyilləri




Səhifə ⇨ 16

# Prezident İlham Əliyevin Şuşa, Xankəndi və Xocalıya səfəri

## Şuşanın Böyük Qaladərəsi kəndində görülən işlərlə tanışlıq və sakinlərlə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Şuşa rayonunun Böyük Qaladərəsi kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub və kəndə qayıdan sakinlərlə görüşüb.**

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Böyük Qaladərəsi Şuşa rayonunun Qaladərəsi kənd inzibati ərazi dairəsində yerləşir.

Kənd 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdi. 2023-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi antiterror əməliyyatı zamanı Böyük Qaladərəsi işğaldan azad olunub.

Bildirildi ki, kənddə yaşayış üçün lazımi şəraitin yaradılması və sosial məsələlərin həlli istiqamətində bir sıra layihələr icra olunub. Burada transformator quraşdırılıb, yeni elektrik xətləri çəkilib, mövcud xətlər isə bərpa olunub. İlkin mərhələdə məskunlaşdırılacaq fərdi evlər sayğaclaşdırılıb. Bundan başqa, kənddə yeni qaz xətti çəkilib və sayğacların quraşdırılması işlərinə başlanılıb. Sakinlərin içməli su ilə təmin olunması üzrə də işlər görülüb, paylayıcı su xətləri çəkilib, sayğaclar quraşdırılıb. Hazırda kənddə rabitə xətlərinin çəkilməsi işləri davam etdirilir. Kənddaxili yollar abadlaşdırılıb. Həmçinin Böyük Qaladərəsində sakinlərin istirahəti üçün park salınıb, Bayraq meydanı yaradılıb.

Kənddə ümumilikdə 50 fərdi ev var. Onlardan 13-ü yararsızdır, 37-si isə qismən yararlıdır.

Birinci mərhələdə artıq 17 ev bərpa olunub. Növbəti mərhələdə isə 20 evin bərpası planlaşdırılır.

İlkin olaraq kəndə 64 nəfər (14 ailə) qayıdıb.

* * *

Sonra dövlətimizin başçısı kənd sakini Akif Qəhrəmanovun evində oldu.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam.

**Kişi sakin:** Xoş gəlmisiniz. Keçin.

**Prezident İlham Əliyev:** Necədir ev şəraitiniz?

**Kişi sakin:** Ana, cənab Prezident gəlib, gəl.

**Prezident İlham Əliyev:** Salaməleyküm.

**Ağbirçək qadın:** Sənə qurban olum, sənin başına dönüm. Nə yaxşı gəlmisən. Bu qapımız Sənin üzünə açıqdır.

**Prezident İlham Əliyev:** Siz də xoş gəlmisiniz doğma vətəninizə.

**Ağbirçək qadın:** Sənin hesabına, Sənin sayəndə gəlmişik. Allah Səni bizim üstümüzdən əskik etməsin.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Ağbirçək qadın:** Mənim qızımı niyə gətirməmisən, görərdim.

**Prezident İlham Əliyev:** Onun da salamı var sizə.

**Ağbirçək qadın:** Məndən çoxlu-çoxlu salamlar apar Şuşa qızıma.

**Prezident İlham Əliyev:** Mütləq. O da Şuşa qızıdır, bilirsiniz.

**Ağbirçək qadın:** Nə yaxşı ki, gəlmisən, bala. Bizi nə yaxşı ki, torpağımıza gətirmisən, ayağımız torpağımıza dəyib. Allah Səni min yaşatsın. Üstümüzdən əskik etməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun, sağ olun. Siz də xoşbəxt yaşayın burada, doğma Qarabağ torpağında.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Neçə gündür qayıtmısınız?

**Sakin:** Üç gündür buradayıq.

**Ağbirçək qadın:** Üç gündə yığışmışıq, rahatlaşmışıq. Gözəl havası var, gözəl suyu var. Qadan alım Sənin. Sən bizi gətirib çıxartdın bu torpağımıza, Səni Allah üstümüzdən əskik etməsin.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun. Birinci növbədə bura doğma vətəndir, vətən torpağıdır. İkinci tərəfdən də bura kurort zonasıdır. Təmiz havası, suyu, meşələr, dağlar.



**Ağbirçək qadın:** Elə iki gecənin rahatlığı, o iki gecənin rahatlığı.

**Kişi sakin:** Bakıda adam belə təzyiq... Buraya gələndə deyir çox rahatam.

**Prezident İlham Əliyev:** Burada o təzyiq olmamalıdır. Burada heç bir xəstəlik olmamalıdır.

**Ağbirçək qadın:** Sənin hesabınadır hamısı.

**Prezident İlham Əliyev:** Buranın bir havası özü də dərmandır.

**Ağbirçək qadın:** Gözəl. Buradan görürsən nə gözəldir.

**Prezident İlham Əliyev:** Buradan gözəl mənzərə açılır. Baxanda adamın gözünü oxşayır.

**Ağbirçək qadın:** Adamın ürəyi açılır.

**Prezident İlham Əliyev:** İşğal dövründə necə idi yaşayışınız?

**Kişi sakin:** İşğal dövrü çətinliklərimiz çox oldu.

**Prezident İlham Əliyev:** Bakıda yerləşmişdiniz?

**Kişi sakin:** Sumqayıt, Bakı. Amma Allaha şükür, gəldik, çıxdıq.

**Prezident İlham Əliyev:** Artıq o dövr qaldı arxada, getdi.

**Kişi sakin:** Şükür Allaha, bəli, Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Burada nə ilə məşğul olacaqsınız?

**Kişi sakin:** Mən hazırda elə Şuşada Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin işçisiyəm.

**Prezident İlham Əliyev:** Lap yaxşı.

**Kişi sakin:** Bəli. İndi yəqin ki, ola bilsin, buraya da ehtiyac olacaq, elə burada işləyəcəyəm.

**Prezident İlham Əliyev:** Buraya Laçın da yaxındır, Şuşa da yaxındır.

**Ağbirçək qadın:** Yəni ortalıqdır, hər tərəfə yaxındır.

**Prezident İlham Əliyev:** Yol da çəkilir, görmüsünüz, genişləndirilir.

**Kişi sakin:** Çox gözəl.

**Prezident İlham Əliyev:** İndi Turşsu da tikilir. Yəni qonşuluqda da kəndlər bərpa edilir.

**Kişi sakin:** Allah qoysa.

**Prezident İlham Əliyev:** Darıxmayacaqsınız burada.

**Ağbirçək qadın:** Turşsuda mənim evim nağdı var, yoxdur, bilmirəm. Amma bağım, ağaclarım durur.

**Prezident İlham Əliyev:** Hə, onda gərək bağı bərpa edəsiniz.

**Ağbirçək qadın:** Bağım, bağçam durur.

**Prezident İlham Əliyev:** Turşsu nə vaxt hazır olacaq?

**Məsul şəxs:** Gələn il.

**Prezident İlham Əliyev:** Gələn il. Orada da indi keçmiş köçkünlər üçün evlər tikilir. Amma bağ eviniz olubsa, gərək oraya - o bağa gedəsiniz, dincələsiniz.

**Ağbirçək qadın:** Sizin hesabınızadır.

**Prezident İlham Əliyev:** Bir daha təbrik edirəm sizi.

**Sakinlər:** Çox sağ olun, əskik olmayın.

**Prezident İlham Əliyev:** Sağ olun, xoşbəxt yaşayın.

**Sakinlər:** Çox sağ olun.

* * *

Sonra dövlətimizin başçısı Böyük Qaladərəsi kəndinə qayıdan sakinlərlə görüşdü.

**Prezident İlham Əliyev:** İlk növbədə, sizi bayramlar münasibətilə təbrik edirəm - həm Qurban bayramı, həm Müstəqillik. Siz həm Müstəqillik, həm Qurban bayramlarını doğma Qarabağ torpağında qeyd edirsiniz. Bu, böyük xoşbəxtlikdir. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Uzun fasilədən sonra doğma vətənə qayıtmaq böyük xoşbəxtlikdir.

**Qadın sakin:** Şərəfdir bizim üçün, şərəfdir.

**Prezident İlham Əliyev:** Bəli. Burada sizin üçün gözəl şərait yaradılıb. Burada evlərin, demək olar ki, əksəriyyəti dağılmışdı. Onların 17-si hazırdır, 20-si də ikinci mərhələdə hazır olacaq və ondan sonra da evlər tikiləcək. Burada qonşuluqda da iş gedir. Kiçik Qaladərəsi, Turşsu, Sarıbaba. Laçın da yaxındır, Şuşa da yaxındır. İndi yeni yol da çəkilir və gediş-gəliş də daha rahat olacaq. Yəqin ki, görmüsünüz, biz Şuşa-Laçın yolunu genişləndiririk, həm də tunellər inşa edilir. Hər şey edilir ki, insanlar burada rahat yaşasınlar və əsas odur ki, doğma vətən torpağında.

Müstəqillik - bu, böyük nemətdir, böyük nailiyyətdir. Amma əsl müstəqillik o vaxt olur ki, ölkə müstəqil siyasət apara bilsin. Bax, Azərbaycan o ölkələrdəndir. İndi dünyada 200-ə yaxın müstəqil ölkə var. Amma demək olmaz ki, onların hər biri doğrudan da müstəqildir. Biz, sözün əsl mənasında, müstəqil dövlətik. Çünki öz taleyimizi özümüz həll edirik, siyasətimizi heç kimə baxmadan xalqın, dövlətin naminə, milli maraqların qorunması əsasında aparırıq. Buna görə də dünyada böyük şöhrət qazanmışıq. Baxmayaraq ki, torpaqlarımız uzun illər erməni işğalı altında idi, hətta o vaxt müstəqil siyasət apararaq böyük hörmət qazanmışıq dünyada. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi və ondan üç il sonra antiterror əməliyyatı, bizim Şanlı Zəfərimiz ölkəmizin, xalqımızın nüfuzunu dünyada daha da artırmışdır.





Bax, 1991-ci ilin oktyabrında müstəqillik əldə ediləndə o vaxt hakimiyyətdə olanlar ərazi bütövlüyümüzü qoruya bilmədilər. Hakimiyyətə can atanlar faktiki olaraq Şuşanı, Laçını, o cümlədən bax, bu gözəl kəndi Ermənistana, demək olar ki, satmışdılar. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi. Ovaxtkı hakimiyyət hakimiyyətdə qalmaq istəyirdi. Hakimiyyətə can atan AXC-Müsavat istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. Buna görə də təxribat nəticəsində bu gözəl diyarımız Ermənistana verildi ki, yenidən Azərbaycan bu fəlakətlə üzləşsin. Ondan sonrakı dövr də sizin yadınızdadır: vətəndaş müharibəsi, torpaqlarımızın itirilməsi. Şuşa, Laçın işğal ediləndən sonra bu kənd də işğal olunub. Ermənistanla keçmiş Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılıb və əfsuslar olsun ki, ondan sonra işğal 30 il davam etmişdir.

Biz güc yığırdıq, güc toplayırdıq - həm iqtisadi, həm hərbi, həm beynəlxalq müstəvidə. Hazır olan zaman gəldik və elə gəldik ki, bütün dünyaya səs saldı bizim Şanlı Zəfərimiz. Həm 2020-ci il, həm də 2023-cü il Şanlı Zəfərimizdir və biz əbədi bu Zəfərlə fəxr edəcəyik. Bu gün Azərbaycan ərazisində hər qarış torpaq bizim nəzarətimizdədir. Azərbaycanın suverenliyi, ərazi bütövlüyü tam bərpa edilmişdir. Əldə edilmiş sülh bizim şərtlərimiz əsasında olmuşdur.

Bu, bir daha göstərir ki, xalqımız böyük xalqdır. Əzab-əziyyətə baxmayaraq əyilmədi, iradəsini yerində saxladı və bir ümidlə yaşayırdı ki, gün gələcək və biz bu torpaqlara qayıdacağıq. Son illər ərzində - 2003-cü ildən bu yana keçmiş köçkünlərlə çoxsaylı görüşlərimdə həm işğal dövründə, həm Zəfərdən sonra bir daha əmin oluram ki, bizim xalqımız nə qədər əzəmətlidir, vüqarlıdır və yenilməzdir. Siz 30 il doğma diyarınızdan məhrum edilmişdiniz, amma ümidinizi itirmədiniz, iradənizi qırmadınız və inanırdınız ki, bu gün gələcək və gəldi.

**Kişi sakin:** Bəli, "dəmir yumruğa" inanırdıq.

**Prezident İlham Əliyev:** "Dəmir yumruq" hesabına, xalqımızın birliyi hesabına, Ordumuzun qüdrəti, şəhidlərimizin qanı-canı bahasına bu gün buradayıq və bundan sonra bizi heç kim buradan tərpədə bilməz. Əksinə, hər gün gücümüz artır, imkanlarımız artır. Bölgədə söz sahibiyik.

Ermənilər tərəfindən viran qoyulmuş bu torpaqları, şəhər və kəndləri artıq beş ildir ki, bərpa edirik. Özü də necə? Dünyada bunun tayı-bərabəri yoxdur. Cəmi 5 il ərzində bu qədər iş görmək - ancaq bunu güclü dövlət edə bilər. Bu güclü dövlətin əsasını xalq-iqtidar birliyi təşkil edir.

Sizə isə bundan sonra ancaq cansağlığı. Bu gözəl havanı udun, gözəl suyu için, gözəl mənzərələrə tamaşa edin ki, könül açılsın, adamın zövqünü oxşasın.

**Kişi sakin:** Cənab Prezident, oradan baxırlar bizə, peşmandırlar ki, bir vaxt biz baxırdıq. İndi deyirlər ki, günah özlərindədir. Yaşayırdılar, hər şey də gözəl. Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Mən laçınlılarla görüşəndə, Laçın şəhərinə biz ilk keçmiş köçkünləri qaytaranda elə oturmuşdum ki, bu mənzərə elə düz gözümün qabağında idi. Dedim ki, bilin ha, biz sizi görürük buradan. Özünüzü yaxşı aparın.

**Kişi sakin:** Allah Sizə dəyməsin. Xoş gəlmisiniz. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi. Gəlin, şəkil çəkdirək birlikdə, burada, bu gözəl mənzərədə.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.

**Sakinlər:** Allah Sizi var eləsin.

**Qadın sakin:** Bugünkü Qurban bayramı münasibətilə, müstəqilliyimiz münasibətilə təbrik edirəm. Bu gün bu gözəl torpaqda o gözəl vaxtınızı sərf edib bu vətəndaşlarla görüşdüyünüz üçün Sizə "Çox sağ olun!" deyirəm. Bu Qaladərəsi sakinləri adından Sizə "Çox sağ olun!" deyirəm. Bizim salamlarımızı hörmətli Mehriban xanıma çatdırmağınızı istəyirəm. Çox sağ olun, çox sağ olun ki, bu gözəl Vətəndə, bu torpaqda bizimlə görüşdünüz. Allah şəhidlərimizə rəhmət eləsin. Sizə cansağlığı, uzun ömür arzulayıram. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Şanlı Zəfərimizdən sonra bu gözəl bayramı - 28 May - Müstəqillik Günü bayramını azad edilmiş torpaqlarda qeyd edirəm və bu, artıq bir ənənəyə çevrilib. Hesab edirəm ki, ən düzgün seçimdir. Bu Müstəqillik Günü hər birimiz üçün çox əzizdir. Amma o da faktdır ki, o vaxt - 1918-ci ildə əldə edilmiş müstəqillik cəmi iki il çəkdi. Onu o vaxt saxlaya bilmədik, əlimizdən alındı. Ondan sonra 70 il müstəqil dövlət kimi yaşamadıq.

Müstəqillik 1991-ci ildə bərpa edildi, amma yenə də təhlükə altında idi. Dediyim kimi, erməni işğalı, daxildəki hərc-mərclik, qarşıdurma, vətəndaş müharibəsi, hakimiyyət uğrunda mübarizə faktiki olaraq ölkəmizi məhvə aparırdı. Əgər o vaxt ulu öndər Heydər Əliyev hakimiyyətə gəlməsəydi, indi xalqımızın, dövlətimizin taleyi necə olacaqdı, onu demək çətindir. Hər halda, o vaxt Azərbaycan böyük fəlakətlə üz-üzə idi. O vaxt müharibə dayandırıldı, inkişafa qədəm qoyuldu, güc toplanıldı. Mənim dövrümdə biz hər gün azadlıq gününü arzulayırdıq və hər gün onu yaxınlaşdırırdıq. Siz də, bu ərazilərdə yaşamış insanlar da yaxşı bilirsiniz, nə qədər çətin relyefdir həm buralar, həm də Laçın, Kəlbəcər, Füzuli, Cəbrayıl, orada yeddi müdafiə xətti, minalar var idi. Bizim qəhrəman övladlarımız sinələrini qabağa verərək, özlərini qurban verərək o xətləri yardılar və cəmi 44 gün ərzində biz Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etdik.

Nə ondan qabaq, nə də ondan sonra bu dərəcədə mütləq Qələbə olmamışdır. İndi hər şey göz qabağındadır. Müharibələr yan-yörəmizi əhatə edib: istər Şimalda, istər Cənubda, istər başqa yerlərdə. Yəni bu müharibələrin sonu olacaqmı? Heç kim bilmir. Nə ilə nəticələnəcək? Heç kim bilmir. Bu müharibələrin qalibi kimdir? Onu da demək çətindir, hərə deyir ki, mən qalibəm.

**Kişi sakin:** Allah dövlətimizi qorusun, Sizi qorusun.

**Prezident İlham Əliyev:** Amma bizim Qələbə elə mütləq Qələbə idi ki, burada artıq şəkk-şübhə qalmadı. Bayrağımız da Şuşada, ondan sonra Xankəndidə qaldırıldı və düşmən torpaqlarımızdan qovuldu. Ermənistan ordusu tamamilə darmadağın edilmişdir. Bu gün biz rahat yaşayırıq, qalib xalq kimi və qalib dövlət kimi. Bu, böyük qürur mənbəyidir.

Qısa müddət ərzində belə bərpa-quruculuq işləri aparmaq, bu da xalq üçündür. Yəni insanlar tez qayıtsınlar, rahat yaşasınlar və burada özlərini, necə deyərlər, çox rahat, təhlükəsiz hiss etsinlər, qurub-yaratsınlar, uşaqları böyütsünlər, ağbirçəklərə qulluq etsinlər və həyatdan zövq alsınlar. Siz buna layiqsiniz. Siz 30 il əzab-əziyyət içində yaşamısınız, bundan sonra ancaq xoşbəxt həyat olmalıdır.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.

* * *

Sonda xatirə şəkilləri çəkdirildi.

# Xankəndidə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin açılışı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xankəndi şəhərində əsaslı şəkildə yenidən qurulmuş Mədəniyyət Mərkəzinin açılışında iştirak edib.**

Xankəndi şəhəri, Xocalı və Ağdərə rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Xankəndi şəhərində yerləşən Mədəniyyət Mərkəzinin binası XX əsrin 60-70-ci illərində tikilib. Uzunmüddətli istismar nəticəsində binanın yükdaşıyan konstruksiyalarında aşınmalar, deformasiyalar və müxtəlif zədələnmələr yaranmışdı.




Aparılmış əsaslı yenidənqurma işləri nəticəsində Mədəniyyət Mərkəzində müxtəlif mədəni-kütləvi tədbirlərin təşkili, kino və səhnə fəaliyyəti, yaradıcılıq, təlim, məşğələ, inzibati idarəetmə, turizmyönümlü xidmətlərin həyata keçirilməsi üçün zəruri şərait yaradılıb. Üçmərtəbəli binada akt və kino zalları, müxtəlif sahələrə aid dərnəklərin yerləşdiyi çoxfunksiyalı zona, qrim otaqları, bufet, kassa və suvenir mağazası var. Mərkəzin 348 yerlik zalında konsert, tamaşa, film nümayişi, təqdimat, rəsmi görüş və digər mədəni-kütləvi tədbirlərin keçirilməsi mümkün olacaq.

Yenidənqurma işlərindən sonra bu mərkəz əhalisi artan, o cümlədən tələbələrlə dolu Xankəndinin mədəni mühitinin canlandırılmasında mühüm rol oynayacaq, kütləvi tədbirlərin keçirilməsində əsas məkanlardan biri olacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərimizdə digər sahələrlə yanaşı, mədəni abidələrimizin bərpasına da xüsusi diqqət yetirilir.



Bu, ilk növbədə, zəngin mədəni irsimizin qorunmasına Azərbaycan dövlətinin böyük əhəmiyyət verdiyini göstərir. Eyni zamanda, bu cür layihələrin icrası ümumilikdə işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin həcmini nümayiş etdirir.

# Əlcək istehsalı müəssisəsi işə salınıb









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xankəndidə "GP Safety" MMC-nin iş əlcəkləri istehsalı müəssisəsinin açılışında iştirak edib.**

"GP Safety" MMC-nin təsisçisi Hikmət Əsədov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, burada müxtəlif təyinatlı 4 növdə iş əlcəkləri istehsal ediləcək. Müəssisənin illik istehsal gücü 25 milyon cüt əlcəkdir. Məhsullar daxili bazarın tələbatını ödəmək üçün nəzərdə tutulur. Gələcəkdə isə onların Avropa bazarına ixracı da planlaşdırılır. Burada 35 nəfər işlə təmin olunacaq. Müəssisənin investisiya həcmi 3,5 milyon manatdır. Onun yaradılmasına dövlət dəstəyi də göstərilib. Belə ki, İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1 milyon manat güzəştli kredit ayrılıb. Bundan başqa, investisiya təşviqi sənədi əsasında idxal olunan texnika və avadanlıqlar üzrə 238 min manat ƏDV-dən azadolma tətbiq edilib.

Sonra dövlətimizin başçısı müəssisənin işçiləri ilə söhbət etdi.

**Prezident İlham Əliyev:** İşğal dövründə harada qalırdınız?

**Qadın işçi:** Gəncədə.

**Digər qadın işçi:** Şuşa sakiniyəm.

**Prezident İlham Əliyev:** İndi harada yaşayırsınız? Şuşada?

**Qadın işçi:** Xankəndidə.

**Prezident İlham Əliyev:** Yaxındır, indi yol da çəkilir, daha rahat olacaq. On dəqiqəyə Şuşaya getmək mümkün olacaq. Bir də kanat yolu da olacaq, yəqin ki, eşitmisiniz. Xankəndidən Şuşaya kanat yolu, eşitmisiniz?

**Qadın işçi:** Bəli.

**Prezident İlham Əliyev:** Sağ olun, cansağlığı arzulayıram.

**Qadın işçi:** Allah Sizə dəyməsin.

**Prezident İlham Əliyev:** Sağ olun.

* * *

Qeyd edək ki, bu müəssisənin yaradılması Xankəndidə yüngül sənaye sahəsinin inkişafına töhfə verməklə yanaşı, şəhərin iqtisadi potensialının bərpasında da rol oynayacaq. Bu cür sənaye infrastrukturunun yaradılması yerli əhalinin işlə təmin olunmasına şərait yaradır, həm daxili bazarın tələbatını ödəməyə, həm də ixracyönümlü istehsalın həcmini artırmağa xidmət edir. Bütün bu işlər Azərbaycan dövlətinin Qarabağın iqtisadi potensialının bərpası, onun möhkəmləndirilməsi və müxtəlif təyinatlı məhsul istehsalının təşkili istiqamətində atdığı ardıcıl və məqsədyönlü addımların bir hissəsidir.



# Prezident İlham Əliyev Zəfər tağının önünə gül dəstələri düzüb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqillik Günü münasibətilə mayın 28-də Xankəndi şəhərindəki Zəfər parkında ucaldılan Zəfər tağının önünə gül dəstələri düzüb.**

# Xocalıda hərbi qulluqçulara tikilmiş evlərlə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xocalı rayonunda əsaslı təmir edilən və Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan fərdi evlərdə yaradılmış şəraitlə tanış olub.**

Dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verildi.

Bildirildi ki, burada ümumilikdə 191 fərdi ev var. Onlardan 1-i ikiotaqlı, 70-i üçotaqlı, 93-ü dördotaqlı, 8-i beşotaqlı, 1-i isə səkkizotaqlıdır. Bundan başqa, ərazidə ikimərtəbəli, yeddiotaqlı 18 ev də var.

Evlərdə sakinlərin rahat yaşaması və istirahəti üçün zəruri şərait yaradılıb. Evlər elektrik enerjisi və qazla təchiz olunub. Həmçinin ərazidə kommunikasiya layihələri, o cümlədən məhəllədaxili yolların yenidən qurulması icra olunub. Sakinlərin istirahəti üçün park salınıb, Bayraq meydanı yaradılıb.

Qeyd edək ki, hərbi qulluqçuların xidməti evlərlə təmin olunması, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin mühüm istiqamətlərindəndir. Bu yanaşma ilk növbədə hərbi qulluqçuların, onların ailələrinin sosial qayğılarının həllinə xidmət edir. İndiyədək minlərlə hərbçinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, onların dövlət vəsaiti hesabına mənzillərlə təmin edilməsi istiqamətində konkret layihələr icra olunub.



# Xocalı şəhərində “Qarabağ Tekstil Evi” MMC istifadəyə verilib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Xocalı şəhərində “Qarabağ Tekstil Evi” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) açılışında iştirak edib.**







İqtisadiyyat naziri Mikayıl Cabbarov və “Qarabağ Tekstil Evi” MMC-nin təsisçisi Rizvan Təhməzov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, Türkiyə və Çin texnologiyalarının quraşdırıldığı müəssisədə il ərzində 1,4 milyon ədəd tekstil məhsulu istehsal olunacaq. İlkin mərhələdə müəssisədə müxtəlif çeşiddə və ölçülərdə ev tekstili məhsulları, o cümlədən yataq dəsti, çarpayı və divan örtüyü, dəsmal və digər məhsulların istehsalı nəzərdə tutulur. Xammal tədarükü əsasən daxili bazar hesabına təmin ediləcək müəssisəyə, eyni zamanda, Türkiyə, Özbəkistan və Çindən də xammal idxal olunacaq. Müəssisənin məhsulları daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək.

Müəssisədə 85 nəfər daimi işlə təmin olunub ki, onlar da əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşlardır. Bununla yanaşı, Xocalı və Ağdam rayonlarının 40 sakini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin dəstəyi ilə təşkil edilən 2 aylıq peşə təliminə cəlb olunacaq. Təlim proqramını uğurla başa vuran iştirakçılar müəssisədə işlə təmin ediləcəklər. Gələcəkdə iş yerlərinin sayının 200-ə çatdırılması, əlavə olaraq geyim istehsalının təşkili planlaşdırılır. Qeyd edək ki, “Qarabağ Tekstil Evi” MMC-nin Xankəndi şəhərində yerləşən tikiş fabrikində hazırda 60 nəfər çalışır.

İstehsal müəssisəsinin ilkin investisiya dəyəri 4,2 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3,2 milyon manat məbləğində güzəştli kredit ayrılıb, 1 milyon manat isə özəl investisiya yönləndirilib. Müəssisə işğaldan azad edilmiş ərazilərin rezidentləri üçün nəzərdə tutulan bütün güzəşt və azadolmalardan yararlanacaq.

Müəssisənin fəaliyyətə başlaması ölkəmizdə sənayenin inkişafına, yerli istehsalın və ixrac potensialının genişləndirilməsinə, idxaldan asılılığın azaldılmasına töhfə verəcək, işğaldan azad edilmiş ərazilərdə məşğulluğun artırılmasına şərait yaradacaq. Ümumilikdə işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün əlverişli investisiya və biznes mühiti yaradılıb ki, bu da regionda iqtisadi fəaliyyətin genişlənməsinə və dayanıqlı inkişafın təmin olunmasına xidmət edir. İşğaldan azad edilmiş ərazilərin rezidentləri üçün geniş vergi, gömrük və sosial güzəştlər tətbiq olunur.

*AZƏRTAC*

# “Bakı Enerji Həftəsi”nin iştirakçılarına

Hörmətli tədbir iştirakçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Sizi “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən bu mötəbər tədbirdə səmimi-qəlbdən salamlayıram.

Artıq uzun illərdir ki, “Bakı Enerji Həftəsi” qlobal enerji gündəliyinin formalaşdırıldığı, yeni yanaşma və əməkdaşlıq formatlarının təşəkkül tapdığı nüfuzlu platformaya çevrilib. Bu tədbirin əhəmiyyəti hər il daha da artır. Çünki dünya ənənəvi enerji modelindən dayanıqlı, aşağı karbonlu inkişaf strategiyasına və texnoloji yeniliklərə əsaslanan yeni enerji sisteminə keçid mərhələsini yaşayır. Belə bir şəraitdə Azərbaycanın qlobal enerji dialoqunda rolu daha da güclənir.

Ölkəmizin enerji tarixi zəngin ənənələrə və mühüm tarixi nailiyyətlərə əsaslanır. Hələ XIX əsrdə Azərbaycanda müasir neft sənayesinin formalaşması ölkəmizi qlobal enerji tarixinin aparıcı mərkəzlərindən birinə çevirmişdir. XX əsr ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq enerji tərəfdaşlıqlarının formalaşdığı dövr olmuşdur. XXI əsrdə isə ölkəmiz artıq “yaşıl enerji”yə keçid və dayanıqlı enerji modelinin qurulması istiqamətində yeni mərhələyə qədəm qoymuşdur.

Azərbaycanın həyata keçirdiyi enerji siyasəti bu gün də mühüm nəticələr verməkdədir. Cari il enerji sahəsində bir sıra əlamətdar hadisələrlə yadda qalır. Xüsusilə, “Şahdəniz” qaz yatağı üzrə Hasilatın Pay Bölgüsü Sazişinin imzalanmasının 30 illiyi və bu yataqdan kommersiya qaz hasilatına başlanmasının 20 illiyi Azərbaycanın qlobal enerji bazarında güclü mövqeyini və ölkəmizin enerji strategiyasının uğurla həyata keçirildiyini bir daha təsdiqləyir.

Hazırda dünyada enerji sektoru dayanıqlı inkişafın əsas sütunlarından biridir. Müasir geosiyasi proseslər göstərir ki, enerji təhlükəsizliyinin etibarlı təminatı enerji mənbələrinin şaxələndirilməsi və innovativ texnologiyaların tətbiqi ilə birbaşa bağlıdır. Bu baxımdan, bərpa olunan enerji və aşağı karbon texnologiyalarına investisiyalar sürətlə artır. Enerji keçidi artıq yalnız ekoloji məsələ deyil, həm də iqtisadi təhlükəsizlik və rəqabətqabiliyyətlilik amilinə çevrilmişdir.

Ölkəmiz də “yaşıl enerji” istiqamətində ardıcıl siyasət həyata keçirir və strateji mövqeyini daha da möhkəmləndirir. Avrasiyanın enerji və nəqliyyat marşrutlarının kəsişməsində yerləşən ölkəmiz regional enerji əməkdaşlığının inkişafına etibarlı tərəfdaş kimi mühüm töhfə verir. Bol enerji resursları, formalaşdırılmış infrastruktur və beynəlxalq səviyyədə qazanılmış yüksək etimad əsas üstünlüklərimizdir.

Azərbaycanın zəngin bərpa olunan enerji potensialı “yaşıl enerji” istiqamətində uzunmüddətli strateji hədəflərin həyata keçirilməsi üçün geniş imkanlar yaradır. Beynəlxalq enerji şirkətləri ilə irihəcmli “yaşıl enerji” layihələrinin həyata keçirilməsi və təbii qaz ixracının geniş coğrafiyanı əhatə etməsi ölkəmizin qlobal enerji sistemində etibarlı və strateji tərəfdaş kimi rolunu daha da gücləndirir. Dünya İqtisadi Forumunun enerji keçidi ilə bağlı hesabatında Azərbaycanın qabaqcıl mövqelərdə qərarlaşması da bunun beynəlxalq səviyyədə yüksək qiymətləndirildiyini göstərir.

Bərpa olunan enerji sahəsində mövcud potensialın reallaşdırılması və “yaşıl enerji” imkanlarının genişləndirilməsi qarşıdakı dövrün əsas strateji hədəfləridir. Bu yanaşma enerji sistemində keyfiyyətcə yeni mərhələnin başlanğıcını ifadə edir. Həmin mərhələdə əsas prioritetlər enerji resurslarının səmərəli idarə olunması ilə yanaşı, bərpa olunan enerji mənbələrinin inkişafı, “yaşıl enerji”yə keçidin sürətləndirilməsi və müasir texnologiyaların tətbiqidir.

Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri çərçivəsində “yaşıl enerji zonası” modelinin uğurla tətbiqi ölkəmizin gələcək enerji strategiyasının əsas istiqamətlərindən birinə çevrilmişdir. Bu yanaşmanın uğurla həyata keçirilməsi onun daha da genişləndirilməsinə və Naxçıvanın da “yaşıl enerji zonası” elan edilməsinə zəmin yaratmışdır.

Əminəm ki, “Bakı Enerji Həftəsi” bundan sonra da qlobal enerji dialoqunun genişlənməsinə, yeni təşəbbüslərin formalaşmasına və dayanıqlı enerji gələcəyinin qurulmasına mühüm töhfə verəcəkdir.

Sonda tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürümü bildirir, hər birinizə uğurlu əməkdaşlıq, məhsuldar müzakirələr və yeni nailiyyətlər arzulayıram!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyun 2026-cı il**

# Q.S.Qurbanovun “Dostluq” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Dağıstan Respublikası arasında humanitar, o cümlədən təhsil sahəsində əlaqələrin inkişafında xidmətlərinə görə Qurban Səidoviç Qurbanov “Dostluq” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 iyun 2026-cı il**

# A.H.Hacıyevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə və elmin inkişafında xidmətlərinə görə Asəf Hacı oğlu Hacıyev “Şöhrət” ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 may 2026-cı il**

# Xorvatiya Respublikasının Prezidenti Zati-aliləri cənab Zoran Milanoviçə

Hörmətli cənab Prezident,

Xorvatiya Respublikasının milli bayramı – Dövlətçilik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

Azərbaycan ilə Xorvatiya arasında dostluq və əməkdaşlıq münasibətləri xoş ənənələrə malikdir. İnanıram ki, konstruktiv dialoqumuzun davam etdirilməsi, ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi və əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi xalqlarımızın rifahı naminə bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Xorvatiya xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 26 may 2026-cı il**

# Efiopiya Federativ Demokratik Respublikasının Baş naziri Zati-aliləri cənab Abiy Əhməd Əliyə

**Hörmətli cənab Baş nazir!**

Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Efiopiya arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etməsi və yeni məzmunla zənginləşməsi məmnunluq doğurur.

Fevral ayında Azərbaycana səfəriniz çərçivəsində Sizinlə məhsuldar görüşümüzü, apardığımız fikir mübadiləsini və müzakirələri yüksək qiymətləndirirəm. Səfər əsnasında Azərbaycan-Efiopiya əlaqələrinin gələcək fəaliyyət istiqamətlərinə dair əldə etdiyimiz razılaşmalar ikitərəfli gündəliyimizin əhatə dairəsinin genişləndirilməsi üçün yeni imkanlar açmışdır.

Əminəm ki, dövlətlərarası əlaqələrimizin möhkəmləndirilməsi, müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq potensialının reallaşdırılması istiqamətində birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Efiopiya xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

# Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin açılış mərasimində



*(əvvəli 1-ci səhifədə)*

Bildiyiniz kimi, bu il keçirilən "Bakı Enerji Həftəsi", həmçinin geniş beynəlxalq tədbirlər və yüksəksəviyyəli görüşlər proqramı ilə müşayiət olunur ki, bu da Azərbaycanın beynəlxalq dialoq, strateji tərəfdaşlıq və qlobal əməkdaşlıq üçün mühüm platforma kimi rolunu daha da gücləndirir. 2026-cı ildə keçirilən tədbir yeni iştirakçılar və milli pavilyonlar da daxil olmaqla 46 ölkədən 270-dən çox şirkəti bir araya gətirir ki, bu da Azərbaycanın enerji sektoruna artan beynəlxalq marağı və ölkənin uzunmüddətli strateji potensialına inamı aydın şəkildə əks etdirir.



Bu mühüm tədbirin uğurlu təşkilinə verdiyi davamlı dəstəyə və töhfəyə görə Azərbaycan Respublikasının Energetika Nazirliyinə, Dövlət Neft Şirkətinə, bütün dəyərli tərəfdaşlarımıza və sponsorlarımıza səmimi minnətdarlığımı bildirmək istəyirəm.

İcazə verin, bütün iştirakçıları 31-ci "Bakı Enerji Həftəsi"nin açılışı münasibətilə təbrik edim və sizə məhsuldar müzakirələr, görüşlər və həftə ərzində davamlı uğurlar arzulayım. Diqqətinizə görə təşəkkür edirəm.

İndi isə mən böyük şərəf hissi ilə Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevi tribunaya dəvət edirəm.

*

Sonra dövlətimizin başçısı tədbirdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

– Sabahınız xeyir, xanımlar və cənablar.

Mən "Bakı Enerji Həftəsi"nin bütün iştirakçılarını salamlayıram, bu cür böyük tədbirə uğurlar arzu edirəm.

Artıq qeyd edildiyi kimi, Xəzər Neft və Qaz Sərgisi müasir Azərbaycanın enerji inkişafının bünövrəsini qoydu. Vaxt ötdükcə o dəyişdi, daha böyük vüsət aldı və hazırda çoxsaylı tədbirlər və xeyli faydalı mərasimlərlə yadda qalan "Bakı Enerji Həftəsi" adlanır. Haqlı olaraq bildirildi ki, dünyanın ən iri qaz yataqlarına aid "Şahdəniz" müqaviləsi dəqiqliklə 30 il əvvəl, 1996-cı ilin iyununda imzalanıb. Beləliklə, sayı artan ölkələrin enerji təhlükəsizliyinə töhfə verən Azərbaycanın müasir qaz hasilatında yeni səhifə açıldı. Bu tədbirin əhəmiyyəti, həmçinin ABŞ Prezidenti Donald Trampın nəzakətli məktubunda əks olunub.

Bu bir daha göstərir ki, "Bakı Enerji Həftəsi" qlobal enerji səhnəsində həqiqətən aparıcı tədbirlərdən biridir. Mən nəzakətli məktubuna görə Prezident Trampa çox minnətdaram və həmçinin tədbirə məktub göndərmiş Türkiyə Prezidenti Ərdoğana və Birləşmiş Krallığın Baş naziri Starmerə təşəkkürümü bildirirəm.

Enerji məsələsini yenidən normal məcraya qaytardığına görə Prezident Trampa daha bir təşəkkür düşür. Hamımız bilirik ki, uzun illər neft və qaz hasilatı ilə məşğul olan ölkələr və şirkətlərə damğa vurulurdu, bəzən qarayaxma obyektinə çevrilirdilər, planetin dağıdılmasında ittiham olunurdular. Hər hansı əsas olmadan, ictimai rəylə küncə sıxışdırılırdılar.

Prezident Tramp bu trendi dəyişdi və bu, həqiqətən əla hadisə oldu, çünki hamımız bilirik ki, hətta bəzi iri neft şirkətləri dırnaqarası müasir trendə uyğun olmaq xatirinə öz adlarını dəyişirdilər. Lakin reallıq tamamilə fərqlidir. Dünya faydalı qazıntı olmadan yaşaya bilməz. Hamımız daha yaxşı iqlimi, planetin qorunmasını istəyirik. Lakin bu gün biz praqmatik olmalıyıq, enerji təhlükəsizliyi və həmçinin bərpaolunan enerjiyə sərmayə yatırmaqla yanaşı, öz gələcəyimizi planlaşdırmalıyıq. Düşünürəm, irəliyə doğru aparan yol belədir!

Bir sözlə, hesab edirəm ki, hazırda qlobal enerji səhnəsində baş verən hallar ABŞ Prezidentinin çox müdrik və praqmatik siyasəti sayəsində ərsəyə gəlmişdir. Hamımız ona bir daha minnətdarıq. Ölkələr neft və qazın mövcud olmasına görə günahlandırılmalı deyil, çünki neft və qaz digər adi əmtəə kimidir. Hər bir ölkə torpağının təkində və ya dənizinin dibində olanı öz inkişafı üçün istifadə edir. Öz müstəqilliyinin əvvəlində Azərbaycanda məhz belə hal idi. Neft və qaz bizim üçün müstəqil ölkə kimi yaşamağın yeganə yolu oldu. Beləliklə, ölkələr neftin olub-olmaması ilə deyil, gəlirlərdən necə istifadə etdiklərinə görə mühakimə edilməlidir. Diqqət yetirilməlidir ki, öz ölkəsinin inkişafı, xalqının daha yaxşı yaşayış şəraitinin təminatı, yaşıl gündəlik məsələlərinə enerjinin istehsalından əldə edilən vəsaitləri onlar necə sərmayə kimi yatırırlar. Düşünürəm ki, Azərbaycan çox bariz nümunədir. Bütün bunlar göstərir ki, ölkənizi beynəlxalq sərmayələrə açıq edəndə, milli maraqlara əsaslanan müdrik siyasət aparanda siz uğur qazanırsınız.

Hörmətli iştirakçı və təşkilatçı tərəfindən qeyd edildi ki, Azərbaycanın enerji inkişafı 1994-cü ildə başladı. Yeri gəlmişkən, təşkilatçılara da öz dərin təşəkkürümüzü bildiririk. Əgər 1994-cü ilə nəzər salsaq, keçmişdə Azərbaycanın çox ağır vəziyyətdə olduğunu görə bilərik. Ölkə iqtisadi baxımdan tam qarışıq, siyasi baxımdan qeyri-sabit idi. Ərazinin təxminən 20 faizi Ermənistanın işğalı altında idi. Bir milyon qaçqın var idi və həmin vaxt, bu, ola bilsin, adambaşına düşən ən yüksək qaçqın sayı idi. Bizim heç bir vəsaitimiz yox idi. Elektrik enerjisini idxal edirdik. Biz hətta təbii qazı idxal edirdik. Yoxsulluq səviyyəsi 50 faizdən artıq idi. İşsizlik geniş yayılmışdı. Müstəqil ölkə kimi yaşamaq və irəliyə getməkdə bizim üçün yeganə yol sahib olduğumuz təbii sərvətlərdən istifadə idi. Azərbaycan ilk ölkə idi ki, Xəzərin ehtiyatlarını beynəlxalq neft şirkətlərinə açıq etdi. Həmin vaxtdan etibarən çox hadisələr oldu.

Əgər bu gün biz Azərbaycana nəzər salsaq həmin transformasiyaya gəldikdə, bu sərvətlərdən necə istifadə etdiyimizə, onun yenidən sosial infrastruktura, təhsilə, səhiyyəyə, enerji sahəsinin inkişafına yatırdığımıza əsasən deyə bilərik ki, ölkələr necə inkişaf etməlidir və bu yol 1990-cı illərin əvvəlində üzləşdiyimiz eyni problemlərdən müəyyən dərəcədə əziyyət çəkən ölkələr üçün örnək olmalıdır.

Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu gün bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur.

Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi. Biz həm investorlara, həm də ev sahibi ölkəsinə qazanc gətirən vəziyyəti yaratdıq. Biz milli maraqlar üzərində dayanan çox praqmatik siyasət həyata keçirtdik və işimizə müdaxilə etmək, bizə pis məsləhət vermək istəyənlərə qulaq asmadıq. Biz hər bir işi strategiyamız əsasında etdik. Bütün taktiki gedişlərimiz həmin strategiyaya əsaslanırdı. Biz demək olar ki, 30 il ərzində işğal altında qalmış torpaqlarımızı azad edən güclü ordu qurduq. Biz cəmi 44 gün ərzində Ermənistanı tamamilə məğlub etdik və kapitulyasiya aktını imzalamağa məcbur etdik. Əlbəttə ki, müharibədə qələbə dedikdə, sadəcə, pul və hətta silahlar nəzərdə tutulmur. Söhbət döyüş ruhundan gedir. Lakin gəlin etiraf edək, ordunu qurmaq üçün pulumuz olmasaydı, yəqin ki, bu gün hələ də torpaqlarımız işğal altında olardı. Beləliklə, Azərbaycanın inkişafı, - istər sosial, iqtisadi, hərbi, istərsə də xarici siyasət olsun, - bütün bunlar onu nümayiş etdirir ki, təbii sərvətlərdən düzgün istifadə olunan zaman onlar bir çox üstünlüklərə yol aça bilər.

Enerji təhlükəsizliyi. Biz hamımız ondan danışırıq, xüsusilə indi Yaxın Şərqdəki böhran bir çox ölkələrin, istehsalçı və istehlakçıların enerji təhlükəsizliyinə ciddi zərbə vurduğu vaxtda. Biz bunun üzərində uzun illər çalışmışıq. Biz böyük sərmayələr yatırmışıq və Xəzər dənizini Aralıq dənizi ilə ilk dəfə birləşdirən Bakı-Tbilisi-Ceyhan, Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəmərləri kimi irimiqyaslı infrastruktur layihələrinə başlamışıq. Cənubi Qafqaz qaz kəməri ilə günümüzün ən iddialı enerji infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizini təşkil edən TANAP və TAP, Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri 3500 kilometr uzunluğunda birləşmiş boru xətti sistemindən ibarətdir. Layihənin bir hissəsi yüksək dağlıq ərazidən keçir, bir hissəsi isə dənizin dibi ilə gedir. Bu gün bu layihə sayı artmaqda olan ölkələrin enerji təhlükəsizliyini təmin edir. Biz bu layihəyə başladıq və bizimlə birlikdə olan tərəfdaş ölkələrə və şirkətlərə minnətdarıq.

Bu gün Avropa enerji bazarının Cənub Qaz Dəhlizi olmadan necə olacağını təsəvvür etmək çətindir. Qeyd etdiyim kimi, biz sayı artmaqda olan ölkələri qazla təchiz edirik. Keçən il burada – "Bakı Enerji Həftəsi"ndə mən auditoriyaya məlumat verdim ki, Azərbaycan qazını 12 ölkə alır. Bu gün onların sayı 16-dır və onlardan 10-u Avropa İttifaqına üzv olan ölkələrdir. Bu ölkələrin sayı, əlbəttə ki, artacaqdır. Boru xətti ilə qazın müxtəlif ölkələrə nəql edilməsi, ərazi və coğrafiya kimi parametrlərə baxsanız görərsiniz ki, biz dünyada birinciyik. Biz qaz təchizatımızı artıracağıq. Yeri gəlmişkən, bu gün bizdə bir neçə sənədin imzalanma mərasimi olacaq. Mən xüsusilə "Azəri-Çıraq-Günəşli" dərin qaz layihəsini vurğulamaq istəyirəm, biz bunu belə adlandırırıq. Bu layihə üzrə Abşeron yatağı və bir çox digər yataqlarla yanaşı, əlavə qaz hasil ediləcəkdir. Beləliklə, bizim qlobal enerji təhlükəsizliyinə töhfəmiz, əlbəttə ki, artacaqdır. Düzgün enerji siyasəti bizə Azərbaycandan xaricə sərmayə yatırmağa imkan verdi. Otuz il bundan əvvəl biz investorları cəlb edirdik. İndi isə öz investisiyalarımızla xaricə çıxırıq. Bu gün Dövlət Neft Şirkəti – SOCAR Yaxın Şərq, Afrika və Mərkəzi Asiyaya investisiya yatırır və bu coğrafiya daha da genişlənəcək.

– Biz Xəzər dənizinin şərq sahillərində yerləşən dost və tərəfdaşlarımız üçün mühüm tranzit imkanları təqdim edirik. Mərkəzi Asiyadan hasil olunan neft Azərbaycan ərazisindən keçərək beynəlxalq bazarlara çıxarılır. Ümid edirəm ki, yaxın gələcəkdə təbii qazla bağlı da eyni sözləri deyə biləcəyik.

Biz emal sənayesində yüksək dərəcədə şaxələndirilmiş imkanlar yaratmışıq. Bu gün SOCAR-ın neft emalı gücü 30 milyon tondan artıqdır. Bu yaxınlarda "Italiana Petroli"nin satın alınması nəticəsində Aralıq dənizi hövzəsindəki emal gücümüz 13 milyon tondan 23 milyon tona yüksəlmişdir. Beləliklə, biz yalnız neft və qaz deyil, həm də neft məhsullarını təchiz edirik. Bununla yanaşı, elektrik enerjisi, neft-kimya məhsulları və bərpaolunan enerji sahəsində də ixrac imkanlarımız mövcuddur. Bu istiqamət fəaliyyətimizin əsas prioritetlərindən biridir. Artıq qeyd etdiyim kimi, ölkələr sahib olduqları neft ehtiyatlarına əsasən deyil, həmin resurslardan əldə olunan gəlirləri necə idarə etdiklərinə və bərpaolunan enerjiyə necə sərmayə yatırdıqlarına görə qiymətləndirilməlidirlər.

Mövcud qaz ehtiyatlarımız ən azı növbəti yüz il ərzində həm ölkəmizin, həm də tərəfdaşlarımızın tələbatını ödəməyə kifayət edəcəkdir. Əslində, bu ehtiyatlar nəzərə alındıqda, elektrik enerjisinin istehsalı üçün əlavə mənbələrə ehtiyacımız olmazdı. Lakin məsuliyyətimiz bizdən bərpaolunan enerji mənbələrinə sərmayə yatırmağı tələb edir. Biz bunu edirik. Tərəfdaşlarımızla birlikdə investorlar üçün olduqca əlverişli şərait yaratmışıq. Bu şərait mahiyyət etibarilə ötən əsrin 90-cı illərinin əvvəllərində neft şirkətləri üçün yaradılmış imkanlara bənzəyir. Bu gün eyni əməkdaşlıq ruhu və investisiyaya açıq yanaşma bərpaolunan enerji sektorunda fəaliyyət göstərən şirkətlərə də tətbiq olunur.

Artıq bir sıra layihələrimiz istismar mərhələsindədir. Gələn ilin sonunadək Günəş və külək enerjisi üzrə ümumi gücümüz 2 giqavata çatacaq. 2032-ci ilin sonunadək isə bu göstərici 8 giqavat təşkil edəcək. Əgər fəal şəkildə inkişaf etdirdiyimiz hidroenerji potensialını da nəzərə alsaq, xüsusilə Qarabağda və Şərqi Zəngəzurda artıq 300 meqavatdan çox güc istifadəyə verilmişdir. Bu da ölkəmiz üçün əlavə enerji potensialı yaradır. Həmin potensial neft və qaz ixracımızı tamamlayan bir mənbəyə çevriləcəkdir.

Bu gün biz tərəfdaşlarımızla enerji kabeli layihələri üzrə sıx əməkdaşlıq edirik. Texniki-iqtisadi əsaslandırma mərhələsinin artıq yekunlaşmaq üzrə olduğu "Qara dəniz Enerji Kabeli" layihəsi Azərbaycanı Gürcüstan, Qara dəniz vasitəsilə Rumıniya, Macarıstan və digər ölkələrlə birləşdirəcək. Azərbaycan–Gürcüstan–Türkiyə–Bolqarıstan marşrutu üzrə quruda çəkiləcək elektrik kabeli layihəsi də hazırda icra mərhələsindədir. Bu yaxınlarda həmin ölkələrin hökumət nümayəndələrinin çox səmərəli görüşü keçirilmişdir.

Biz, həmçinin Mərkəzi Asiyadakı tərəfdaşlarımızla birlikdə Xəzərin şərq sahillərindən Azərbaycana qədər uzanacaq yaşıl enerji kabeli layihəsi üzərində işləyirik.

Beləliklə, söhbət geniş coğrafiyanı əhatə edən böyük əməkdaşlıq məkanından gedir və bu bağlılıq yalnız nəqliyyat sahəsi ilə məhdudlaşmır. Halbuki, nəqliyyat sahəsində əldə etdiyimiz nailiyyətlərlə də haqlı olaraq fəxr edə bilərik. Dəmir yolu və avtomobil yolu infrastrukturuna qoyduğumuz sərmayələr sayəsində yeni nəqliyyat dəhlizləri açmışıq və qitələri bir-biri ilə əlaqələndirmişik.

Şərq-Qərb dəhlizi uğurla fəaliyyət göstərir. Şübhəsiz ki, Şərq-Qərb dəhlizinin yeni qolu olacaq Zəngəzur dəhlizi də inşa ediləcəkdir. Bu, ötən il avqustun 8-də Ağ Evdə Amerika Birləşmiş Ştatlarının Prezidenti, Ermənistanın Baş naziri və mənim tərəfimdən imzalanmış sənədə əsaslanır. Bütün bunlar hamımız üçün böyük sərvətdir.

Xüsusilə vurğulamaq istədiyim digər bir məsələ isə ondan ibarətdir ki, bütün bu nailiyyətlər yüksəksəviyyəli diplomatik fəaliyyət nəticəsində mümkün olmuşdur. Çünki Azərbaycan dənizə birbaşa çıxışı olmayan ölkədir. Bizim dünya okeanlarına çıxışımız yoxdur. Bu səbəbdən enerji resurslarımızı ixrac etmək üçün digər ölkələrin ərazisindən keçmək zərurəti yaranır. Buna nail olmaq üçün isə yalnız qonşularınızla deyil, qonşularınızın qonşuları ilə də yaxşı münasibətlər qurmalısınız. Biz buna nail olmuşuq.

Qeyd etdiyim kimi, bu gün Cənub Qaz Dəhlizi və onun genişləndirilmiş marşrutları vasitəsilə Azərbaycanın qazı 16 ölkəyə çatdırılır. Bu ölkələrin hər biri ilə danışıqlar aparmışıq, sazişlər imzalamışıq, fikir ayrılıqlarını aradan qaldırmışıq və imzalanma mərasimləri təşkil etmişik. Nəticədə geniş mənada regional əməkdaşlığın çoxşaxəli və əhatəli formatı meydana gəlmişdir. Bu prosesdə aparıcı qüvvə yenə də Azərbaycan olmuşdur. Bu, bizim resurslarımız idi. Bu, bizim təşəbbüslərimiz idi. Əsas etibarilə, məhz bizim investisiyalarımız bu geniş əməkdaşlıq formatının yaranmasını təmin etmişdir.

Əminəm ki, ənənəvi olaraq "Bakı Enerji Həftəsi" bu dəfə də uğurlu nəticələr verəcəkdir. Bir neçə dəqiqədən sonra bu nəticələrin bir qisminin şahidi olacağıq. Lakin əminəm ki, aparılan müzakirələr, təmaslar, yeni ideyalar və nəticəyönümlü planlar hamımız üçün faydalı olacaqdır. Bir daha bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

*

Sonra ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi **Kaleb Orr** çıxış edərək dedi:



– Sağ olun, Prezident Əliyev. Prezident Trampın rəhbərlik keyfiyyətləri ilə bağlı söylədiyiniz fikirlərə görə Sizə təşəkkürümüzü bildiririk və düşünürəm ki, Prezident Tramp və Dövlət katibi Rubio bundan çox məmnundur. Sizə uğurlar arzu edirik.

Hörmətli cənab Prezident, nazir Şahbazov, hörmətli Rövşən Nəcəf, nazirlər, xanımlar və cənablar.

Bu gün 31-ci "Bakı Enerji Həftəsi"ndə sizinlə burada olmaqdan çox məmnunam.

Üç onillik ərzində ABŞ və Azərbaycan Respublikası uzunmüddətli tərəfdaşlıq qurmuşdur. Azərbaycan enerji təhlükəsizliyinin irəliyə doğru aparılmasında regionda çox mühüm tərəfdaşdır. Azərbaycan, həmçinin müasir neft sənayesinin beşiyidir. Bizim 30 il öncə imzaladığımız "Əsrin müqaviləsi" bütövlükdə bütün neft və qaz bazarlarında vəziyyəti dəyişdi, bir çox nəsillərə xidmət etdi.

Bizim strateji tərəfdaşlığımıza dair Saziş Bakıda Vitse-prezident Vens və Azərbaycan Prezidenti Əliyev tərəfindən imzalanmışdır. Birləşmiş Ştatlar bundan sonra da təbii sərvətlərin hasil olunması və ixrac edilməsi istiqamətində Azərbaycanla əməkdaşlığı davam etdirmək arzusundadır. İndi isə mən ABŞ Prezidenti Donald Trampın məktubunu oxumaq istərdim.

"Zati-aliləri, Azərbaycan Respublikasının Prezidenti hörmətli cənab İlham Əliyev.

31-ci "Bakı Enerji Həftəsi"ni keçirdiyiniz vaxtda Sizə və Azərbaycan xalqına öz təbriklərimi çatdırıram. Bu nailiyyət Azərbaycanın enerji təhlükəsizliyi sahəsində göstərdiyi liderlik keyfiyyətlərinin sübutudur.

Ölkələrimiz karbohidrogen sektorunda uzun tarixi olan əməkdaşlığa malikdir və əlçatan, zəngin enerjinin təmin edilməsinə sadiqdirlər. Birləşmiş Ştatlar Azərbaycanın neft-qaz sənayesinin çox böyük tərəfdarıdır və mən qətiyyətlə inanıram ki, qlobal enerji təhlükəsizliyi sahəsində əsaslı tərəfdaşlığımızın əhəmiyyəti gələcək illərdə yalnız artacaqdır.

Biz Ağ Evdə görüşdüyümüz zaman irəliyə doğru addım atdıq və Ermənistan ilə Azərbaycan arasında uzunmüddətli sülhə nail olduq. Bildiyiniz kimi, regional enerji inteqrasiyası avqustun 8-də keçirilmiş tarixi sülh sammitinin əsas sütunudur. Mənim Administrasiyam bu mövzu ilə əlaqədar iyun ayında məhsuldar müzakirələri səbirsizliklə gözləyir.

Biz birlikdə sülhü irəliyə doğru aparacaq, rifahı gücləndirəcək və Sizin bölgədə, bütün dünyada daha əmin gələcək quracağıq. Uğurlu "Bakı Enerji Həftəsi" münasibətilə bir daha təbriklərimi çatdırıram.

Səmimiyyətlə,

***Donald TRAMP."***

**Kaleb Orr:** Bir daha təşəkkür edirəm, cənab Prezident, hörmətli qonaqlar, sizə bu həftə işinizdə uğurlar arzulayıram.

*

Daha sonra Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri **Alparslan Bayraktar** Prezident Rəcəb Tayyib Ərdoğanın



"Bakı Enerji Həftəsi"nə məktubunu oxudu:

"Hörmətli iştirakçılar, hörmətli qonaqlar.

Sizi ən səmimi duyğu və sevgi ilə salamlayıram.

Otuz ildən artıq müddətdir qlobal enerji liderlərini, investorları və şirkətləri bir araya gətirən bu mötəbər foruma məktub göndərməklə də olsa, müraciət etməkdən böyük məmnunluq duyuram.

Regionumuzda yaşanan proseslər Azərbaycanla birlikdə enerji sahəsində atdığımız addımların nə qədər düzgün olduğunu göstərir. Bölgəmiz üçün xəyal kimi görünən bir çox meqalayihəni Azərbaycanla birlikdə uğurla həyata keçirməkdə davam edirik. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TANAP boru kəmərləri kimi layihələr Azərbaycanla birlikdə başlatdığımız və digər bir dost ölkə Gürcüstanın da töhfələri ilə başa çatdırdığımız layihələr arasındadır.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" layihələrində tərəfdaşlığımız sayəsində Azərbaycanla əməkdaşlığımızın daha da dərinləşdiyini görürük. "Şəfəq-Asiman" yatağı üzrə yeni tərəfdaşlığımız bu əməkdaşlığımızın fasiləsiz şəkildə davam etməsinin növbəti bariz sübutudur. Ötən il istifadəyə verilən İğdır-Naxçıvan qaz kəməri Naxçıvan bölgəsinin enerji təhlükəsizliyini dəstəkləyib və möhkəmləndirib.

Türkiyə ilə Azərbaycan arasındakı elektrik bağlantıları bizim üçün strateji əhəmiyyət daşımaqdadır. İnşallah, Türkiyə, Azərbaycan, Gürcüstan və Bolqarıstan arasında yaşıl elektrik enerjisinin ötürülməsi və ticarəti layihəsinin həyata keçirilməsi ilə bütün regionumuzun enerji təhlükəsizliyinə töhfə verməyi düşünürük.

Eyni qaydada, ötən ilin avqust ayında Türkiyə və Azərbaycanın birgə təşəbbüsü nəticəsində Suriyaya qaz tədarükünün başlanmasının bu ölkənin inkişafına və regional təhlükəsizliyə töhfələri mübahisəsizdir. Türkmənistan qazının Azərbaycan və Türkiyə vasitəsilə ixracı istiqamətində əməkdaşlığımızı genişləndirmək üçün qarşımızda böyük imkanlar mövcuddur. Qazaxıstanın təbii ehtiyatlarının Qərb bazarlarına çatdırılmasında Bakı-Tbilisi-Ceyhan boru kəmərindən istifadənin daha da artmasının şahidi oluruq.

Hörmətli iştirakçılar, Türkiyə bərpaolunan və yaşıl enerji də daxil olmaqla enerji sektorunun bütün istiqamətlərində səmərəliliyi və ətraf mühitə qayğını əsas götürərək məhsuldarlığı təmin etməyə yönəlmiş baxışa sahibdir. Qlobal iqlim fəaliyyəti sahəsində öncül və nümunəvi ölkələrdən biri olmaq əzmimizi bu il noyabrın 9-20-də Antalyada ev sahibliyi edəcəyimiz COP31 Sammiti ilə daha da möhkəmləndirəcəyik.

Bu fikirlərlə "Bakı Enerji Həftəsi"nin ölkələrimiz və regionumuz üçün xeyirlərə vəsilə olmasını arzulayıram. Tədbirin təşkilində əməyi olanlara təşəkkür edir, Əziz Qardaşım Prezident cənab Əliyevi və bütün iştirakçıları səmimiyyətlə salamlayıram.

***Rəcəb Tayyib ƏRDOĞAN,***
***Türkiyə Prezidenti".***

**Alparslan Bayraktar:** Hörmətli Prezident Əliyev, hörmətli iştirakçılar. Bir daha "Bakı Enerji Həftəsi"nin açılışında sizin qarşınızda çıxış etməkdən çox məmnun olduğumu bildirirəm. Mən cənab Prezident İlham Əliyevə və Azərbaycan Hökumətinə təşəkkürümü bildirirəm ki, onlar bizə çox səmimi qonaqpərvərlik göstərdilər.

Bu gün biz məhz əlçatan və etibarlı enerjinin təchizatı haqqında danışırıq. Geosiyasi təlatümlər, regionumuzda müharibələr – bu, bizim vəziyyətimizi daha da çətinləşdirir və biz daim enerji sistemimizdə qlobal çətinlikləri görürük. Bu gün baş verən qlobal hadisələr bir daha bizə xatırlatdı ki, enerji təhlükəsizliyi bütün ölkələr üçün strateji prioritet olaraq qalır. Bu gün enerji təhlükəsizliyi sərvətlərə sırf çıxışla məhdudlaşmır, bu, həmçinin təchizatın etibarlılığı, əməliyyatların çevikliyi, bütün imkanların genişləndirilməsi və əməkdaşlıqla bağlıdır. Biz bu gün qarşımızda duran çağırışlara tab gətiririk. Lakin eyni zamanda, biz yeni meydana gələn, bəşəriyyətin üzləşdiyi çətinliklər və iqlim dəyişiklikləri ilə mübarizə aparırıq. Bütün bunlar bizim tərəfimizdən səylərin birləşdirilməsinə, düzgün və etibarlı şəkildə bütün ölçülər arasında tarazlığın tapılmasına imkan yaradır. Biz Türkiyə olaraq hesab edirik ki, burada asılılığımızı azaltmalıyıq və 2050-ci ildə xalis sıfır göstəricisinə nail olmaq planımızı vacib hesab edirik. Bu gün biz Türkiyənin bütün mövcud gücündən istifadə edirik və bütün Avropada beşinciyik, aparıcı mövqedəyik.

*(ardı 6-cı səhifədə)*

# Prezident İlham Əliyev "Bakı Enerji Həftəsi"nin açılış mərasimində

*(əvvəli 5-ci səhifədə)*

Eyni zamanda, biz Günəş enerjisinin daha geniş şəkildə istifadəsinə ümid bəsləyir, yeni enerji quruluşu üzərində işləyirik və daha müqavimətli, daha çevik, daha rəqəmsal formatda çalışan sistemlər qururuq. Təbii ki, bu gün təbii sərvətlər, enerji bizim bazarlarımızın əsasını təşkil edir və bir çox layihələr bundan asılıdır. Bu isə infrastrukturun genişləndirilməsindən, daha böyük sərmayələrin yatırılmasından və əlbəttə ki, qonşularımızla işbirliyinin qurulmasından keçir. Təbii ki, bu gün Türkiyə öz tərəfdaşları ilə iş sayəsində maye qaz və qaz bazarında da çox mühüm dayanıqlı mövqeyə malikdir. Əlbəttə, biz özümüzün qaz hasilatına gəldikdə, növbəti illər ərzində bu artacaq və ümid edirik ki, 7,5 milyard kubmetr həcminə çatacaq, eyni zamanda, bu ilin sonuna qədər biz "Ağ quyu" layihəsinin ilk mərhələsinin tamamlanmasına ümid edirik.

Hörmətli iştirakçılar, bu gün Azərbaycan ilə Türkiyə arasındakı münasibətlər çox gözəl bir nümunədir ki, əməkdaşlıq, strateji dəyər bütün region üçün təmin edilə bilər. Bizim tərəfdaşlığımız ümumi tariximizdə, qardaşlığımızda əks olunur və biz Avropanın enerji təhlükəsizliyinə birgə töhfə veririk.

Burada Zati-aliləri cənab Prezident Əliyev Bakı-Tbilisi-Ceyhan, TANAP və digər layihələri xatırlatdı. Bütün bunlar məhz regionda enerji quruluşunun təmin edilməsinə yönəlib ki, bu da əslində həm istehlakçılar, həm hasilatçılar, həm də tranzit ölkələr üçün çox mühüm bir nümunəyə çevrilmişdir. Hesab edirik ki, bizim əməkdaşlığımız bu hüdudlardan kənara çıxır. Türkiyə ilə Azərbaycan, həmçinin bərpaolunan elektrik enerjisinin nəql edilməsində və enerji dəhlizlərinin açılmasında əməkdaşlıq edir. Gürcüstanla, Bolqarıstanla və digər qonşularımızla əməkdaşlıq edirik. Biz istəyirik ki, həmin TANAP-ın elektrik variantını yaradaq. Şərq ilə Qərb arasındakı strateji mövqeyindən irəli gələrək Türkiyə bundan sonra da etibarlı tərəfdaş olaraq qalacaq və regionda enerji layihələrinin icrasına öz töhfəsini davam etdirəcək. Bu il ərzində nəzərdə tutulan işlərə gəldikdə, ümid edirik ki, Türkiyə, həmçinin iqlim sahəsində aparılan dialoqa öz töhfəsini verəcək.

Mən bir daha cənab Prezident Əliyevə və Azərbaycan Hökumətinə bu gün bizi qəbul etdiyinə görə təşəkkürümü bildirirəm ki, bizi belə mühüm məkanda ənənəvi tədbir çərçivəsində bir araya gətirib. Təşəkkür edirəm.

*

Böyük Britaniyanın Şərqi Avropa və Mərkəzi Asiya üzrə ticarət komissarı **Devid Rid** çıxış edərək dedi:



– Zati-aliləri Prezident İlham Əliyev.

Zati-aliləri xanımlar və cənablar.

Mən böyük məmnunluq hissi ilə Birləşmiş Krallığı 31-ci "Bakı Enerji Həftəsi"ndə təmsil edirəm və ticarət komissarı kimi ezam olunmuşam.

İndi isə Baş nazir Kir Starmerin məktubunu oxumaq istəyirəm.

"Hörmətli Prezident Əliyev.

2026-cı ilin "Bakı Enerji Həftəsi"ndə iştirak edən hər kəsə səmimi salamlarımı yetirməkdən məmnunam. Qlobal qeyri-müəyyənlik dövründə Azərbaycan beynəlxalq enerji təhlükəsizliyinin və dayanıqlı mövqenin gücləndirilməsində çox mühüm tərəfdaş olaraq qalır.

On səkkiz ay əvvəl COP29-da iştirak üçün Bakıya səfər etdiyimiz zaman enerji keçidinə Azərbaycanın yetirdiyi ciddi diqqət mənə dərin təəssürat bağışladı. Həmin vaxtdan etibarən planlar fəaliyyətə çevrildi və bərpaolunan mənbələrdə enerji istehsalı sürətləndi, həm quruda, həm də dənizdə yaşıl enerjinin nəqli üçün geniş həll variantları təqdim olundu. Ölkəniz Ukraynanın enerji infrastrukturuna Rusiyanın davamlı və qanunsuz hücumları qarşısında həmin ölkənin enerji dayanıqlılığının möhkəmləndirilməsində mühüm rol oynadı. Ölkəniz təchizat zəncirlərinin şaxələndirilməsi yolu ilə öz enerji dayanıqlılığını formalaşdırmaq məqsədilə Avropa ölkələrinə imkanlar yaratdı. Həmçinin ötən il ölkəniz Sizin uzunmüddətli sülhə sadiqliyinizi gücləndirərək Ermənistana enerji ixracına başladı.

Ortaq iqlim məqsədlərinə doğru çalışdığımız bir vaxtda Birləşmiş Krallıq iqlimə müqavimətimizi gücləndirmək və 2050-ci ilə qədər xalis sıfra nail olmaq məqsədilə bu hökumətin planları üçün çox vacib olan qlobal enerji keçidini sürətləndirmək naminə Azərbaycanla çiyin-çiyinə işləməyə sadiq qalır. Britaniyanın sənayesi başda olmaqla, bizim uzunmüddətli enerji tərəfdaşlığımız ikitərəfli münasibətlərimizin təməl daşı rolunu oynayacaq, hər iki iqtisadiyyatda artımı sürətləndirən amil kimi davamlı xidmət edəcək. Bərpaolunan enerji və təmiz texnologiyalar sahəsində ekspert bacarıqlarımızı birləşdirərək, biz xalis sıfra nail olmaq və çiçəklənən, davamlı gələcəyi təmin etmək baxımından zəruri olan innovasiyanı inkişaf etdirə bilərik.

Bu təşəbbüs üçün göstərdiyiniz liderlik keyfiyyətlərini alqışlayır, Sizə və bütün iştirakçılara olduqca məhsuldar və uğurlu tədbir arzu edirəm.

***Kir STARMER,***
***Britaniyanın Baş naziri".***



*

Avropa Komissiyasının Enerji üzrə Baş Direktorluğunun Enerji, təhlükəsizlik və beynəlxalq münasibətlər üzrə şöbəsinin rəhbəri **Kristina Lobilla Borrero** çıxış edərək dedi:



– Zati-aliləri.

Hörmətli nazirlər, hörmətli qonaqlar, xanımlar və cənablar.

Bu gün Xəzər Neft və Qaz Sərgisinin açılışında sizinlə birlikdə olmaqdan şərəf duyuram.

Yaxın Şərqdəki mövcud böhran, enerji təhlükəsizliyi bir daha qlobal məsələləri ön plana çıxartdı. Rusiyanın Ukraynaya hücumunun doğurduğu kəskin təchizat böhranından yenicə çıxdıqdan sonra indi başqa bir böhranla qarşılaşırıq. Avropada bu, təchizat çatışmazlığı ilə deyil, dəyişkən qiymətlərlə müəyyən edilir.

Avropa İttifaqı 2050-ci ilə qədər dekarbonizasiya hədəflərimizə qətiyyətlə sadiqdir. Bu yolda irəlilədiyimiz dövrdə biz qazın xalis idxalçısıyıq və həm qiymət dəyişməsindən, həm də təchizat problemlərindən asılıyıq. Bu kontekstdə etibarlı tərəfdaşlar çox vacibdir. Azərbaycan enerji tərəfdaşı, Avropa İttifaqının daha geniş əlaqə və gündəliyinin bir hissəsi kimi mühüm rol oynayır. Buna görə də icazə verin, bu mühüm tədbir üçün hökumətləri, sənaye nümayəndələrini, investorları və texnologiya təminatçılarını bir araya gətirdiyi üçün Azərbaycana təşəkkürümü ifadə edim.

Uzun illərdir ki, bu forum enerji sektoru üçün vacib olan məsələləri gündəmə gətirir. Bunlar təkcə Xəzər regionu üçün deyil, həm də Avropa və daha geniş beynəlxalq enerji birliyi üçün mühüm məsələlərdir. Bakının uzun və möhtəşəm enerji tarixi var. Bununla yanaşı, Bakı enerji tərəfdaşlıqlarının gələcəyinin müzakirə olunduğu bir məkandır. Avropa Komissiyası üçün bu görüş neft və qazın qlobal enerji təhlükəsizliyi, sənaye fəaliyyəti, nəqliyyat və enerji bazarlarının sabitliyində mühüm rol oynamağa davam etdiyi xüsusi bir vaxtda keçirilir. Azərbaycan və Xəzər regionu Avropanın enerji təchizatının etibarlılığını gücləndirməyə kömək edən Cənub Qaz Dəhlizi də daxil olmaqla bu səylərə əhəmiyyətli töhfə verib. Bu töhfə olduqca yüksək qiymətləndirilir. 2021-ci ildən etibarən Avropa İttifaqı Azərbaycandan təbii qaz idxalını 40 faizdən çox artırıb. Bu ilin yanvarında Trans-Adriatik boru kəməri ilə 1,2 milyard kubmetr həcmində qaz çatdırılıb. Bu da 2026-cı ildə əlavə qaz tədarükü deməkdir.

Bu gün güclü enerji tərəfdaşlığı yalnız həcmlərlə ölçülmür. Onlar, həmçinin etibarlı təchizat, yüksək əməliyyat standartları, resurslardan səmərəli istifadə, şəffaf hüquqi çərçivələr və metan emissiyalarının azaldılması daxil olmaqla ətraf mühit göstəriciləri ilə ölçülür. Azərbaycanla əməkdaşlığımız bərpaolunan enerji mənbələri və interkonnektorlar sahəsində də genişlənir. Biz Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi planını diqqətlə izləyirik.

Xəzər regionu Cənubi Qafqaz və Avropa arasında gələcək bağlantıya aid daha geniş müzakirənin bir hissəsidir. Bu layihənin növbəti vacib addımı Avropa İttifaqının qarşılıqlı maraq doğuran layihələr çərçivəsində qiymətləndirilmənin aparılmasıdır. Bütün iştirakçı ölkələrin bu ilin sonuna doğru qarşılıqlı maraq doğuran layihə statusunu almaq üçün müraciət etmək niyyəti çox mühüm mərhələdir. Gələcəyə baxdıqda ən güclü enerji tərəfdaşlıqları bu günün etibarlılığını sabahın hazırlığı ilə birləşdirən tərəfdaşlıqlar olacaq. Bu, kommersiya baxımından əlverişli infrastruktur, proqnozlaşdırılabilən investisiya şərtləri, davamlı təchizat zəncirləri, həm də enerji təhlükəsizliyi və enerji keçidini dəstəkləyən texnologiyalar deməkdir.

Avropa İttifaqı Azərbaycanla əməkdaşlığı bu ruhda - açıqlıq, praqmatizm, qarşılıqlı fayda, təhlükəsiz, əlverişli və getdikcə dayanıqlı enerji təmin etmək barədə ortaq öhdəliklə davam etdirmək istəyir. Bugünkü tədbir müxtəlif sahələrdə bu iddiaları həyata keçirə biləcək şəxsləri bir araya gətirib. Bütün iştirakçılara sərgi və tədbirlərdə uğurlar arzulayır, tərəfdaşlıqları və müzakirələri səbirsizliklə gözləyirəm.

Təşəkkür edirəm.

*

Qaz İxrac Edən Ölkələr Forumunun Baş katibi **Filip Mşelbila** çıxış edərək dedi:



– Zati-aliləri Prezident İlham Əliyev.

Hörmətli nazirlər, beynəlxalq təşkilatların rəhbərləri.

Xanımlar və cənablar.

Adı müasir enerji sənayesinin təməlinə yazılmış bu tarixi şəhərdə bu il "Bakı Enerji Həftəsi"nin açılış mərasimində çıxış etmək mənim üçün böyük şərəfdir. İcazə verin, əvvəlcə Azərbaycan hökumətini və xalqını Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə ürəkdən təbrik edim. Zati-aliləri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycana davamlı inkişaf, dayanıqlılıq və uğurlar arzulayıram.

Bakı müasir neft sənayesinin yarandığı yerlərdən biri kimi geniş miqyasda tanınır. Qlobal enerji dövrünün mühüm bir fəsli bu torpaqdan başlayır. Bu gün Azərbaycan bu uzun enerji tarixində yeni bir fəsil yazır. Neftdən təbii qaza və indi də bərpaolunan enerji mənbələrinə qədər Azərbaycan enerji lideri kimi yerində dayanmadığını göstərir. Burada söhbət dəyişikliklərə uyğunlaşmaqdan, gələcəyə investisiya qoymaqdan, bazarları birləşdirməkdən və etimad yaratmaqdan gedir. Qeyd olunduğu kimi, hazırda Azərbaycan qazı artıq 16 ölkəyə ixrac olunur və bu, Azərbaycanı təchiz etdiyi bazarların sayına görə dünyanın aparıcı ölkəsinə çevirir. Qaz İxrac Edən Ölkələr Forumunda biz Azərbaycanın fəaliyyətini yüksək qiymətləndiririk. Aparıcı təbii qaz ixracatçılarından biri kimi Azərbaycan istehsalçı ölkələr arasında dialoqa dəyərli təcrübə gətirir. Bu əməkdaşlığın regional və beynəlxalq qaz bazarlarında artan rolunu əks etdirən şəkildə daha da dərinləşməsini görməkdən şərəf duyarıq.

Forum hazırda qlobal qaz ehtiyatlarının təxminən 70 faizini, bazara çıxarılan qaz istehsalının isə 40 faizindən çoxunu və qlobal LNG ixracının yarısını təmin edən aparıcı ölkələri bir araya gətirir. Bu kollektiv çəki ilə yanaşı, konstruktiv dialoqu təşviq etmək, maraqlı tərəflərimiz arasında məlumatlı qərarqəbuletməni dəstəkləmək, qlobal enerji təhlükəsizliyində, davamlı inkişafda və inklüziv enerji keçidlərində təbii qazın rolunun real sübuta əsaslanan anlaşılmasına töhfə vermək məsuliyyəti də var. Bu yaxınlarda biz 2025-ci il üzrə dünyada təbii qazla bağlı hesabat dərc etmişdik və bunun beş əsas məqamını qeyd etmək istərdim. Birincisi, təbii qaz beynəlxalq enerji qarışmasında öz rolunu artırır. Qlobal səviyyədə 2055-ci ilə qədər təbii qaza tələbat artacaq. Beləliklə, təbii qazın qlobal enerji qarışığında payı 23 faizdən 26 faizədək artacaq. İkinci məsələ, elektrik enerjisinin istehsalıdır. Bu, təbii qaza olan tələbatın əsas şərtidir. Elektrik enerjisində təbii qazın rolu 22 faizdən 2055-ci ilə qədər 32 faizə qədər artacaq ki, bu da tələbatın ciddi artımı deməkdir. Beləliklə, sabit təchizat, yüksək səviyyədə elektrik sistemləri üçün sabit qaz təchizatı lazımdır. Üçüncüsü, tələbatın artımı. Tələbatın artımı əsasən inkişaf etməkdə olan ölkələrdə müşahidə edilir. Asiya və Sakit Okean bölgəsi, Yaxın Şərq, Avrasiya və Afrikada qaza daha çox tələb olacaq. Asiya və Sakit Okean hövzəsində yerləşən ölkələrin tələbatı qlobal səviyyədə qaza tələbatı kəskin şəkildə artıracaq. Bu, iqtisadi artım, sənayeləşmə və elektrik enerjisinə olan tələbatla şərtlənir. Təchizat məsələsi. Təbii qazla bağlı təchizat marşrutları dəyişir. Yaxın Şərqdə, Avrasiyada və Afrikada artım təxminən 80 faizə bərabərdir və bu, kəskin artım deməkdir. Bazarlar hazırda istiqamətini dəyişməkdədir. Bu regionlar qlobal tələbatın artımının mərkəzinə çevriləcək ki, bu, təchizat marşrutlarına da təsir göstərəcək. Beşinci məsələ, qazın çeşididir. LNG və digərləri bir-birindən fərqlənir. Hazırda qlobal səviyyədə 2024-cü ildə olan tələbatın üçdəbiri qədərində artmasını görürük. LNG hazırda ticarət olunan qazın üçdə ikisini təşkil edir və onun növbəti mərhələlərdə ikiqat artması gözlənilir.

Xanımlar və cənablar, qeyri-müəyyənlik mərhələlərində biz enerjiyə olan tələbatın davamlı artdığını görürük və bu reallıq enerji təhlükəsizliyinin yalnız qısamüddətli reaksiyalarla təmin oluna bilməyəcəyini bir daha xatırladır. Bu uzunmüddətli baxış vaxtında həyata keçirilən investisiyalar, dayanıqlı infrastruktur, şaxələndirilmiş marşrutlar, bazarlar və istehsalçılar, istehlakçılar və tranzit ölkələri arasında dayanıqlı əməkdaşlıq yolu ilə qurulmalıdır. Təbii qaz üçün bu əməkdaşlıq vacibdir və beləliklə, həm tələb, həm də təklif sahəsində əməkdaşlıq güclənəcək. Gələcəyin enerji təhlükəsizliyi yalnız resursların mövcudluğundan deyil, həmçinin istehsalçıların və istehlakçıların müştərək öhdəliyindən asılı olacaq ki, onlar birlikdə bu resursları etibarlı, əlçatan və dayanıqlı şəkildə bazarlara çatdırsınlar. Buna görə də təbii qaz və bərpaolunan enerji bir-birini tamamlayır. Forumun baxışına görə, onlar balanslı, real, ədalətli və inklüziv enerji keçidləri prosesində tərəfdaşlardır. Bərpaolunan enerji mənbələri sürətlə genişlənməyə davam edəcək. Təbii qaz isə müasir enerji sistemləri tərəfindən tələb olunan çevikliyi, etibarlılığı və dayanıqlığı təmin edəcək. Artıq təbii qaz bunu edir və bu dəyişkənliyi tənzimləyir.

Azərbaycan bu "ağıllı" strategiyanın praktik nümunəsini təqdim edir. Bərpaolunan enerji potensialının genişləndirilməsi daxili qaz yanmasının istifadəsini azalda, iqtisadi artımı dəstəkləyə və təbii qazın regional, beynəlxalq enerji təhlükəsizliyinə töhfə verməsi üçün əlavə imkanlar yarada bilər. Eyni zamanda, enerjinin resurslardan bazarlara səmərəli şəkildə ötürülməsini təmin etmək üçün qaz infrastrukturu, qarşılıqlı əlaqələr və uzunmüddətli əməkdaşlıq vacib amil olaraq qalır. Bu ruhu nəzərə alaraq, "Bakı Enerji Həftəsi" dünyanın hər tərəfi və beynəlxalq dialoq, beynəlxalq əməkdaşlıq, digər həllərin əldə olunması üçün mühüm bir platformadır. Bu mühüm toplantının keçirilməsinə görə Azərbaycan hökumətinə və təşkilatçılara təşəkkür edir, "Bakı Enerji Həftəsi"nə uğurlar arzulayıram.

Təşəkkür edirəm.

*

Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin (IRENA) Baş direktoru **Françesko La Kamera** çıxış edərək dedi:



– Zati-aliləri cənab Prezident, hörmətli nazirlər. Sabahınız xeyirli olsun! Bu gün Bakı Enerji Həftəsinin açılışında sizinlə birlikdə olmaqdan böyük məmnuniyyət duyuram. Bizi belə bir mühüm məqamda bir araya gətirdikləri üçün əziz dostum, Azərbaycanın energetika naziri Pərviz Şahbazova səmimi minnətdarlığımı bildirirəm. Çünki o, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi altında bu tədbirləri, həmçinin bizim burada iştirakımızı təşkil etmişdir.

Hörmətli dostlar, enerji təhlükəsizliyi qlobal bir məsələdir və o, artıq geosiyasi şoklara qarşı həssas olan yanacaq növlərindən asılı qala bilməz. Ən təhlükəsiz enerji daxili bazarda rəqabətədavamlı olan və geosiyasi dəyişikliklərə məruz qalmadan yerli imkanlar hesabına istehsal edilə bilən enerjidir. Son hadisələr enerji bazarlarındakı böhranın dünyanın hər yerində iqtisadiyyatlar, sənaye və ev təsərrüfatları arasında nə qədər tez əks-səda verə biləcəyini bizə xatırlatmış oldu. Bu, hökumətlər və sənaye üçün aydın prioriteti vurğulayır: ölkələr etibarlı, əlverişli, yerli mənbələrdən əldə edilə bilən, bərpaolunan enerjiyə keçidi sürətləndirməlidirlər, eyni zamanda, qeyri-müəyyən dünyada rəqabət qabiliyyətlərini gücləndirməlidirlər. Bu kontekstdə biz müasir dövrün ən kəskin enerji böhranını yaşayırıq və bunun fərqli şərhləri var. Bildiyiniz kimi, fərqli-fərqli həllər irəli sürülür. Lakin həmin həllər tarixdə olan enerji böhranları zamanı keçərli idi. Dünya isə dəyişməkdədir və biz bu dəyişkən dünyaya hazır olmalıyıq. Biz qısamüddətli həllər təklif edirik və çalışırıq ki, yeni enerji sisteminə keçidi daha da sürətləndirək. Lakin bu, heç də asan deyil. IRENA bu yaxınlarda dayanıqlığı gücləndirmək və uzunmüddətli enerji təhlükəsizliyini artırmaq üçün strateji tədbirləri müəyyən edən siyasi məsləhətləşmələrə dair sənəd dərc etdi və ismarış aydındır. Üç müddətdə fəaliyyətə və tədbirlərə ehtiyac var. Qısamüddətli prioritet miqyası dəyişmək, enerji səmərəliliyini artırmaqdır. Orta müddətdə isə biz əlaqələri gücləndirməliyik. Nəhayət, uzun müddətdə biz enerji sistemlərini daha təhlükəsiz etməli, sənaye və maliyyə arasında daha güclü uyğunlaşma yolu ilə təhlükəsiz enerji sistemləri qurmalıyıq.

Regionlar fərqli reallıqlarla üzləşsələr də, ortaq prioritetlərimiz aydındır: 2030-cu ilə qədər bərpaolunan enerji potensialını üç dəfə, enerji səmərəliliyini isə iki dəfə artırmaq, həmçinin şəbəkələrin, anbarların və dayanıqlı yanacaq növlərinin inkişafı üzrə öhdəlikləri irəli aparmaq. Bu gündəliyin aktuallığı, xüsusilə sürətli iqtisadi artım və infrastruktur inkişafı dövrünü yaşayan bölgələrdə özünü aydın büruzə verir. Mərkəzi Asiyada bol təbii sərvətlər və geniş bərpaolunan enerji potensialı mövcuddur. Onun strateji mövqeyi, qonşu bölgələri birləşdirən yaşıl enerji dəhlizlərinin yaradılması səyləri artım üçün geniş imkanlar vəd edir. Bu baxımdan Azərbaycanın liderliyini xüsusilə qeyd etmişəm. 2027-ci ilə qədər 2 giqavat yaşıl enerji layihələrini həyata keçirmək iddiasına görə Azərbaycanın liderliyini təqdir edirəm. Həmçinin Azərbaycanın 2026-cı il üçün şuramızın üzvü və 2027-ci ildə XVII IRENA Assambleyasının sədr müavini olmaqla, IRENA-nın idarəetməsində fəal rolunu vurğulamaq istərdim.

Bundan əlavə, Azərbaycan Bakıda keçirilən COP29-da IRENA-nın Mərkəzi Asiyada bərpaolunan enerji üzrə sürətləndirilmiş tərəfdaşlığının - APRECA adlanan tərəfdaşlığın başlanmasında əsas rol oynamışdır. Növbəti COP-un ev sahibi olaraq, Türkiyədən olan dostlarımızla əməkdaşlıq çərçivəsində Azərbaycanda əldə edilən uğurları daha da inkişaf etdirmək niyyətindəyik. Biz COP29-un prezidenti Muxtar Babayevin rəhbərliyi dövründə Bakıda qazanılan nailiyyətləri daha da irəli aparmaq istəyirik. APRECA artan investisiya, daha güclü regional qarşılıqlı əlaqə və davamlı artım yolu ilə enerji keçidini inkişaf etdirməyə çalışır. Bizə maliyyələşdirilməsi üçün 1600-dən çox layihə daxil olub və çıxışımın sonunda istərdim qeyd edim ki, keçən il 700 giqavat bərpaolunan enerji potensialı yaradılmışdır. Bu, həmçinin effektivlik, potensialın artırılması deməkdir. Bizim bir il ərzində yaratdığımız elektrik enerjisi potensialı, nüvə enerjisinin 70 il ərzində yaratdığı ümumi potensiala bərabərdir. Beləliklə, biz öz potensialımızı artırmalıyıq. Son beş ildə elektrik enerjisinin əldə olunması üçün 90 faizə yaxın bərpaolunan enerjidən, mənbələrdən istifadə edilib. Odur ki, enerji sistemi dəyişməkdədir. Bunu dəfələrlə ictimaiyyət qarşısında demişəm, sual ondan ibarət deyil ki, bərpaolunan enerji tamamilə təmizdir. Sosial baxımdan bəlkə də bu, daha məqbul hesab olunacaq. Çünki biz yeni iş yerləri yaradırıq, investisiyalar cəlb edirik. Lakin ən önəmli məqam odur ki, gələcək iqtisadiyyatların rəqabət qabiliyyəti birbaşa enerji sistemlərinin potensialından və bu sistemlərin sənayeni ən aşağı qiymətlə elektrik enerjisi ilə təmin edə bilməsindən asılı olacaq. Bu isə bərpaolunan enerji olmadan mümkün deyil.

Təşəkkür edirəm.

*

bp-nin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti **Qordon Birrel** çıxış edərək dedi:



– Zati-aliləri cənab Prezident Əliyev.

Xanımlar və cənablar, hörmətli qonaqlar, nazirlər, dostlar.

Bir daha Azərbaycana qayıtmaq, yaşadığın bir ölkəyə qayıtmaq çox xoşdur və xüsusilə bu tədbir çərçivəsində. Biz burada AÇG-də ilk kommersiya qaz hasilatını qeyd etmək üçün görüşmüşdük. Bundan əlavə, daha geniş mənada bir insanın baxışı sayəsində buradayıq. Ümummilli lider Heydər Əliyevin illər əvvəl üzləşdiyi çətinlik bu idi: müstəqilliyini yeni bərpa etmiş ölkə və onun enerji resursları sözsüz ki, yenilənməli, modernləşməli idi və Azərbaycan böyük enerji ixrac edən ölkə kimi öz layiqli yerinə qayıtmalı idi. Plan ondan ibarət idi ki, kapital və təcrübə gətirilsin, bu sənaye sıfırdan qurulsun. Bu baxış bp-ni 32 il əvvəl Bakıya gətirmişdir və biz o vaxtı "Əsrin müqaviləsi"ni imzaladıq. O vaxtdan bəri AÇG-dən ixrac üçün təxminən 4,6 milyard barel neft hasil edilmişdir. Birlikdə bacarıqlı işçi qüvvəsi yaratmışıq. bp-nin Azərbaycandakı komandasının 90 faizindən çoxu Azərbaycan vətəndaşlarıdır.

Prezident İlham Əliyevin rəhbərliyi altında Bakı üfüq xətti daha da yüksəlib və daha da parlaqdır. Azərbaycan dünyanın enerji təhlükəsizliyinin təməl daşına çevrilib. Bu da mənə bu layihə ilə əlaqədar sizin qarşınızda çıxış etmək üçün əsas yaradır. AÇG yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatının başlanması doğrudan da böyük hadisədir. Çünki əvvəllər - biz Hasilatın Pay Bölgüsü Sazişini imzalayanda bazarlar və infrastruktur hələ mövcud deyildi. İndi isə iki il əvvəl imzaladığımız əlavə sənəd əsasında 4,6 trilyon kub hasil edə bilirik. Beləliklə, bizim heyətlərimizin və əməkdaşlarımızın birgə işini qeyd etmək istəyirəm.

AÇG dünyanın ən böyük yataqlarından biri olaraq nəhəng və mürəkkəb yataqdır. Qeyri-səmt qazı neftin üstündəki və altındakı təbəqələrdə mövcuddur. Gözəl bir xəbər - daha dərin yataqların dibində qaz və su arasında nazik bir neft kanalı aşkar etmişik. Bütün bunlar böyük texniki bacarıqlar tələb edir. Yeni qaz sistemlərinin mövcud neft infrastrukturu ilə inteqrasiyası üfüqi qazma və qabaqcıl geoidarəetmə kimi mürəkkəb texnologiyalar vasitəsilə mümkündür. Bu proses tamamilə təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirilməlidir. Bütün bunlar təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirilməlidir. Buna görə də bp-Azərbaycan komandasına, SOCAR-a, AÇG layihəsindəki tərəfdaşlarımıza, yüzlərlə yerli və beynəlxalq podratçımıza səmimi qəlbdən təşəkkürümü ifadə edirəm. Bu, doğrudan da əsl həqiqi komanda işidir. Həmçinin Prezident İlham Əliyevə və Azərbaycan hökumətinə təşəkkürümü çatdırmaq istəyirəm.

Neft və qaz hər hansı millət üçün bir nemətdir. Lakin bu, heç vaxt təkbaşına kifayət deyil. Böyük karbohidrogen sektoru səbir və investisiya qoymağa hazırlıq tələb edir. Yalnız illik büdcə dövrləri ilə deyil, onillik üfüqlərlə düşünmək lazımdır və Azərbaycan bunu bacardı. Vizyona malik rəhbərlik, SOCAR-la parlaq tərəfdaşlıq və ağıllı tənzimləmə. Bunlar daha çox bareli hasil etməyə imkan verdi.

*(ardı 7-ci səhifədə)*

# Prezident İlham Əliyev “Bakı Enerji Həftəsi”nin açılış mərasimində

*(əvvəli 6-cı səhifədə)*





Gələcəyə baxaq. Bizim çox sabit bir boru kəmərlərimiz var və onlar Xəzər dənizindən resurslar daşıyır. Həmçinin “Şahdəniz” kompressiya layihəmiz var. Hazırda yerli istehsal müəssisələri platformanı inşa edir. AÇG-nin ilk sualtı birləşdiricisi olan “Qarabağ” yatağı var. Həmçinin bu, Xəzərdə ilk dəfə boru kəmərləri və kabelləri vahid dəstə halında çatdıracaq. Həmçinin Cəbrayılda Günəş elektrik enerjisi layihəmiz var ki, bu, Səngəçal terminalının elektrikləşdirilməsinə və ixrac üçün qaza qənaətə kömək edəcək. Biz, həmçinin universitetlərlə, müxtəlif qurumlarla enerjidən başqa, ətraf mühit sahəsində də layihələr reallaşdırırıq. Bu da gələcəyimiz üçün çox vacibdir. Eyni zamanda, Azərbaycan uzun müddətdir ki, Xəzərin aparıcı istehsalçısıdır. İnanıram ki, bu rol Mərkəzi Asiyadakı istehsalı Avropa və ondan kənardakı bazarlara çatdırmaq üçün daha da artacaq.

Bu yaxınlarda Özbəkistanda SOCAR tərəfindən idarə olunan altı blok üzrə ilk Pay Bölgüsü Sazişini imzalamışıq. bp, həmçinin Qazaxıstanda qiymətləndirmə və prosessual olaraq inkişaf etdirmə barədə razılıq əldə edib. Eyni zamanda, biz güclü, uzunmüddətli tərəfdaşlıqların yaradılmasını bilirik və birlikdə daha çox məsələlərə nail ola bilərik.

Zati-aliləri, xanımlar və cənablar, bizi qarşıda böyük iş gözləyir, amma bu gün mərasimdir - biz yeni qaz hasilatını, AÇG üçün yeni imkanları qeyd edirik. Bu, böyük yatağın potensialı haqqında bizə daha çox məlumat verəcək yeni bir mərhələdir. Həmçinin xalqınızın bacarığını, ölkənizlə bp arasındakı dostluğu, istedadları və komanda işini qeyd edirik. Heç vaxt unutmamalıyıq ki, bunun əsasında nə dayanır. Bu, hər yerdə işığın yanmasına, dünyanı hərəkətlə təmin etməyə və inkişaf etdirməyə aparan bir yoldur. Biz bunu heç zaman unutmamalıyıq.

Təşəkkür edirəm.

*

SOCAR-ın prezidenti **Rövşən Nəcəf** çıxış edərək dedi:



– Zati-aliləri cənab Prezident, hörmətli qonaqlar. Bu gün biz yeni fəslin açılışının şahidi oluruq. Bu, “Azəri-Çıraq-Günəşli” yatağının tarixinin növbəti mərhələsidir, ilk sərbəst təbii qaz hasilatının başlanması mərasimidir. Bu layihə fundamental olaraq yeni mərhələyə keçid alır və strateji dəyər yaradacaq. Bu, AÇG-nin inkişafında strateji mərhələdir və inteqrasiya olunmuş bir layihənin çərçivəsi olacaq, Azərbaycan üçün yeni imkanlar açacaq, tərəfdaşlar üçün yeni imkanlar vəd edəcək. AÇG illər boyu vacib mənbə kimi tanınıb və beləliklə, ilk sərbəst təbii qaz hasilatının başlanması bir daha onu nümayiş etdirir ki, bu layihə geniş potensiala malikdir, uzunmüddətli enerji təhlükəsizliyinə öz töhfəsini verir və Azərbaycanın qlobal enerji bazarında rolunu gücləndirir.

Hörmətli qonaqlar, eyni zamanda, yeni mərhələnin başlanması bir daha Azərbaycanın artan potensialını nümayiş etdirir, yataqların optimizasiyasını və dənizdə aparılan əməliyyatların gücləndirilməsini göstərir. Beləliklə, Azərbaycan bu istiqamətdə uzunmüddətli resursların bərpası üçün dərin təcrübəyə malikdir və bu yeni mərhələ mövcud infrastrukturun səmərəli istifadəsi nəticəsində mümkün olmuşdur - müasir texnologiyalarla və onların dənizdə tətbiqi ilə. Bu, həm də iqtisadi baxımdan layihənin uzunmüddətli dayanıqlılığını təmin edəcək. Enerji bazarlarının, enerji təhlükəsizliyinin və təchizat zəncirlərinin çətinliklə üzləşdiyi dövrdə Azərbaycan özünü etibarlı, uzunmüddətli və məsuliyyətli enerji təchizatçısı kimi nümayiş etdirir.

Xanımlar və cənablar, bu gün qeyd etdiyimiz nailiyyət güclü baxışın təcəssümüdür və beynəlxalq əməkdaşlıq nəticəsində mümkün olmuşdur. İstərdim ki, Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyevə səmimi-qəlbdən təşəkkürümüzü bildirim. Bu layihə onun dəstəyi, strateji baxışı və davamlı diqqəti nəticəsində mümkün olmuşdur. Bu, Azərbaycanın uzunmüddətli enerji sektorunun inkişafını təmin edəcək. Bu, sözsüz ki, bizim üçün böyük bir öhdəlik və məsuliyyətdir. Biz cənab Prezidentin rəhbərliyi ilə həm şirkətin, həm də sektorun inkişafını təmin etməliyik. Bu, Azərbaycan şirkəti olan SOCAR-ı beynəlxalq şirkətə çevirəcək, eyni zamanda, çox mühüm regional enerji və qaz layihələrinin icrasına dəstək olacaq.

Bütün beynəlxalq tərəfdaşlara və maraqlı tərəflərə səmimi-qəlbdən təşəkkürümü bildirirəm. Mühəndislərə, geoloqlara, texniklərə və bütün mütəxəssislərə ki, onların səyləri nəticəsində biz bu mühüm mərhələyə çatmışıq. AÇG-dən ilk sərbəst təbii qazın hasilatı - bu, yalnız texnoloji nailiyyət deyil. Bu göstərir ki, AÇG 30 il ərzində müvəffəqiyyətli hasilatla bərabər, yenə də strateji dəyər yaratmaqdadır və Azərbaycanın uzunmüddətli inkişafına öz töhfəsini verməkdə davam edəcək.

Diqqətiniz üçün təşəkkür edirəm.

*

Sonra “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan ilk sərbəst təbii qaz hasilatına başlanması mərasimi keçirildi.

*

Daha sonra sənədlərin imzalanması mərasimi oldu.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), “TotalEnergies EP Absheron B.V.”, “SOCAR Absheron”, “ADNOC International Project Co 1 RSC Limited” və “BOTAŞ Boru Hatları İle Petrol Taşıma A.Ş.” arasında Abşeron yatağından təbii qazın alqı-satqısına dair Saziş”i SOCAR-ın prezidenti Rövşən Nəcəf, BOTAŞ-ın İdarə Heyətinin sədri və baş direktoru Abdulvahit Fidan, “TotalEnergies” şirkətinin Avropa regionunda kəşfiyyat və hasilat üzrə baş vitse-prezidenti Martina Opizzi və XRG-nin beynəlxalq qaz üzrə prezidenti Mohammed Al Aryani imzaladılar.



“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Serbiyanın “Elektroprivreda Srbije” (EPS) dövlət enerji şirkəti arasında Serbiyada Niş qaz-turbinli elektrik stansiyası layihəsi üzrə Niyyət Protokolu”nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və EPS-in baş direktoru Duşan Jivkoviç imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə “Shell Overseas Holdings Ltd” arasında Anlaşma Memorandumu”nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və “Shell” şirkətinin satınalmalar, aktivlərin satışı və yeni biznesin inkişafı üzrə icraçı vitse-prezidenti Valid Hadi imzaladılar.

“SOCAR Trading Gas & Power” SARL ilə “Azienda Autonoma Di Stato Per I Servizi Pubblici” (AASS) arasında təbii qazın tədarükü və qəbulu ilə bağlı Baş Saziş”i “SOCAR Trading Gas & Power” SARL şirkəti adından SOCAR-ın prezidenti Rövşən Nəcəf və AASS-nin baş direktoru Marsello Forsellini imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə “Comstock Resources, Inc”. (COMSTOCK) arasında Anlaşma Memorandumu”nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və “Comstock Resources, Inc.”in maliyyə və investorlarla əlaqələr üzrə vitse-prezidenti Ron Mills imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə “J.P. Morgan Securities Plc” arasında Anlaşma Memorandumu”nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və “J.P. Morgan Securities Plc” adından qurumun Mərkəzi və Şərqi Avropa, Yaxın Şərq və Afrika üzrə kreditlər və strukturlaşdırılmış kreditlər üzrə vitse-prezidenti Martinas Saltenis imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə “Chevron Caspian Exploration B.V.” arasında Birgə Tədqiqat Sazişi”ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və “Chevron Caspian Exploration B.V.”in Avrasiya biznesi üzrə prezidenti Derek Magness imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və “Apollo Capital Management L.P.” arasında Anlaşma Memorandumu”nu və “Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), “SOCAR Türkiye Enerji A.Ş”, “SOCAR CASPIAN HOLDING” LTD və “AP CASPIAN ISSUER” MMC arasında İnvestisiyaya Dəstək Sazişi”ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və “Apollo Capital Management, L.P.”nin kredit və əsas strukturlaşdırılmış maliyyə üzrə baş meneceri Conatan Bar imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Corc Vaşinqton Universiteti arasında Əməkdaşlıq üzrə Niyyət Məktubu”nu SOCAR-ın prezidenti Rövşən Nəcəf və Corc Vaşinqton Universitetinin qlobal təşəbbüslər üzrə dekan köməkçisi Sevinc Məmmədova imzaladılar.

“Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) və “Haimaker.ai Inc.” şirkəti arasında süni intellekt buludunun inkişafı üzrə Əməkdaşlıq Sazişi”ni SOCAR-ın prezidenti Rövşən Nəcəf və “Haimaker.ai Inc”in baş icraçı direktoru Su Le imzaladılar.

“Kritik mineralların və nadir torpaqların mədəni və emalı sahəsində təchizatın təminatı üzrə Azərbaycan-Amerika Birləşmiş Ştatları Çərçivəsi”ni Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və Amerika Birləşmiş Ştatları Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orr imzaladılar.

*

Prezident İlham Əliyev sərginin xatirə kitabını imzaladı.

*

Sonra dövlətimizin başçısı sərgilərlə tanış oldu.

İyunun 3-dək davam edəcək “Bakı Enerji Həftəsi” Xəzər regionunun ən nüfuzlu enerji tədbirlərindən olaraq, qlobal enerji liderlərini, dünyanın aparıcı enerji şirkətlərini, dövlət qurumlarını, investorları və sənaye mütəxəssislərini bir araya gətirir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə əsası qoyulmuş “Caspian Oil and Gas” sərgisinin məntiqi davamı olan bu tədbir təşkil edildiyi illər ərzində həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi formalaşıb.

“Bakı Enerji Həftəsi” özündə üç mötəbər tədbiri birləşdirir: 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi “Caspian Oil and Gas”, 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi “Caspian Power” və 31-ci “Baku Energy Forum”.

Uzun illərdir ki, “Bakı Enerji Həftəsi” çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, SOCAR isə baş tərəfdaş qismində çıxış edir.

Builki tədbirdə dünyanın 46 ölkəsindən 276 şirkət iştirak edir. Bu, ölkələrin sayına görə sərgi tarixində rekord göstəricidir. Almaniya və Rusiya “Bakı Enerji Həftəsi”ndə milli pavilyonlarla təmsil olunurlar. Sərgi iştirakçılarının təxminən 60 faizini xarici şirkətlər, 40 faizini isə yerli müəssisələr təşkil edir.

Daimi iştirakçılar isə ümumilikdə sərgi sahəsinin 40 faizini əhatə edir.

Regionun ən böyük enerji şirkəti - “Azərbaycan Respublikası Dövlət Neft Şirkəti” – SOCAR axtarış-kəşfiyyat, hasilat, nəql, emal, kimya məhsullarının istehsalı, marketinq, yanacağın pərakəndə satışı, qaz paylanması və bərpaolunan enerji mənbələrinin inkişafı ilə məşğul olur. SOCAR dünyanın 15-dən çox ölkəsində fəaliyyət göstərir. Şirkət şanlı neft və qaz irsimizi innovativ texnologiyalarla genişləndirir. SOCAR yerli, regional və beynəlxalq kontekstdə davamlı inkişafa və enerji təhlükəsizliyinə uğurla töhfə verir. 2035-ci ilə qədər Korporativ Strategiyaya əsasən SOCAR-ın uzunmüddətli hədəfləri rəqəmsallaşma, innovasiya və yaşıl enerjiyə keçid yolu ilə fəaliyyətini inkişaf etdirən müasir enerji şirkəti olmaqdır.

Qlobal enerji şirkəti olan “bp Azərbaycan” ölkəmizin enerji sektorunda ən iri beynəlxalq tərəfdaşlardan biridir və Xəzər dənizində yerləşən əsas neft-qaz yataqlarının operatorudur. Şirkət “Azəri-Çıraq-Günəşli” (AÇG) neft yatağının və “Şahdəniz” qaz-kondensat yatağının operatoru kimi fəaliyyət göstərir. Hasil olunan karbohidrogenlər bp-nin region üzrə strateji mərkəzi hesab olunan Səngəçal terminalında emal edilir və Bakı–Tbilisi–Ceyhan (BTC), Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP vasitəsilə beynəlxalq bazarlara nəql olunur. Şirkət hazırda AÇG-də ACE platforması, “Şahdəniz Compression” layihəsi, “Şəfəq-Asiman” strukturu, həmçinin platformaların elektrikləşdirilməsi və yaşıl enerji istiqamətində layihələr həyata keçirir. bp Azərbaycanda yerli kadrların inkişafına da xüsusi diqqət ayırır. “bp Azərbaycan”ın işçilərinin böyük hissəsini yerli mütəxəssislər təşkil edir.

“TotalEnergies” neft-qaz, LNG, bərpaolunan enerji və elektrik enerjisi sahələrində Fransanın ən iri enerji şirkətlərindən biridir. Şirkət ölkəmizin əsas beynəlxalq enerji tərəfdaşları sırasında Azərbaycanda 1996-cı ildən fəaliyyət göstərir. “TotalEnergies” Bakı–Tbilisi–Ceyhan (BTC) boru kəmərində 5 faiz paya malikdir və Abşeron qaz-kondensat yatağının əsas iştirakçılarından biridir. Şirkət bu yataqda 35 faiz paya sahibdir və layihəni SOCAR ilə birlikdə həyata keçirir. Abşeron yatağının birinci fazası üzrə hasilata 2023-cü ilin iyulunda başlanılıb. Hazırda hasilat gücü gündəlik 4 milyon kubmetr qaz, həmçinin 13 min barel kondensat təşkil edir. Bu qaz Azərbaycanın daxili bazarına yönləndirilir. 2025-ci ildə tərəfdaşlar yatağın tammiqyaslı işlənməsi üzrə ilkin texniki layihələndirmə mərhələsinə start veriblər. Layihənin növbəti mərhələsində maksimum hasilat dövründə əlavə 110 min barel neft ekvivalenti həcmində gündəlik hasilat nəzərdə tutulur. Şirkət, eyni zamanda, Azərbaycanda enerji keçidi, dekarbonizasiya və yaşıl enerji istiqamətində əməkdaşlığı genişləndirir.



Səudiyyə Ərəbistanı Krallığının “Acwa” bərpaolunan enerji şirkəti dəniz suyunun duzsuzlaşdırılması sahəsində dünyanın ən böyük özəl operatorlarından olaraq, yaşıl hidrogen texnologiyaları və qlobal enerji transformasiyası sahəsində aparıcı şirkətlərdən biridir. 2004-cü ildə yaradılmış “Acwa” hazırda Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiya daxil olmaqla 15 ölkədə fəaliyyət göstərir. Şirkətin portfelinə enerji və su sahəsində ümumi investisiya dəyəri 117 milyard ABŞ dollarından çox olan 100-dən artıq layihə daxildir. Azərbaycanda “Acwa” əsasən yaşıl enerji istiqamətində fəaliyyət göstərir və ölkənin enerji keçidi strategiyasının əsas beynəlxalq tərəfdaşlarından biridir. Şirkət Xızı və Abşeron rayonlarında yerləşən 240 MVt gücündə külək elektrik stansiyasının investorudur. Bu layihə Azərbaycanın ilk iri xarici investisiyalı bərpaolunan enerji layihələrindəndir. “Acwa”, həmçinin SOCAR ilə birlikdə Xəzər dənizində külək enerjisi və yaşıl hidrogen layihələri üzrə əməkdaşlıq edir.

Amerika Birləşmiş Ştatlarının “SLB” şirkəti enerji sahəsində qlobal texnoloji şirkətdir. Dünyanın ən iri neft-mədən xidmətləri və enerji texnologiyaları şirkətlərindən biri kimi “SLB” bir əsrdən artıq müddətdə sənayenin ən mürəkkəb çağırışlarını texnoloji yeniliklərə çevirərək enerji sektorunda lider mövqeyini qoruyub saxlayır. Bu gün “SLB” neft-qaz yataqlarının kəşfiyyatı, qazma, quyu tamamlama, geofizika, rəqəmsal texnologiyalar və enerji keçidi həlləri sahələrində çalışır. Şirkət Azərbaycanda uzun illərdir fəaliyyət göstərir və AÇG, Şahdəniz kimi iri layihələrdə əsas texnoloji tərəfdaşlardandır. “SLB” bp və SOCAR ilə əməkdaşlıq çərçivəsində qazma, texniki xidmət, avtomatlaşdırma və rəqəmsal həllər təqdim edir. Son illərdə şirkət emissiyaların azaldılması, rəqəmsallaşma və dayanıqlı enerji texnologiyalarına da xüsusi diqqət yetirir.

ADNOC-un beynəlxalq enerji investisiya şirkəti olan Birləşmiş Ərəb Əmirliklərinin “XRG” şirkəti təbii qaz, kimya sənayesi və enerji həlləri sahələrində qlobal portfel formalaşdırıb. 2024-cü ildə yaradılan şirkət hazırda LNG, qaz infrastrukturu, aşağıkarbonlu enerji, yaşıl hidrogen və enerji transformasiyası istiqamətlərində fəaliyyətini genişləndirir. Azərbaycanda ADNOC-un regional əməkdaşlıq strategiyasının bir hissəsi kimi SOCAR ilə enerji keçidi, qaz infrastrukturu və aşağıkarbonlu layihələr üzrə əməkdaşlığı inkişaf etdirən şirkət qlobal enerji bazarında strateji mövqeyini möhkəmləndirir.

Özbəkistanın milli neft-qaz şirkəti və Mərkəzi Asiyanın ən böyük dövlət enerji qurumlarından biri olan “Uzbekneftegaz” neft və qaz yataqlarının kəşfiyyatı, hasilatı, emalı, neft-kimya məhsullarının istehsalı və enerji infrastrukturu sahələrində fəaliyyət göstərir. Son illərdə qaz emalı, neft-kimya və enerji səmərəliliyi layihələrinə böyük investisiyalar yatıran “Uzbekneftegaz” beynəlxalq tərəfdaşlarla əməkdaşlığı genişləndirir. Şirkət Azərbaycanda əsasən regional enerji əməkdaşlığı və beynəlxalq enerji platformaları çərçivəsində iştirak edir, SOCAR və digər şirkətlərlə təcrübə mübadiləsi və enerji layihələri üzrə tərəfdaşlığı möhkəmləndirir.

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin bu gün dünya üzrə layihə portfelinin ümumi gücü 50 GVt-dan çoxdur. Şirkət 2030-cu ilə qədər bu göstəricini 100 GVt-a çatdırmağı planlaşdırır. Hazırda qlobal enerji keçidinin aparıcı iştirakçılarından biri olan “Masdar” Azərbaycanda yaşıl enerji sahəsində ən fəal beynəlxalq tərəfdaşlardandır. Şirkət ölkənin ilk iri sənaye miqyaslı Günəş elektrik stansiyası olan 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının investorudur. “Masdar” ölkəmizin yaşıl enerji strategiyasının əsas tərəfdaşlarından biri kimi SOCAR və Azərbaycan Hökuməti ilə birlikdə ümumi gücü bir neçə giqavat olan Günəş və külək enerjisi layihələrinin inkişafı istiqamətində əməkdaşlıq edir.

Çinin 1973-cü ildə təsis edilmiş “China Petroleum Pipeline Engineering” şirkəti neft və qaz boru kəmərlərinin tikintisini həyata keçirir. Şirkət, eyni zamanda, enerjinin saxlanması və nəqli infrastrukturu sahəsində ixtisaslaşıb və Çində uzunmüddətli boru kəmərləri üzrə ümumi iş həcminin 70 faizindən çoxunu icra edir. O, elmi-tədqiqat, layihələndirmə, məsləhət, tikinti və istismar daxil olmaqla tam sənaye zənciri üzrə fəaliyyət göstərir. Şirkətin beynəlxalq fəaliyyəti 50-dən çox ölkəni əhatə edir və əsas istiqamətlərinə neft-qaz boru kəmərləri, kompressor stansiyaları, LNG terminalları və enerji infrastrukturu layihələri daxildir. Hazırda şirkət potensial tərəfdaş kimi SOCAR ilə əməkdaşlığın qurulmasını nəzərdən keçirir.

Türkiyənin milli neft şirkəti “Türkiye Petrolleri Anonim Ortaklığı” (TPAO) qlobal enerji şirkəti olaraq karbohidrogen kəşfiyyatı və hasilatı sahəsində 70 ildən çox təcrübəyə malikdir. Şirkət Azərbaycan, İraq, Liviya, Pakistan, Somali və digər ölkələrdə fəaliyyət göstərən geniş beynəlxalq layihələr portfeli ilə neft və qaz yataqlarının kəşfiyyatı, hasilatı, qazma işləri və enerji layihələrinin idarə olunması ilə məşğuldur. Şirkət Azərbaycanda 1994-cü ildən fəaliyyət göstərir və “Şahdəniz”, “Azəri-Çıraq-Günəşli”, “Cənubi Qafqaz Boru Kəməri”, “Bakı–Tbilisi–Ceyhan” və “Şəfəq-Asiman” layihələrində iştirak payına malikdir. Şirkət Azərbaycan və Türkiyə arasında enerji əməkdaşlığının inkişafında mühüm rol oynamaqla, regionun enerji təhlükəsizliyi üçün mühüm layihələrdə iştirak edir, dayanıqlı inkişaf və ətraf mühitə məsuliyyət prinsipini uzunmüddətli strategiyasının əsas istiqamətlərindən biri kimi müəyyənləşdirib.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Milli günlər ölkələrin keçdiyi yolu, beynəlxalq ictimaiyyətə verdiyi töhfələri və gələcəyini istiqamətləndirən arzuları dəyərləndirmək üçün mühüm fürsətdir. Eyni zamanda, onlar qlobal çağırışların həllində dialoqun və həmrəyliyin əhəmiyyətini bizə xatırladır.

Bu gün dünya təxirəsalınmaz sınaqlarla - müharibələrin sona çatdırılması və yenilərinin qarşısının alınması, iqlim böhranı ilə mübarizə, bərabərsizliklərin azaldılması və güclü texnologiyaların məsuliyyətlə yönləndirilməsi ilə üz-üzədir. Bu və digər çağırışların həlli sülhün, təhlükəsizliyin təmin olunması, Dayanıqlı İnkişaf Məqsədlərinin irəlilədilməsi və insan hüquqlarının qorunması naminə yenilənmiş əməkdaşlığa, çoxtərəfli tərəfdaşlığa sadiqlik tələb edir.

Bu əlamətdar gün münasibətilə bir daha Azərbaycan Respublikasının xalqına ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Antonio QUTERREŞ,***
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Polşa Respublikası adından və öz adımdan ölkənizə, xalqınıza və şəxsən Sizə ən səmimi təbriklərimi, uğurlar və firavanlıq arzularımı çatdırmaqdan şərəf duyuram.

Polşa Respublikası ilə Azərbaycan Respublikasını ənənəvi dostluq əlaqələri və dinamik inkişaf edən əməkdaşlıq birləşdirir. Sizi əmin etmək istəyirəm ki, Polşa bu münasibətlərin gələcəkdə daha da inkişaf etdirilməsinə, əməkdaşlığın bütün sahələrini əhatə etməsinə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı çərçivəsində daim hazırdır.

Azərbaycan Respublikası Cənubi Qafqaz regionunda Polşa üçün mühüm tərəfdaş olaraq qalır və dünyada baş verən ciddi geosiyasi dəyişikliklər fonunda əməkdaşlığımızın əhəmiyyəti daha da arta bilər. Bunu nəzərə alaraq, Sizi münasib hesab etdiyiniz vaxtda Varşavada qarşılamağı səbirsizliklə gözləyirəm.

Bir daha milli bayram münasibətilə bütün Azərbaycan vətəndaşlarını səmimi-qəlbdən təbrik edirəm. Ölkənizin gələcək inkişafı, suverenliyinin möhkəmləndirilməsi və regionda mehriban qonşuluq münasibətlərinin qurulması istiqamətində Sizə yeni uğurlar arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.

***Karol NAVROTSKİ,***
***Polşa Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Sizə və xalqınıza Finlandiya xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Konstruktiv əməkdaşlığımızı, Avropa və qlobal təhlükəsizlik məsələləri ilə bağlı substansiv dialoqumuzu davam etdirməyə ümidvar olduğumu bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Aleksandr STUBB,***
***Finlandiya Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Müsəlman dünyasında ilk demokratik respublikanın yaradılması günü kimi qeyd edilən bu əlamətdar bayram Azərbaycan xalqı üçün azadlıq, suverenlik və tərəqqi rəmzidir.

Slovakiya Respublikası Azərbaycan Respublikası ilə yaxşı səviyyədə olan ənənəvi dostluq münasibətlərini yüksək qiymətləndirir. Ötən ilin dekabr ayında Zati-alinizin Slovakiyaya ilk rəsmi səfəri ilə ölkələrimiz arasında əlaqələr əhəmiyyətli dərəcədə möhkəmlənmişdir.

Mən Sizin gözəl ölkənizə tezliklə baş tutacaq rəsmi səfərimi səbirsizliklə gözləyirəm. Əminəm ki, ən yüksək səviyyədə qarşılıqlı səfər mübadiləsi əlaqələrimizi daha da dərinləşdirəcək, enerji, nəqliyyat, investisiyalar və müdafiə sahələrində əməkdaşlıq üçün yeni imkanlar açacaq.

Cənab Prezident, Sizə möhkəm cansağlığı, şəxsi rifah və ali dövləti vəzifənizdə yeni müvəffəqiyyətlər arzularımı qəbul etməyinizi xahiş edirəm.

Eyni zamanda, Sizə, eləcə də bütün Azərbaycan xalqına davamlı uğurlar, əmin-amanlıq və firavanlıq arzulayıram.

**Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm.**

***Peter PELLEQRİNİ,***
***Slovakiya Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

İcazə verin, Sizi və bütün xalqınızı Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edim. Sizə və ölkənizə davamlı rifah, sülh və təhlükəsizlik arzulayıram.

Litva ilə Azərbaycanı uzunmüddətli dostluq münasibətləri birləşdirir. Qarşılıqlı faydalı sahələrdə ikitərəfli dialoqumuzu ardıcıl şəkildə gücləndirməyə sadiqik. Əminəm ki, siyasi, iqtisadi və mədəni əlaqələrimizin daha da inkişaf etdirilməsi ölkələrimiz arasında əməkdaşlığı möhkəmləndirəcək və xalqlarımıza fayda verəcək.

Qəti şəkildə inanıram ki, ortaq tarixi təcrübələrlə, suverenliyə və azadlığa birgə hörmətlə çoxtərəfli səviyyədə uğurlu əməkdaşlığımızı davam etdirəcəyik. Şübhəsiz ki, Azərbaycanla Avropa İttifaqı arasında qarşılıqlı etimada və konstruktiv tərəfdaşlığa əsaslanan dialoq daha da güclənəcək və xalqlarımızın rifahına töhfə verəcək.

Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərdə müsbət dinamika dialoqa və sülhə möhkəm sadiqliyinizi nümayiş etdirir. Bu prosesin davam etdirilməsi Cənubi Qafqaz regionunun təhlükəsizliyi və rifahı ilə yanaşı, regionun hüdudlarından kənarda sülhə də mühüm töhfə verir.

Cənab Prezident, milli bayramınız münasibətilə Sizi və xalqınızı bir daha təbrik edirəm. Ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Gitanas NAUSEDA,***
***Litva Respublikasının Prezidenti***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Latviya xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Latviya və Azərbaycan arasında mövcud olan dostluq münasibətlərini yüksək qiymətləndirdiyimi bildirirəm. Əminəm ki, ölkələrimiz arasında strateji tərəfdaşlıq suverenliyə, ərazi bütövlüyünə və qaydalara əsaslanan beynəlxalq nizama ortaq sadiqliyimiz əsasında daha da möhkəmlənəcək və inkişaf edəcək.

Həmçinin 2026-cı il aprelin 21-23-də Azərbaycan Respublikasına rəsmi səfərim zamanı mənə və nümayəndə heyətimə göstərilən səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirirəm. Bu səfər ölkələrimiz arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi üçün əla imkan yaratdı. Xüsusilə praktiki əməkdaşlığın inkişafı, eləcə də cari regional və beynəlxalq məsələlər üzrə apardığımız açıq və konstruktiv müzakirələri yüksək qiymətləndirirəm. Səfərim çərçivəsində keçirilən Azərbaycan-Latviya Biznes Forumunda iştirakınıza görə də Sizə təşəkkür edirəm.

Yaxın dialoqumuzun davam etdirilməsini səbirsizliklə gözləyirəm və Sizi münasib vaxtda Latviyaya rəsmi səfərə dəvət etməkdən məmnunluğumu ifadə edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Dərin hörmətlə,**

***Edgars RİNKEVİÇS,***
***Latviya Respublikasının Prezidenti***

*

**Hörmətli cənab Prezident!**

28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı bildirirəm. Ölkənizə və dost Azərbaycan xalqına davamlı tərəqqi, rifah və firavanlıq arzulayıram.

Monteneqro və Azərbaycan Respublikası arasında qarşılıqlı hörmət, etimad və anlaşma əsasında qurulmuş ənənəvi dostluq münasibətlərinin inkişaf etdiyini vurğulamaqdan xüsusi məmnunluq duyuram. Ölkələrimiz ortaq maraq doğuran bir sıra sahələrdə çox yaxşı əməkdaşlıq qurub və inkişaf etdirib. Əminəm ki, birgə səylərimiz sayəsində xalqlarımızın qarşılıqlı rifahı naminə bu əlaqələri daha da inkişaf etdirməyə və dərinləşdirməyə davam edəcəyik. Həmçinin inanıram ki, Monteneqro ilə Azərbaycan Respublikası arasındakı tərəfdaşlıq və dostluq münasibətləri konstruktiv əməkdaşlığın və səmimi ikitərəfli münasibətlərin nümunəsi olaraq daha da möhkəmlənəcək.

Bu ilin sonunda ölkənizə rəsmi səfər etməyi səbirsizliklə gözləyirəm. Bu səfər zamanı birbaşa ünsiyyət vasitəsilə dövlətlərarası münasibətlərimizin inkişafı üçün gələcək istiqamətlər barədə fikir mübadiləsi apara biləcəyik.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Yakov MİLATOVİÇ,***
***Monteneqronun Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycanın milli bayramı münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimi, həmçinin sülh, tərəqqi və rifah arzularımı çatdırıram.

Yunanıstan Azərbaycanla illər ərzində çoxşaxəli tərəfdaşlığa çevrilmiş və davamlı şəkildə inkişaf edən ikitərəfli münasibətlərə xüsusi əhəmiyyət verir. Əminəm ki, beynəlxalq hüquqa, suverenlik və ərazi bütövlüyü prinsiplərinə tam hörmətlə yanaşılmaqla ikitərəfli münasibətlərimizi xalqlarımızın rifahı naminə daha da inkişaf etdirə və möhkəmləndirə bilərik.

Zati-aliləri, bir daha Sizə ən xoş arzularımı bildirir, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Konstantinos TASULAS,***
***Yunanıstan Respublikasının Prezidenti***

*

**Zati-aliləri, əziz Qardaşım!**

Qardaş Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram. Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və firavanlıq arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimizi birləşdirən dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluğumu bildirirəm. Qardaş xalqlarımızın qarşılıqlı mənafeyinə xidmət naminə bu münasibətlərin daha da möhkəmləndirilməsi və yeni zirvələrə yüksəldilməsi istiqamətində fəaliyyətimizi davam etdirməyə sadiqliyimi bir daha təsdiq edirəm.

Zati-aliləri, əziz Qardaşım, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Abdelmacid TEBBUN,***
***Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə, Hökumətinizə və dost Azərbaycan xalqına Hindistan Hökuməti və xalqı adından, həmçinin şəxsən öz adımdan ən səmimi salamlarımı və təbriklərimi yetirirəm.

Hindistan və Azərbaycan arasında tarixi və mədəni əlaqələr mövcuddur. İnsanlar arasında təmaslarla yanaşı, iqtisadi və ticarət sahələrində əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensial var.

Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan xalqına tərəqqi və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Draupadi MURMU,***
***Hindistan Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə İordaniya Haşimilər Krallığının xalqı və Hökuməti adından Zati-alinizə və böyük Azərbaycan xalqına səmimi təbriklərimizi çatdırıram.

Fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***II Abdullah ibn Al HÜSEYN,***
***İordaniyanın Kralı***

**Hörmətli cənab Prezident!**

Sizi və Azərbaycan xalqını ölkənizin Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ildən-ilə regional və beynəlxalq proseslərdə öz rolunu və nüfuzunu artıraraq energetika, logistika və iqtisadiyyat sahələrində regional əməkdaşlığın mühüm iştirakçısı kimi dinamik inkişafını nümayiş etdirir.

Ukrayna ölkələrimiz arasında münasibətlərin strateji xarakterini və Azərbaycanın dövlətimizə, eləcə də Ukrayna xalqına bu son dərəcə çətin dövrdə göstərdiyi ardıcıl dəstəyi yüksək qiymətləndirir.

Ukraynaya göstərilən humanitar və enerji yardımı, İrpen şəhərinin bərpasında iştirak, həmçinin ukraynalı uşaqların reabilitasiyası və sağlamlaşdırılması proqramlarının həyata keçirilməsi üçün Sizə xüsusi minnətdarlığımı bildirirəm. Bu addımlar dövlətlərimiz arasında həqiqi həmrəyliyin və qarşılıqlı hörmətin təzahürüdür.

Ukrayna beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində dövlətlərin suverenliyini, müstəqilliyini və ərazi bütövlüyünü dəyişməz şəkildə dəstəkləyir. Əminəm ki, bu prinsiplərə sadiqlik bundan sonra da Qara dəniz-Xəzər regionunda sabitliyin və təhlükəsizliyin əsası olaraq qalacaq.

Əminəm ki, Ukrayna ilə Azərbaycan arasında energetika, logistika, nəqliyyat əlaqələrinin, infrastruktur və təhlükəsizlik sahələrində əməkdaşlığın inkişafı üçün böyük potensial mövcuddur. Qlobal enerji və logistika marşrutlarının transformasiyası şəraitində dövlətlərimizin regional qarşılıqlı əlaqələrin təmin edilməsindəki rolu və dayanıqlılığı daha da artacaq. İnanıram ki, Ukrayna-Azərbaycan strateji tərəfdaşlığı dövlətlərimizin və xalqlarımızın maraqları naminə bundan sonra da möhkəmlənəcək.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

*

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Maldiv Hökuməti və xalqı adından Zati-alinizə, Azərbaycan Hökumətinə və xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Ölkələrimizin qarşılıqlı hörmətə, etimada və əməkdaşlığa əsaslanan davamlı ikitərəfli əlaqələrinin inkişafını minnətdarlıqla qeyd edirəm. Əminəm ki, Maldiv Respublikası ilə Azərbaycan Respublikası arasındakı dostluq münasibətləri gələcək illərdə də inkişaf edəcək.

Zati-aliləri, Sizə möhkəm cansağlığı və rifah, Azərbaycan xalqına davamlı tərəqqi, sülh və firavanlıq arzulayıram.

Ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məhəmməd MUİZZU,***
***Maldiv Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza Sinqapur xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük məmnunluq duyuram.

Ölkənizə davamlı sülh, tərəqqi və rifah arzu edirəm.

**Hörmətlə,**

***Tarman ŞANMUQARATNAM,***
***Sinqapur Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Laos Xalq Demokratik Respublikası xalqı adından və öz adımdan Zati-alinizə və bütün Azərbaycan xalqına ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Son illərdə Laos Xalq Demokratik Respublikası ilə Azərbaycan Respublikası arasında mövcud əməkdaşlıqdan çox məmnunam. Əminəm ki, ölkələrimiz arasındakı dostluq əlaqələri və yaxşı səviyyədə olan əməkdaşlıq gələcək illərdə xalqlarımızın qarşılıqlı faydası, eləcə də regionda və bütövlükdə dünyada sülh, sabitlik və davamlı inkişaf naminə daha da möhkəmlənəcək və inkişaf edəcək.

Bu xoş fürsətdən istifadə edərək Zati-alinizə cansağlığı, xoşbəxtlik və ali dövləti fəaliyyətinizdə daha böyük uğurlar, dost Azərbaycan xalqına isə davamlı rifah və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Thonqlun SİSULİT,***
***Laos Xalq Demokratik Respublikasının Prezidenti***

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi, Sizə cansağlığı, şəxsi rifah, xalqınıza isə tərəqqi və firavanlıqla bağlı ən xoş arzularımı çatdırmaqdan məmnunluğumu bildirirəm.

Mən Kamboca Krallığı ilə Azərbaycan Respublikası arasında mehriban dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirirəm. Əminəm ki, bu əlaqələr qarşılıqlı illərdə ölkələrimizin və xalqlarımızın qarşılıqlı faydası naminə daha da inkişaf edəcək.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Norodom SİHAMONİ,***
***Kambocanın Kralı***

*

**Zati-aliləri!**

Sizə və dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə San-Marino xalqı adından və öz adımızdan təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Bu əlamətdar gündə Zati-alinizə müvəffəqiyyətlər, bütün Azərbaycan xalqına firavanlıq və rifah dolu gələcək arzulayırıq.

**Hörmətlə,**

***Aliçe Mina və Vladimiro SELVA,***
***San-Marino Respublikasının Regent Kapitanları***

**Zati-aliləri!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Zati-alinizə, Azərbaycan Respublikasının Hökumətinə və dost xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu əlamətdar milli bayram Azərbaycan xalqının dəyanətini və nailiyyətlərini əks etdirir.

Somali Federativ Respublikası Azərbaycan Respublikası ilə dostluq münasibətlərini yüksək qiymətləndirir və xalqlarımızın qarşılıqlı faydası naminə ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsini səbirsizliklə gözləyir.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı və Azərbaycan xalqına davamlı sülh, sabitlik və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Hasan Şeyx MAHMUD,***
***Somali Federativ Respublikasının Prezidenti***

*

**Hörmətli Prezident, əziz Qardaş!**

Nikaraqua Respublikasının Barışıq və Milli Birlik Hökuməti və xalqı adından, həmçinin öz adımızdan Sizi, qardaş Azərbaycan Respublikasının xalqını və Hökumətini 28 May – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirik.

Biz hörmətli Azərbaycan xalqının tarixini, ləyaqətini və vətənpərvərlik ruhunu dəyərləndirir, ölkənizin suverenliyinə, tərəqqi və rifah yoluna hörmətimizi bir daha ifadə edirik.

Mübarək və əbədi azad Nikaraquamızdan xalqlarımızı və hökumətlərimizi birləşdirən dostluq və əməkdaşlıq əlaqələrini qarşılıqlı hörmət prinsipi əsasında daha da möhkəmləndirmək iradəmizi bir daha təsdiqləyirik.

Cənab Prezident, əziz Qardaş, Sizə və dost Azərbaycan xalqına davamlı sülh, tərəqqi və yeni qələbələr arzulayır, ən səmimi qardaşlıq salamlarımızı qəbul etməyinizi xahiş edirik.

***Daniel Orteqa SAAVEDRA və Rosario MURİLYO,***
***Nikaraqua Respublikasının Həmprezidentləri***

*

**Zati-aliləri cənab Prezident!**

Peru Hökuməti və xalqı adından, habelə şəxsən öz adımdan 28 May – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək Azərbaycan Respublikasının firavanlığı və tərəqqisi naminə ən səmimi arzularımı bildirir, Peru ilə Azərbaycan arasında üç onillik ərzində formalaşmış siyasi dialoqu daha da dərinləşdirmək əzmini bir daha təsdiq edirəm. Əminəm ki, birgə səylərimiz ölkələrimizin davamlı inkişafına xidmət edərək, qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlığın genişləndirilməsinə töhfə verəcək.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbriklərimi bir daha çatdıraraq, fürsətdən istifadə edib Zati-alinizə dərin hörmət və ehtiramımı ifadə etməkdən məmnunluğumu bildirirəm.

**Hörmətlə,**

***Xose Mariya Balkasar SELADA,***
***Peru Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Sizi Gürcüstan Hökuməti və gürcü xalqı adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

28 May rəmzi və tarixi əhəmiyyətə malik bir gündür, Azərbaycan xalqının müstəqillik, dövlət quruculuğu və milli birlik arzusunu əks etdirir.

Gürcüstan Azərbaycanla möhkəm dostluğa və strateji tərəfdaşlığa böyük əhəmiyyət verir. Məmnunluqla qeyd etmək istərdim ki, ölkələrimiz arasında əməkdaşlıq bir çox istiqamətlərdə uğurla inkişaf edir və qarşılıqlı hörmətə, mehriban qonşuluğa, ortaq maraqlara əsaslanır.

Əminəm ki, Gürcüstan və Azərbaycan arasında ənənəvi yaxın münasibətlər gələcəkdə daha da möhkəmlənəcək və regionda sabitliyə, təhlükəsizliyə, rifahın təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Cənab Prezident, mənim xüsusi ehtiramımı və ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Sizə məsuliyyətli işinizdə uğurlar, Azərbaycan Respublikasına və xalqına sülh, tərəqqi və rifah arzulayıram.

**Hörmətlə,**

***İrakli KOBAXİDZE,***
***Gürcüstanın Baş naziri***

*

**Zati-aliləri!**

Ölkənizin milli bayramı – 28 May – Müstəqillik Günü münasibətilə Zati-alinizə, Hökumətinizə və qardaş Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Tarixdə mühüm dönüş nöqtəsi olan 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının qeyd edildiyi bu əlamətdar bayram xalqınızın suverenliyə, milli ləyaqətə və maariflənməyə sarsılmaz sadiqliyinin qürurverici təsdiqidir.

Azərbaycanın əvəzolunmaz ümummilli lideri Heydər Əliyevin və Bakıda Şəhidlər xiyabanında uyuyan qəhrəman şəhidlərin məzarlarını ehtiramla yad etmək mənə Azərbaycan xalqının cəsarətini, fədakarlığını və möhkəm iradəsini bir daha xatırlatdı. Mərhum atanız Heydər Əliyevin milli ləyaqət və dövlətçiliklə bağlı zəngin irsi bu gün Azərbaycanın hüdudlarından kənarda da böyük hörmətlə qarşılanır.

Azərbaycan Respublikası bu gün Zati-alinizin uzaqgörən rəhbərliyi altında böyük uğurla və inamla inkişaf edir, dünya dövlətlərinin hörmət və rəğbətini qazanır. Fürsətdən istifadə edərək bu yaxınlarda Zati-alinizlə görüşümüz zamanı, ümumiyyətlə Bakıda olduğumuz müddətdə mənə və nümayəndə heyətimə göstərdiyiniz yüksək səmimiyyətə və qonaqpərvərliyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Zati-aliniz və qardaş Azərbaycan xalqı tərəfindən Pəncab xalqına qarşı ifadə edilən, qəlbimizdə silinməz iz buraxan dostluq və qardaşlıq hisslərini həmişə hörmət və məhəbbətlə xatırlayacağıq. Pakistan İslam Respublikası, onun Pəncab əyaləti və Azərbaycan Respublikası arasındakı əlaqələrin əsasında ortaq dəyərlər, qarşılıqlı etimad, həm çətin, həm də xoş günlərdə bir-birinə göstərilən sarsılmaz dəstək dayanır. Bu əlaqələrin qarşıdakı illərdə daha da möhkəmlənəcəyinə və Pəncab xalqı ilə Azərbaycan xalqı arasındakı qardaşlıq əlaqələrinin daha da dərinləşəcəyinə səmimi-qəlbdən inanıram.

Zati-aliniz, bir daha ən yüksək ehtiramımı və Azərbaycan Respublikasına davamlı sülh, tərəqqi və rifah arzularımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Məryəm Nəvaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Pəncab əyalətinin Baş naziri***

# Prezident İlham Əliyev ABŞ Dövlət katibi köməkçisinin başçılıq etdiyi heyəti qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 1-də ABŞ Dövlət katibinin iqtisadiyyat, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı Kaleb Orra "Bakı Enerji Həftəsi" çərçivəsində keçirilən sərgilərin və "Baku Energy Forum"un rəsmi açılış mərasimində iştirak etdiyinə görə təşəkkürünü bildirdi.

ABŞ Prezidenti Donald Trampın bu tədbirə məktub ünvanlamasını məmnunluqla vurğulayan Prezident İlham Əliyev bu yanaşmanın və tərəfdaşlığın çox yüksək qiymətləndirildiyini bildirdi, buna görə ABŞ dövlətinin başçısına minnətdarlığını ifadə etdi.

Son dövrlərdə ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini deyən dövlətimizin başçısı Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasının, həmçinin bu Xartiya əsasında müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılmasının əhəmiyyətinə toxundu, Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının keçiriləcəyini vurğuladı. Bu xüsusda Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından yaxşı imkan yaratdığı bildirildi.

Dövlətimizin başçısı "Bakı Enerji Həftəsi" çərçivəsində imzalanan sənədlərin əhəmiyyətinə də toxundu.

Kaleb Orr ABŞ Prezidenti Donald Trampın və Dövlət katibi Marko Rubionun salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Donald Trampa və Marko Rubioya çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Donald Trampın "Bakı Enerji Həftəsi"nə məktub ünvanlaması tədbirin Amerika Birləşmiş Ştatları üçün nə qədər önəmli olduğunu göstərir.

Kaleb Orr, eyni zamanda dedi ki, bu tədbir enerji bazarlarının vəziyyəti ilə bağlı müzakirələr aparmaq baxımından Prezident İlham Əliyevin liderlik rolunu nümayiş etdirir.

Söhbət zamanı "Bakı Enerji Həftəsi"nin qlobal enerji məsələləri barədə fikir mübadiləsi aparmaq, həmçinin dünyanın qabaqcıl enerji şirkətləri, dövlət qurumları, investorlar və sənaye mütəxəssisləri arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün uğurlu platforma olduğu vurğulandı.

Görüşdə Azərbaycan-ABŞ əlaqələrinin hər iki ölkənin dövlət başçılarının səyləri nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğu qeyd edildi.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.

# Prezident İlham Əliyev ABŞ diplomatına Prezident Donald Trampın xatirə hədiyyəsini göstərib



**Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisi Kaleb Orr ilə dünən keçirilən görüş zamanı ona ABŞ Prezidenti Donald Tramp tərəfindən daha əvvəl təqdim edilmiş xatirə hədiyyəsini göstərib.**

Bu, "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılmasının uzadılması haqqında memorandumdur. ABŞ Prezidenti tərəfindən imzalanmış həmin xatirə nüsxəsində Azərbaycan dövlət başçısına öz xətti ilə yazılaraq ünvanlanmış səmimi müraciət yer alıb.

*AZƏRTAC*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Yunanıstan Azərbaycanla qarşılıqlı hörmətə, konstruktiv əməkdaşlığa əsaslanan güclü və dinamik tərəfdaşlığı yüksək qiymətləndirir. Enerji sahəsinin ikitərəfli münasibətlərimizin təməl daşı olmasına baxmayaraq, əməkdaşlığımızın davamlı şəkildə ümumi maraq doğuran yeni istiqamətlərdə genişlənməsini görməkdən məmnunam.

Biz beynəlxalq hüququ və Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş prinsipləri, o cümlədən suverenliyə və ərazi bütövlüyünə hörməti rəhbər tutaraq əlaqələrimizi daha da dərinləşdirməyə sadiqik. Azərbaycan xalqına davamlı sülh, firavanlıq və tərəqqi arzulayıram.

**Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.**

*Kiriakos MİTSOTAKİS,*
*Yunanıstan Respublikasının Baş naziri*

*

**Zati-aliləri!**

Əlahəzrət Kral III Msvati, Kraliça Ana, Esvatini Krallığının Hökuməti və xalqı adından Azərbaycan Respublikanın Müstəqillik Gününün 108-ci ildönümü münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırıram.

Esvatini Krallığı Azərbaycanın inkişaf yolunda əldə etdiyi irəliləyişi, beynəlxalq miqyasda mövqeyini, xalqın iradəsini, mətanətini təqdir edir.

Zati-aliləri, Sizin rəhbərliyinizlə Azərbaycan getdikcə daha da artan, qlobal əhəmiyyətə malik mövqeyə yüksəlmişdir və xalqınızın öz ölkəsinin nailiyyətləri ilə fəxr etmək üçün hər bir əsası vardır. Esvatini Krallığı ölkələrimiz arasında mövcud olan çox səmimi dostluq və əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir və xalqlarımızın rifahı naminə qarşıdakı illərdə bu münasibətləri daha da möhkəmləndirmək niyyətindədir.

Bu əlamətdar bayram münasibətilə Zati-alinizə möhkəm cansağlığı və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh və rifah diləyirəm.

**Hörmətlə,**

*Rassel Mmiso DLAMİNİ,*
*Esvatini Krallığının Baş naziri*

*

**Zati-aliləri!**

Demokratiya və İqtisadi İnkişaf Təşkilatı - GUAM-ın Beynəlxalq Katibliyi adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası dinamik, mütərəqqi yolla irəliləməkdə davam edir, ölkənin müstəqilliyi, suverenliyi daha da möhkəmlənir, xalqın arzu və istəkləri gerçəkləşir.

Ənənəyə uyğun olaraq, bu il də Müstəqillik Günü həm sosial-iqtisadi inkişaf istiqamətində, həm də regional və qlobal məsələlərdə yeni mühüm nailiyyətlərlə qeyd olunur.

Azərbaycan Silahlı Qüvvələrinin şanlı Qələbəsindən sonra azad edilmiş torpaqların bərpası və yenidən qurulması prosesi uğurla və sürətlə davam edir. Keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı ilə bağlı Proqram Qarabağ bölgəsinin dirçəlişinə, yenilənməsinə, eləcə də ölkə iqtisadiyyatına inteqrasiyasına töhfə verir.

Bu gün dinamik və inkişaf edən iqtisadiyyatı ilə Azərbaycan əsas layihələr, təşəbbüslər irəli sürməklə və həyata keçirməklə regional tərəqqi, beynəlxalq əməkdaşlıq üçün hərəkətverici qüvvə kimi çıxış etməkdə davam edir.

Azərbaycan, həmçinin böyük nüfuz və təsir gücünə malik mühüm regional və beynəlxalq aktora çevrilir, Qoşulmama Hərəkatı, COP və digər beynəlxalq platformalar kimi qlobal təşkilatlarda və təşəbbüslərdə liderlik yolu ilə sülhü, təhlükəsizliyi və dialoqu müdafiə edir. Bu yaxınlarda ölkənin ev sahibliyi etdiyi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası bunun daha bir sübutudur. Beynəlxalq münasibətlər sistemindəki böhran dövrlərində, beynəlxalq hüququn prinsiplərinin pozulduğu bir vaxtda Azərbaycan nümunə göstərərək bütün millətlər üçün dinc, yanaşı yaşamağın müəyyən edilmiş norma və prinsiplərinə əsaslanan ədalətli bir dünyanı müdafiə edir.

Ermənistanla sülhün əldə edilməsi istiqamətində atılan addımlar Azərbaycanın regional sülhün və əməkdaşlığın bərqərar olmasına sadiqliyini nümayiş etdirir və bu, təqdirlə qarşılanır. Xüsusilə Ermənistanla ədalətli və davamlı sülhün əldə olunmasında Sizin şəxsi iştirakınızı və səylərinizi yüksək qiymətləndiririk. Bu məqsədə çatmaqda Sizə uğurlar arzulayıram.

Zati-aliləri, bu il 20-ci ildönümünü qeyd etdiyimiz GUAM-ın təsisçi üzvü kimi Azərbaycanın fəal və konstruktiv rolunu yüksək qiymətləndiririk. Biz GUAM-ın sülhün, təhlükəsizliyin və əməkdaşlığın təşviqi üçün nadir və səmərəli regional platforma olduğuna qətiyyətlə inanırıq. Son zamanlar baş verən dərin geosiyasi dəyişikliklər coğrafiyamızın Şərq ilə Qərb, Avropa ilə Asiya arasında təbii bir əlaqə kimi geostrateji əhəmiyyətini daha çox nümayiş etdirdi. Həmçinin təşkilatımızın üzv dövlətlərin və beynəlxalq ictimaiyyətin maraqları, rifahı naminə regionumuzun üstünlüklərindən və potensialından istifadə etmək gücündə olduğuna inanırıq.

Müstəqilliyi daha da gücləndirəcək və xalqlarımızın rifahını artıracaq ortaq təşəbbüslərimizi, layihələrimizi həyata keçirməkdə Azərbaycan Respublikası ilə əməkdaşlığımızı dərinləşdirməyi səbirsizliklə gözləyirik.

Hörmətli cənab Prezident, bu əlamətdar bayram münasibətilə Sizə ölkənin daha da inkişaf etdirilməsi, müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsi ilə bağlı səylərinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına davamlı sülh, tərəqqi və firavanlıq arzulayıraq.

**Hörmətlə,**

*Altay ƏFƏNDİYEV,*
*GUAM-ın Baş katibi*

*

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayramınız – Müstəqillik Günü münasibətilə Sizi və bütün Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram Azərbaycan üçün dirçəlişin və öz tarixinə hörmətin rəmzidir. Suveren inkişaf illərində ölkə zəngin mədəni ənənələrini və milli kimliyini qoruyub saxlayaraq beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirib. Azərbaycanın dinamik iqtisadi inkişafını insanlara, elm və təhsilə, mədəniyyətə qayğı ilə birləşdirmək qabiliyyəti xüsusi hörmətə layiqdir. Sözsüz ki, bu, ölkənizin gələcəyini müəyyən edən və bütün səylərini onun tərəqqisinə sərf edən lider kimi şəxsən Sizin xidmətinizdir.

Biz Qaraçay-Çərkəz ilə Azərbaycan arasında dostluq və mehriban qonşuluq münasibətlərinə dəyər veririk. Əminəm ki, əməkdaşlığımız respublikalarımızın xalqlarının rifahı naminə daha da möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və yeni-yeni uğurlar, Azərbaycan vətəndaşlarına isə sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram.

**Hörmətlə,**

*Rəşid TEMREZOV,*
*Rusiya Federasiyasının*
*Qaraçay-Çərkəz Respublikasının başçısı*

*

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan gözəl və firavan ölkədir, qeyri-adi zəngin insan potensialına malikdir. Bu gün Azərbaycan Respublikası gələcəyə inamla baxır və bütün vətəndaşlarının rifahı naminə dinamik şəkildə inkişaf edir.

Qoy, ölkələrimiz arasında tərəfdaşlıq və xalqlarımızın dostluğu ildən-ilə daha da möhkəmlənsin!

Azərbaycana davamlı inkişaf və rifah arzulayıram.

**Hörmətlə,**

*Pyotr QLIBOÇKO,*
*İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru, Rusiya Elmlər Akademiyasının akademiki, professor*

*

**Çox hörmətli cənab Prezident!**

Avrasiya Yəhudi Konqresi adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bu bayram Azərbaycanın suverenliyinin, milli ləyaqətinin və ardıcıl inkişafının rəmzidir. Ölkəniz Sizin rəhbərliyinizlə beynəlxalq arenada mövqelərini inamla möhkəmləndirir, sabitlik, iqtisadi artım, eləcə də millətlərarası və dinlərarası həmrəylik prinsiplərinə sadiqliyini nümayiş etdirir.

Azərbaycanda formalaşmış qarşılıqlı hörmət və tolerantlıq mühitini, həmçinin yəhudi irsinin qorunmasına və ölkədəki yəhudi icmasının inkişafına göstərilən xüsusi diqqəti yüksək qiymətləndiririk. Bu ənənələr xalqlar arasında dinc birgəyaşayışın və qarşılıqlı anlaşmanın mühüm nümunəsidir.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

*Mixail MİRİLAŞVİLİ,*
*Avrasiya Yəhudi Konqresinin prezidenti*

*

**Möhtərəm cənab Prezident!**

Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktorluğu və kollektivi adından Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm.

Bu tarixi gün Azərbaycan dövlətçiliyinin zəngin ənənələrini, milli birliyinin və ölkənin qlobal miqyasda daha da inkişaf etmək, nüfuzunu gücləndirmək səylərinin rəmzidir. Elm və təhsil bu prosesdə mühüm rol oynayır, Azərbaycan bunların sayəsində beynəlxalq elmi dialoqun inkişafına əhəmiyyətli töhfə verir.

Son yeddi onillik ərzində Azərbaycanın elm və təhsil mərkəzləri ilə Birləşmiş Nüvə Tədqiqatları İnstitutu arasında fundamental, tətbiqi elm sahəsində, həmçinin elm və təhsil proqramlarının həyata keçirilməsində davamlı tərəfdaşlıq münasibətləri qurulub. Bu qarşılıqlı əməkdaşlığın tarixi və əldə olunan nəticələrinə marağın elmi-publisistik fəaliyyətlərdə öz əksini tapması sevindirici haldır.

Əminəm ki, Azərbaycanın Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun üzv dövləti kimi onun fəaliyyətində iştirakı, eləcə də ölkənin elmi ictimaiyyətinin birgə layihələrin həyata keçirilməsinə fəal şəkildə cəlb olunması onun elmi potensialının daha da gücləndirilməsinə və beynəlxalq elmi əməkdaşlığın inkişafına bundan sonra da mühüm töhfələr verəcək.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı, yeni-yeni uğurlar, Azərbaycan xalqına isə davamlı sülh, rifah və tərəqqi arzulayıram.

**Dərin və səmimi hörmətlə,**

*Qriqori TRUBNİKOV,*
*Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru,*
*Rusiya Elmlər Akademiyasının akademiki*

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə "Mir" Dövlətlərarası Teleradio Şirkəti adından və şəxsən öz adımdan Sizə təbriklərimi çatdırıram.

İcazə verin, Sizə və bütün Azərbaycan xalqına davamlı sülh, sabitlik, əmin-amanlıq və tərəqqi arzulayım. Qoy, müstəqillik və suverenlik tərəqqi və birliyin təməli olmaqda davam etsin!

Sizi əmin edirik ki, "Mir" Teleradio Şirkəti respublikada baş verən hadisələri bundan sonra da maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaq.

**Dərin hörmətlə,**

*Radik BATIRŞİN,*
*"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri*

*

**Hörmətli cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

28 May milli dirçəliş, dövlətçilik və demokratiya dəyərlərinə sadiqliyin rəmzi kimi Azərbaycanın tarixində xüsusi yerə malikdir. Bu gün Azərbaycan güclü, müasir və dinamik şəkildə inkişaf edən, beynəlxalq arenada öz mövqeyini inamla möhkəmləndirən dövlətdir.

Sizin həyata keçirdiyiniz multikulturalizm, tolerantlıq və millətlərarası barışığın qorunub saxlanılması siyasəti xüsusi hörmətə layiqdir. Bunun sayəsində Azərbaycan bütün dünyada müxtəlif xalqların və konfessiyaların nümayəndələrinin qarşılıqlı hörmət və dostluq şəraitində yaşadığı ölkə kimi tanınır. Bu, İsraildə yaşayan azərbaycanəsilli insanlar üçün xüsusi əhəmiyyətə malikdir və onların uşaqlıq, gənclik illərinin keçdiyi ölkə ilə bağlı səmimi qürur hissi doğurur.

Sizə möhkəm cansağlığı, əmin-amanlıq, ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, sabitlik və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Şaul SİMAN-TOV,*
*İsraildə fəaliyyət göstərən "Şolumi" Mərkəzinin rəhbəri, "Azİz" Assosiasiyasının icraçı direktoru, STMEGI TV-nin İsrail filialının rəhbəri*

# Bakı Amritsar hadisələrinə həsr olunan beynəlxalq konfransa ev sahibliyi edəcək

**İyunun 3-də Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ölkəmizdə Hindistan hökumətinin etnik azlıqlara qarşı repressiv siyasətinə həsr edilmiş "İyun 1984, Amritsar hadisələri: Hindistanın etnik azlıqlara qarşı transmilli repressiyaları soyqırımı kontekstində" adlı beynəlxalq konfrans keçiriləcək.**

Hindistan hökumətinin repressiv və sistemli ayrı-seçkilik siyasətindən əziyyət çəkən Dalit icmasının nümayəndələri də ilk dəfə olaraq ölkəmizdə keçirilən tədbirlərə qatılacaqlar.

Tədbirdə həmçinin Siqh icmasının Kanada, Böyük Britaniya, Niderland, Almaniya, İsveçrə, Avstraliya və ABŞ-dakı nüfuzlu nümayəndələri, həmçinin beyin mərkəzlərinin rəhbərləri, insan hüquqları və etnik azlıqlar sahəsində fəaliyyət göstərən ekspertlər, Hindistan hökumətinin repressiv, irqçilik və təqib siyasətinin birbaşa qurbanı olan şəxslər iştirak edəcək.

Konfransda Hindistan hökumətinin etnik və dini azlıqlara, xüsusilə Siqh və Dalit diasporlarının nümayəndələrinə və onların ailə üzvlərinə qarşı həyata keçirdiyi transmilli repressiya və sistemli təqib siyasətinin beynəlxalq təşkilatların gündəliyində daimi saxlanılması məsələləri müzakirə olunacaq, platformalarda birgə fəaliyyət istiqamətində fikir mübadiləsi aparılacaq.

1984-cü il iyun ayının əvvəllərindən etibarən Hindistan hökuməti tərəfindən siqh icmasının müqəddəs dini məkanlarından biri hesab edilən Amritsardakı Harmandir Sahib (Qızıl Məbəd) kompleksinə qarşı həyata keçirilmiş silahlı hücum, icmanın dini-mənəvi dəyərlərinə, ibadət azadlığına və tarixi-mədəni irsinə qarşı yönələn dövlət səviyyəsində təşkil edilmiş zorakılıq aktıdır. Beynəlxalq hesabatlarda silahlı hücum nəticəsində Amritsar və ətraf şəhərlərdə 8 minə qədər mülki şəxsin həyatını itirdiyi bildirilir.

*XQ*

# Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfələri artır

## *Prezident İlham Əliyev ölkəmizin neft strategiyasının uğurlarını dünyaya təqdim etdi*




**Söhbət Azərbaycanın qlobal enerji sistemindəki rolunun dəyişməsindən, enerji istehlakçısı və istehsalçısı ölkələr arasında etibarlı tərəfdaş kimi möhkəmlənməsindən və beynəlxalq enerji təhlükəsizliyinin təmin olunmasında daha fəal iştirakçıya çevrilməsindən gedir. Müasir dövrdə enerji amili dövlətlərin xarici siyasətinin, milli təhlükəsizliyinin və beynəlxalq nüfuzunun əsas elementlərindən birinə çevrilib.**

Xüsusilə son illərdə dünya siyasətində baş verən geosiyasi qarşıdurmalar, enerji bazarlarında yaranan qeyri-sabitlik və yeni enerji marşrutları uğrunda rəqabət enerji məsələsini qlobal gündəliyin mərkəzinə çıxarıb. Belə bir şəraitdə Azərbaycanın artan enerji potensialı və genişlənən beynəlxalq fəaliyyəti ölkənin regional çərçivələri aşaraq daha geniş geosiyasi məkanın mühüm iştirakçısına çevrildiyini göstərir. Azərbaycanın enerji siyasətinin bugünkü mahiyyətini anlamaq üçün ilk növbədə son 30 ildə keçilən inkişaf yoluna nəzər salmaq lazımdır. Müstəqilliyin ilk illərində ölkənin qarşısında duran əsas vəzifə zəngin karbohidrogen ehtiyatlarını beynəlxalq bazarlara çıxarmaq və bunun üçün zəruri maliyyə, texnologiya və idarəetmə resurslarını cəlb etmək idi.

1994-cü ildə imzalanan və sonradan "Əsrin müqaviləsi" adlandırılan saziş məhz bu strategiyanın əsasını təşkil etdi. Həmin müqavilə Azərbaycanın qlobal iqtisadi sistemə inteqrasiyasını təmin edən geosiyasi qərar idi. O dövrdə Azərbaycan xarici investisiyaya ehtiyac duyan ölkə kimi çıxış edirdi. Beynəlxalq neft şirkətləri ölkəyə kapital gətirir, enerji yataqlarının işlənməsində iştirak edir və yeni ixrac marşrutlarının formalaşdırılmasına töhfə verirdilər. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz xətti və sonrakı mərhələdə reallaşdırılan Cənub Qaz Dəhlizi kimi layihələr Azərbaycanın enerji strategiyasını qlobal enerji xəritəsinin vacib elementinə çevirdi. Məhz bu layihələr sayəsində ölkə enerji gəlirlərini artırmaqla yanaşı, iqtisadi və siyasi müstəqilliyini də möhkəmləndirə bildi.

* * *

Bu gün Azərbaycan artıq 1990-cı illərin Azərbaycanı deyil. Prezident İlham Əliyevin Bakı Enerji Forumunda vurğuladığı kimi, ölkə xarici investisiya qəbul edən tərəfdən xarici bazarlara investisiya yönəldən aktora çevrilib. Dövlət Neft Şirkətinin fəaliyyət coğrafiyasının Yaxın Şərq, Afrika və Mərkəzi Asiya istiqamətlərində genişlənməsi bu dəyişimin ən aydın göstəricisidir.

Əgər vaxtilə beynəlxalq şirkətlər Azərbaycan enerji sektorunda mövqe qazanmağa çalışırdılarsa, bu gün Azərbaycan şirkəti müxtəlif regionlarda enerji layihələrinin iştirakçısı və investoru kimi çıxış edir. Enerji diplomatiyamızın mühüm mərhələlərindən biri də 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun işlənilməsi üzrə müqavilənin müddətinin 2050-ci ilə qədər uzadılması oldu. Azərbaycan siyasi və iqtisadi ədəbiyyatında tez-tez "Yeni əsrin müqaviləsi" adlandırılan bu sənəd ölkənin enerji strategiyasında yeni dövrün başlanğıcını ifadə edirdi. Əgər 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" Azərbaycanın qlobal enerji bazarına inteqrasiyasını təmin etmişdisə, 2017-ci il sazişi ölkənin artıq formalaşmış enerji gücü kimi beynəlxalq enerji sistemində mövqeyini uzunmüddətli perspektivdə möhkəmləndirməyə xidmət edirdi.

Belə bir transformasiya iqtisadi inkişafın təbii nəticəsi olmaqla yanaşı, ölkənin geoiqtisadi imkanlarının da genişləndiyini göstərir. Beynəlxalq münasibətlərdə kapital ixracı dövlətlərin təsir imkanlarının artmasının mühüm göstəricilərindən hesab olunur. Çünki xaricə yönəldilən investisiyalar uzunmüddətli iqtisadi əlaqələrin qurulmasına, yeni tərəfdaşlıqların formalaşdırılmasına və siyasi nüfuzun genişlənməsinə xidmət edir.

Diqqətçəkən digər məqam isə Azərbaycanın enerji siyasətinin tədricən hasilat mərkəzli modeldən daha geniş geoiqtisadi modelə transformasiya olunmasıdır. Artıq ölkənin strateji məqsədi yalnız enerji resurslarının ixracından gəlir əldə etmək deyil, həm də beynəlxalq enerji bazarlarında aktiv investor, infrastruktur tərəfdaşı və enerji təhlükəsizliyinin formalaşmasında iştirak edən aktor kimi mövqeyini möhkəmləndirməkdir.

* * *

Qloballaşan dünyada enerji layihələri dövlətlərin xarici siyasətinin mühüm alətinə çevrilib. Bu gün enerji infrastrukturu, nəqliyyat dəhlizləri, neft emalı müəssisələri və qaz şəbəkələri üzərində qurulan əməkdaşlıqlar uzunmüddətli siyasi əlaqələrin və strateji tərəfdaşlıqların formalaşmasına xidmət edir. Buna görə də enerji sahəsində xaricə yönələn investisiyalar dövlətlərin geosiyasi təsir imkanlarını artıran ən mühüm vasitələrdən biri hesab olunur.

* * *

Azərbaycanın son illərdə həyata keçirdiyi enerji strategiyası da məhz bu kontekstdə qiymətləndirilməlidir. Rəsmi Bakı enerji resurslarından əldə etdiyi iqtisadi gücü geoiqtisadi təsir alətinə çevirməyə çalışır. SOCAR-ın Türkiyədə reallaşdırdığı STAR Neft Emalı Zavodu, PETKİM neft-kimya kompleksi və TANAP layihəsi iqtisadi baxımdan böyük əhəmiyyət daşımaqla yanaşı, Azərbaycan-Türkiyə strateji tərəfdaşlığını da yeni səviyyəyə yüksəldib. Mövcud tendensiyanın Azərbaycan üçün strateji əhəmiyyəti ölkənin iqtisadi təhlükəsizliyinin güclənməsində özünü göstərir.

Xarici aktivlərdən əldə edilən gəlirlər enerji gəlirlərinin mənbələrini şaxələndirir və ölkənin iqtisadi dayanıqlılığını artırır. Əgər əvvəllər gəlirlərin əsas hissəsi birbaşa neft və qaz ixracından formalaşırdısa, indi emal, logistika, neft-kimya və digər sahələrdə fəaliyyət göstərən aktivlər əlavə gəlir mənbələri yaradır. Transxəzər enerji dəhlizi ideyası Xəzər hövzəsinin Avrasiya enerji xəritəsində strateji bağlantı nöqtəsinə çevrilməsi potensialını ifadə etsə də, layihə hələ də reallaşmış infrastruktur mərhələsinə keçə bilməyib.

Xüsusilə Rusiya və İranın Transxəzər layihəsinə qarşı çıxması bu təşəbbüsün həyata keçirilməsində ən mühüm siyasi maneələrdən biri kimi çıxış edir. Hər iki dövlət Xəzər dənizinin hüquqi statusu, ekoloji risklər və regional güc balansı arqumentlərini önə çəkərək bu tip kəmər və nəqliyyat layihələrinin öz strateji maraqlarına uyğun olmadığını bildirir. Xəzər dənizi üzərindən enerji daşımalarının genişləndirilməsi, Orta Dəhlizin inkişafı və Mərkəzi Asiya enerji resurslarının Avropa istiqamətinə yönəldilməsi perspektivləri Azərbaycanın strateji əhəmiyyətini daha da artırır. Əgər bu layihələr tam şəkildə reallaşarsa, Azərbaycan yalnız öz enerji ehtiyatlarını ixrac edən ölkə statusu ilə kifayətlənməyəcək, həm də Avrasiya enerji təhlükəsizliyinin əsas qovşaqlarından birinə çevriləcək.



Son olaraq qeyd edək ki, yaxın onillikdə Azərbaycan Avrasiya məkanında yalnız enerji istehsalçısı və tranzit ölkə kimi deyil, həm də enerji investisiyalarının istiqamətlərini və regional enerji təhlükəsizliyinin konturlarını müəyyənləşdirən əsas geosiyasi aktorlardan biri kimi çıxış edəcək.

*__Şəbnəm ZEYNALOVA,__*
*__XQ-nin siyasi analitiki,__*
*__siyasi elmlər üzrə fəlsəfə doktoru__*

# "Gerçək Ermənistan" "böyük Ermənistan"a qarşı

## *Yaxud ölkədə yaxınlaşan parlament seçkilərinin ideoloji mahiyyəti*

**Həftəsonu Ermənistanda parlament seçkiləri keçiriləcək. Proseslə bağlı gərginlik artır və gərginliyin pik həddini proqnozlaşdırmaq çətindir. Hətta qanlı qarşıdurmalar və toqquşmalar da mümkündür. Qarşı duran qüvvələrin ittihamları belə söyləməyə əsas verir.**

Bütün bunların fonunda aydın duyulan bir məqam var: Ermənistanda parlament seçkilərindəki mübarizə "real Ermənistan" ideyası ilə "böyük Ermənistan" ideyası, daha doğrusu, avantürası arasında gedəcək. O avantüra ki, uzun illər dünya erməniliyi, müstəqillik illərində isə Ermənistan Respublikasına hakim kəsilib. Əlbəttə, erməni cəmiyyəti avantüradan əziyyət çəkdiyinin fərqində olmayıb və ölkədə revanşist və şovinist kəsimin varlığını qoruması onu deməyə əsas verir ki, hay toplumunun müxtəlif qatlarına yerimiş pataloji xəstəlik "aktuallığını" saxlayır. Amma...

Baş nazir Nikol Paşinyan və komandası avantüradan uzaq durmağı təlqin edir. Bu, Ermənistanda seçki tarixində bir ilkdir. İndiyədək ölkədə heç bir siyasi qüvvə avantüradan, daha dəqiq desək, Qarabağ məsələsindən və qonşulara qarşı ərazi iddiası məntiqindən kənar siyasi xətt yürütməmiş, əksinə, bu məsələnin Ermənistan üçün prioritetliyini vurğulayan platforma ilə çıxış etmişdi.

Əlqərəz, Baş nazir Paşinyanın "Mülki müqavilə" partiyasının irəli sürdüyü konsepsiya Ermənistanın beynəlxalq aləm tərəfindən qəbul olunmuş sərhədləri çərçivəsində olan "real Ermənistan" ideyası üzərində qurulub. Bunun üçün Nikol və tərəfdarları əllərinə düşən hər fürsətdə erməni xalqına müraciət edərək, daha böyük vətən arzulamaq istəklərindən geri durmaq çağırışı səsləndirir. "Xəyallarımızın vətəni elə Ermənistan Respublikasıdır. Biz artıq qaçqın deyilik və Ermənistan erməniləri, Qarabağ erməniləri və bütün dünya erməniləri Ermənistanda məskunlaşmalıdırlar", - deyə Paşinyan vurğulayıb.

Hakim komandaya qarşı çıxan erməni müxalifəti və kilsə "böyük Ermənistan" ideyasından qidalanan revanşist mövqedən çıxış etməklə, nə tarixi kökü, nə elmi mənşəyi, nə də hansısa digər reallıq anlamı ilə hansısa əlaqəsi olan mətləbi qabardır. O mətləb ki, imperialist qüvvələrin hay toplumunun qarşısına atdığı "yemdir". Fikrimizə aydınlıq gətirək.

Məlumdur ki, "böyük Ermənistan" məsələsinin gündəmə gəlməsində çar I Pyotrun vəsiyyətlərinin xüsusi çəkisi var. O vəsiyyətlər ki, həm çar Rusiyasının, həm keçmiş SSRİ-nin, həm də müasir Rusiyanın ona söykəndiyini söyləmək olar. O vəsiyyətlər ki, orada erməni elitası qondarılır və onun hansısa fövqəladə bacarığı önə çəkilir. Görünür, elə buna görədir ki, Rusiya Prezidenti Vladmir Putin hələ 2005-ci ildə İrəvanda Rusiya günləri tədbirləri çərçivəsində erməni ziyalıların qarşısındakı çıxışında məhz I Pyotrun vəsiyyətlərinin yerinə yetirildiyini vurğulamışdı: "Ermənilərə mümkün qədər nəvaziş göstərilməli və onlara kömək edilməlidir ki, böyük gəlişlərinə hazırlaşa bilsinlər. Cəmi 300 il keçib. Deyildi və yerinə yetirildi".

Putinin ozamankı çıxışından bir neçə qənaət hasil olur. Birinicisi, I Pyotrun vəsiyyətindəki "böyük gəliş" anlamı hazırkı Ermənistan Respublikasıdır. İkincisi, Putinin çıxışının 2005-ci ildə, yəni Azərbaycana qarşı Ermənistanın təcavüzkar siyasətinin davam etdiyi zaman kəsiyində edildiyini nəzərə alsaq, onu deyə bilərik ki, işğal olunmuş torpaqlarımız da hay "böyük gəlişi"nin arealına daxil idi. Başqa cür düşünməyə əsas yoxdur. Həm də ona görə ki, keçmiş SSRİ zamanında da respublikamızın ərazilərindən ermənilərə hədiyyələr edilmiş və bu hədiyyələr hesabına 1929-cu ildə Ermənistan SSR tərkibində Meğri rayonu formalaşdırılmışdı.

Üçüncüsü, Putinin 2005-ci ildəki çıxışı sübuta yetirir ki, müasir Rusiya üçün erməni məsələsi adlı ciddi ideoloji prioritet olub və deməli, bir daha təsdiqlənir ki, bu ölkənin ABŞ və Fransa ilə birlikdə həmsədr kimi təmsil olunduğu ATƏT-in Minsk qrupunun Qarabağ danışıqları məntiqi boş imiş. Daha doğrusu, sözügedən təsisat yalnız aşkar ədalətsizliyə haqq qazandırmaq, ona don geydirmək, yekunda Qarabağın və digər işğal olunmuş torpaqlarımızın Ermənistana məxsusluğunu leqallaşdırmaq məqsədi güdürmüş.




Yəni təxminən belə: Ermənistan Azərbaycan torpaqlarını işğal etmiş və işğala beynəlxalq birlik laqeyd yanaşmışdı. Sonradan ölkəmizin diplomatik səyləri nəticəsində həmin beynəlxalq birlik görmüşdü ki, özünün erməni təəssübünə hüquqi don geydirmək lazımdır və bu zaman ATƏT-in Minsk qrupu kimi təsisat formalaşdırılmışdı.

Şübhəsiz ki, "böyük Ermənistan" avantürası Rusiya da daxil olmaqla, ümumən imperialist qüvvələrin erməni məsələsi adlandırdıqları qlobal planın tərkib hissəsi idi. O plan ki, uzun illər varlığını qorudu və demək olmaz ki, hazırda əhəmiyyətini tam itirib. Sadəcə, indi Qərbin və Rusiyanın məsələyə münasibətləri fərqlidir...

Əsl mahiyyət "böyük Ermənistan"ın tələ mahiyyətidir. Paşinyan əbəs yerə ermənilərin daha qaçqın kimi yaşamalı olmadıqlarının, onların Ermənistan Respublikası adlı vətənlərinin mövcudluğunu bildirmir. Məsələ ondadır ki, orta əsrlərin ikinci yarısında Avropada maarifçi ideyaların, milli zəminli hərəkatların dirçəlişi fonunda səpələnmiş halda yaşayan erməni ziyalıları arasında milli dövlətçilik ideyaları baş qaldırmışdı. Bu ideyada ermənilərin yaşadıqları bütün yerləri vətən saymaq prioriteti əsas götürülürdü.

Bir məqamı vurğulamaq lazımdır ki, erməni ziyalılarının hansısa yeri vətən saymaları yalnız yaşamaq anlamı daşımamış, separatçılıq motivlərinə əsaslanmışdı. İmperialist dairələr məhz bu xarakteri, yəni xəstəliyi duymuş və ondan öz maraqları naminə yararlanmağa başlamış, "böyük Ermənistan" ideyasını "qidalandırmaq" yolu tutmuşdular.

Hər halda, "böyük Ermənistan" üçün böyük qurbanlar da olmalı idi. Buna görə erməni toplumu üçün faciə ssenarisi uyduruldu. Bu mənada, qondarma "erməni soyqırımı" kimi sərsəmliyin mövcudluğundan xəbərdarıq. Başqa cür mümkün deyildi. Hay toplumu imperialist qüvvələrin mənfur planlarında alətə çevrildiyindən, həmin planların reallaşmaması fonunda zərbənin bu topluma dəyməsi qaçılmaza çevrilməli idi və çevrildi də. Axı sadə məntiq var: sən kiməsə nə isə pislik edirsənsə, mütləq cavabı olacaq.

Hazırda Baş nazir Nikol Paşinyan çıxışlarında erməni xalqının daha mübarizə aparmamalı, rahatlıq və rifah içində yaşamalı olduğunu vurğulayır. O, ermənilərin vətən axtarışının sona çatdığını və obrazlı desək, onların artıq dayanacaq yerinə ehtiyac duymadıqlarını bildirərkən keçmişin acı yaşantılarına əsaslanır. Yəni Baş nazir "böyük Ermənistan" avantürasının heç vaxt rahatlıq və dinclik vermədiyini anlayır və "real Ermənistan" ideyası üzərində məhz bu səbəbdən dayanır.

Sonda ümumiləşdirmə apararaq onu da deyək ki, Ermənistanda həftəsonu keçiriləcək parlament seçkilərinin ideoloji mahiyyəti erməni xalqının məhz "real Ermənistan"la "böyük Ermənistan" arasında seçimidir. Hay toplumu "böyük Ermənistan"ın hansı bəlalara gətirib çıxardığının, o cümlədən 44 günlük müharibə ilə necə böyük acılar yaşatdığının fərqinə varmalıdır. Fərqinə varmalı və düzgün seçimini etməlidir. Əks halda...

*__Ə.CAHANGİROĞLU__*
*__XQ__*

# Ərzaq təhlükəsizliyindən orta gücə: Azərbaycan kəndinin yeni mərhələyə keçid gündəliyi

**“Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” ölkənin aqrar siyasətində yeni inkişaf mərhələsinin əsas strateji sənədlərindən biridir. Proqram kənd təsərrüfatının inkişafını, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, qeyri-neft sahələrin dərinləşdirilməsi, regional inkişafın sürətləndirilməsi və milli iqtisadi dayanıqlılığın gücləndirilməsi məqsədlərini özündə birləşdirir. Bu baxımdan proqram aqrar sektorun iqtisadiyyatda rolunun yenidən müəyyənləşdirilməsinə yönəlmiş struktur dəyişikliyi sənədi kimi qiymətləndirilə bilər.**



Son illərdə qlobal inflyasiya, iqlim dəyişiklikləri, geosiyasi gərginliklər və beynəlxalq tədarük zəncirlərində qırılmalar göstərdi ki, ərzaq təhlükəsizliyi artıq sosial sabitliyin və dövlətlərin strateji dayanıqlılığının mühüm elementidir. FAO-nun proqnozlarına görə, 2050-ci ilə qədər dünya əhalisinin 9,7 milyarda çatacağı və qlobal ərzaq tələbatının 50 faizdən çox artacağı gözlənilir. Eyni zamanda, torpaq və su resurslarına təzyiqin güclənməsi aqrar inkişafın məhsuldarlıq, texnologiya və innovasiya əsasında yenidən qurulmasını strateji zərurətə çevirir.

Prezident İlham Əliyevin kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə vurğuladığı kimi, əvvəlki mərhələdə ölkədə zəruri infrastruktur bazası formalaşdırılıb. Yeni mərhələnin əsas vəzifəsi isə bu potensialı daha yüksək məhsuldarlıq, rəqabətqabiliyyətlilik, əlavə dəyər və ixrac imkanları yaradan müasir aqrar iqtisadiyyata çevirməkdir. Məhz buna görə Dövlət Proqramının mahiyyəti yalnız istehsalın artırılması deyil, aqrar sektorda texnologiya, insan kapitalı, emal, logistika və bazar inteqrasiyasına əsaslanan yeni inkişaf modelinin formalaşdırılmasıdır.

Bu kontekstdə proqramın əhəmiyyəti aqrar sahənin hüdudlarını aşır. Sənəd bir tərəfdən ərzaq təhlükəsizliyinin gücləndirilməsini, digər tərəfdən isə Azərbaycanın regional ərzaq-logistika sistemində rolunun artırılmasını hədəfləyir. Bu isə aqrar siyasəti ölkənin uzunmüddətli inkişafı, geoiqtisadi mövqeyi və “orta güc” strategiyası ilə birbaşa əlaqələndirir.

## Dövlət Proqramının əsas hədəfləri

Ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış milli iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı həmişə ölkənin iqtisadi təhlükəsizliyi, regionların inkişafı və sosial sabitliyin əsas dayaqlarından biri kimi müəyyən olunmuşdur. Məhz həmin dövrdə həyata keçirilən aqrar islahatlar, torpaq mülkiyyətinin formalaşdırılması və kənd təsərrüfatının bazar iqtisadiyyatına uyğunlaşdırılması Azərbaycanın aqrar inkişaf siyasətinin əsasını yaratdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni aqrar transformasiya mərhələsi də əslində həmin strateji xəttin müasir çağırışlara uyğun daha yüksək məhsuldarlıq, texnologiya və rəqabətlilik əsasında davam etdirilməsidir.

Sözügedən Dövlət Proqramının əsas strateji mahiyyəti aqrar sektorda artımın mənbəyini ekstensiv genişlənmədən məhsuldarlıq, texnologiya və yüksək əlavə dəyər əsaslı inkişaf modelinə yönəltməkdir. Proqram göstərir ki, Azərbaycan artıq yalnız istehsal həcmini artırmağa deyil, aqrar iqtisadiyyatın struktur keyfiyyətini yüksəltməyi hədəfləyir. Bu baxımdan proqramın əsas məqsədi üç istiqamətdə transformasiya yaratmaqdır: ərzaq təhlükəsizliyinin gücləndirilməsi, məşğulluğun daha yüksək gəlirli və məhsuldar fəaliyyət sahələrinə yönəldilməsi, aqrar sektorun daha yüksək dəyər yaradan ixracyönümlü iqtisadi platformaya çevrilməsi.

Dövlət Proqramında müəyyən edilən hədəflər də bu yanaşmanı əks etdirir. Növbəti mərhələdə kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrində yaradılan əlavə dəyərin hər il orta hesabla ən azı 2 faiz, aqrar və aqrar emal məhsullarının ixracının isə orta illik 6 faiz artırılması nəzərdə tutulur. Eyni zamanda strateji məhsullar üzrə özünütəminetmə səviyyəsinin yüksəldilməsi hədəflənir.

Bitkiçilik üzrə hədəflər aqrar artımın əsas mənbəyinin texnologiya və məhsuldarlıq olacağını göstərir. Müasir suvarma sistemləri tətbiq olunan sahələrin 130 min hektardan 300 min hektara çatdırılması, intensiv meyvə bağlarının 50 min hektardan 70 min hektara yüksəldilməsi və istixana komplekslərinin 1500 hektardan 2000 hektara genişləndirilməsi məhdud torpaq və su resurslarından daha yüksək iqtisadi nəticə əldə etmək məqsədi daşıyır. Bu yanaşma xüsusilə iqlim dəyişiklikləri və su resurslarının azalması fonunda strateji əhəmiyyət kəsb edir.

Buğda və pambıq üzrə məhsuldarlığın 50 sentner/ha səviyyəsinə çatdırılması da proqramın məhsuldarlıq hədəfini əks etdirir. Buğda üzrə hədəf ərzaq təhlükəsizliyinin gücləndirilməsinə, pambıq üzrə hədəf isə aqrar-sənaye və emal zəncirinin genişləndirilməsinə xidmət edir. Eyni zamanda 20 min hektarda torpaq konsolidasiyasının pilot tətbiqi göstərir ki, məhsuldarlıq artımı yalnız texnologiya ilə deyil, həm də torpaq münasibətlərinin institusional yenilənməsi ilə bağlıdır.

Heyvandarlıq üzrə indikatorlar sahədə əsas çağırışın heyvan sayından daha çox genetik keyfiyyət, yem bazası və idarəetmə səmərəliliyi ilə bağlı olduğunu göstərir. Cins iribuynuzlu heyvanların ümumi sürüdə payının 2.5 faizdən təxminən 10 faizə çatdırılması, süd istehsalının ən azı 10 faiz, kəsilmiş çəkidə mal ətinin 20 faiz, quş ətinin 30 faiz, yumurta istehsalının isə təxminən 27 faiz artırılması heyvandarlıqda intensiv modelə keçidin əsas göstəriciləridir. Burada məqsəd hər baş heyvandan daha çox məhsul əldə etməkdir.

Akvakultura istehsalının 3400 tondan təxminən 7700 tona yüksəldilməsi ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və idxaldan asılılığın azaldılması baxımından yeni inkişaf istiqaməti formalaşdırır. Bu sahənin genişləndirilməsi torpaq resurslarından nisbətən az asılı olan alternativ ərzaq istehsalı modelinin inkişafına, eyni zamanda ərzaq təminatı mənbələrinin şaxələndirilməsinə xidmət edir. Bu isə balıqçılıq və akvakulturanın gələcəkdə həm daxili tələbatın ödənilməsi, həm də ixrac potensialının artırılması baxımından strateji əhəmiyyətinin yüksəldiyini göstərir.

Beynəlxalq təcrübə göstərir ki, seleksiya, tətbiqi tədqiqatlar, rəqəmsal texnologiyalar və ixtisaslı kadr hazırlığına yatırılan investisiyalar uzunmüddətli dövrdə torpaq və kapital qoyuluşlarından daha yüksək məhsuldarlıq effekti yarada bilir. Bu baxımdan Dövlət Proqramı aqrar sektorda bilik və innovasiya əsaslı inkişaf modelinin formalaşdırılmasına xüsusi önəm verir. Proqramda aqrar ixtisaslar üzrə ikili diplom proqramları ilə məzunların sayının ən azı 500 nəfərə çatdırılması insan kapitalının gücləndirilməsinə yönəlib.

Aqrar sığorta ilə təmin edilən sahələrin 386 min hektardan ən azı 1 milyon hektara, sığortalanan heyvanların isə 6,9 min başdan təxminən 100 min başa yüksəldilməsi aqrar sektorda risklərin daha sistemli idarə olunmasına xidmət edir. Rəqəmsal xidmətlər vasitəsilə göstərilən aqrar dövlət dəstəyi xidmətlərinin payının 55 faizdən 100 faizə çatdırılması isə aqrar xidmətlərin əhatə dairəsinin və əlçatanlığının genişləndirilməsinə, dövlət dəstəyinin daha şəffaf, çevik və nəticəyönümlü idarə edilməsinə imkan verəcək.

Proqramın mühüm xüsusiyyətlərindən biri də onun yalnız istehsala fokuslanmamasıdır. Soyuducu anbarlar, taxıl siloları, logistika infrastrukturu, aqrar emal müəssisələri, sertifikasiya, rəqəmsal idarəetmə və aqrar süni intellekt platformaları aqrar inkişafın əsas komponentləri kimi müəyyən edilir. Bu isə göstərir ki, aqrar sektor tədricən emal, logistika və ixracı birləşdirən kompleks iqtisadi sistemə çevrilir.

## Yeni aqrar modelə keçidin iqtisadi əsasları

Azərbaycanda aqrar sektorun inkişafında əsas vəzifələrdən biri istehsalın səmərəliliyinin və gəlirliliyinin daha da artırılmasıdır. Son onilliklərdə kənd təsərrüfatında mühüm inkişaf əldə olunmuş, istehsal potensialı əhəmiyyətli dərəcədə genişlənmişdir. Bununla yanaşı, torpaq sahələrinin parçalanması, su resurslarından istifadənin optimallaşdırılması, iqlim dəyişikliklərinə uyğunlaşma və məhsuldarlıq fərqlərinin azaldılması yeni mərhələdə diqqət tələb edən əsas istiqamətlər kimi ön plana çıxır. Bu isə aqrar sektorda növbəti inkişaf mərhələsinin daha yüksək məhsuldarlıq potensialının reallaşdırılması üzərində qurulacağını göstərir.

Belə ki, əkinəyararlı torpaq ehtiyatlarının məhdudluğu, su resurslarının strateji əhəmiyyətinin artması və iqlim dəyişikliklərinin təsiri mövcud potensialdan daha yüksək məhsuldarlıqla istifadə olunmasını zəruri edir. Bu şəraitdə aqrar inkişafın əsas mənbəyi hər hektar torpaqdan, hər kubmetr sudan və hər manat investisiyadan daha yüksək iqtisadi nəticə əldə etməkdən ibarətdir.

Məhz burada aqrar sektorun böyük inkişaf potensialı ortaya çıxır. Prezident İlham Əliyevin vurğuladığı kimi, “potensial var və onu reallaşdırmaq lazımdır”. Ölkə üzrə orta məhsuldarlıq göstəriciləri ilə qabaqcıl intensiv təsərrüfatların nəticələri arasında mövcud fərqlər göstərir ki, texnologiya, seleksiya, müasir idarəetmə yanaşmaları, aqrar elm və innovasiyaların tətbiqi hesabına əhəmiyyətli əlavə artım potensialı mövcuddur. İqtisadi nəzəriyyədə bu yanaşma ümumi faktor məhsuldarlığının yüksəldilməsi kimi qiymətləndirilir və uzunmüddətli inkişafın ən dayanıqlı mənbələrindən biri hesab olunur.

Torpaq münasibətləri də aqrar inkişafın növbəti mərhələsində xüsusi əhəmiyyət kəsb edir. Hazırda torpaq sahələrinin əhəmiyyətli hissəsinin kiçik və pərakəndə struktura malik olması müasir texnologiyaların, mexanikləşmənin, rəqəmsal idarəetmə sistemlərinin və iri investisiyaların tətbiq imkanlarını məhdudlaşdırır. Bu isə mövcud istehsal potensialının tam reallaşdırılmasını çətinləşdirir və miqyas iqtisadiyyatının yaratdığı üstünlüklərdən daha geniş istifadə zərurətini ortaya çıxarır.

Eyni zamanda su resurslarının strateji əhəmiyyətinin artması və iqlim dəyişikliklərinin təsiri aqrar siyasətin məzmununu daha da genişləndirir. Müasir mərhələdə kənd təsərrüfatının inkişafı yalnız istehsal həcminin artırılması ilə deyil, torpaq və su resurslarının səmərəli idarə olunması, iqlim dayanıqlılığının gücləndirilməsi və uzunmüddətli resurs təhlükəsizliyinin təmin edilməsi ilə birbaşa bağlıdır. Bu isə aqrar sektorda daha səmərəli torpaq istifadəsi, konsolidasiya, müasir suvarma texnologiyaları və innovativ idarəetmə həllərinin tətbiqini strateji prioritetə çevirir.

Beynəlxalq təcrübə də göstərir ki, məhdud torpaq və su resursları şəraitində uğurlu aqrar inkişafın əsas mənbəyi məhz intensivləşmədir. İntensiv aqrar inkişafın əsas şərtləri torpaq və su resurslarından səmərəli istifadə, müasir suvarma sistemləri, torpaq konsolidasiyası, yüksək məhsuldarlığa malik istehsal modelləri, seleksiya, aqrar elm, rəqəmsal texnologiyalar və ixtisaslı insan kapitalıdır. Niderland, İsrail və Danimarka kimi ölkələr torpaq ehtiyatlarının məhdudluğuna baxmayaraq, müasir suvarma sistemləri, seleksiya, aqrar elm, rəqəmsal texnologiyalar və yüksək məhsuldarlığa malik istehsal modelləri hesabına dünya aqrar bazarlarında mühüm mövqe qazanıblar. Bu təcrübə göstərir ki, müasir dövrdə aqrar üstünlük bilik, texnologiya və idarəetmə keyfiyyəti ilə müəyyən olunur.

## Ərzaq təhlükəsizliyi və gəlirlilik dilemması

Dövlət Proqramının konseptual məntiqində əsas məsələlərdən biri ərzaq təhlükəsizliyi ilə yüksək gəlirlilik arasında strateji balansın qurulmasıdır. Taxılçılıq və xüsusilə buğda istehsalı iqtisadi gəlirlilik baxımından digər məhsullarla müqayisədə aşağı səmərə versə də, ölkənin baza ərzaq təhlükəsizliyinin əsasını təşkil edir. Çünki buğda yalnız kənd təsərrüfatı məhsulu deyil, gündəlik istehlak səbətinin əsas komponenti və sosial sabitliyə təsir edən strateji məhsuldur. Son illərdə qlobal taxıl bazarlarında müşahidə olunan qiymət dəyişkənliyi, ixrac məhdudiyyətləri və logistika riskləri göstərdi ki, buğda üzrə üstün idxal ölkənin həm ərzaq, həm də makroiqtisadi dayanıqlığı üçün risk yarada bilər.

Məhz buna görə əkin sahələrinin mühüm hissəsinin dənli və paxlalı bitkilərin payına düşməsi yalnız iqtisadi seçim deyil, strateji təhlükəsizlik yanaşmasıdır. Digər tərəfdən taxılçılıq hər hektara düşən əlavə dəyər baxımından meyvəçilik, tərəvəzçilik, istixana və aqrar emal sahələri ilə müqayisədə daha aşağı iqtisadi nəticə verir. Bu isə aqrar siyasətdə əsas dilemmanı formalaşdırır: bir tərəfdən ölkənin baza ərzaq təhlükəsizliyini təmin edən strateji məhsullar qorunmalı, digər tərəfdən isə məhdud torpaq və su resursları daha yüksək gəlirlilik və ixrac potensialı yaradan sahələrə yönəldilməlidir.

Azərbaycan aqrar siyasətdə strateji məhsullar üzrə dayanıqlılığı, rəqabətli sahələrdə isə ixrac üstünlüyünü əsas götürən balanslı yanaşma seçir. Yəni ölkə bütün məhsullarda tam daxili təminatı hədəfləmir. Strateji məhsullarda riskləri azaldır, rəqabət üstünlüyü olan sahələrdə isə ixrac və əlavə dəyər potensialını artırır.

Bu yanaşma resursların daha səmərəli istifadəsinə imkan verir. Pambıq emalının artırılması, intensiv bağların genişləndirilməsi, istixana və müasir suvarma sistemlərinin tətbiqi bu yeni yanaşmanın əsas göstəriciləridir. Məqsəd artıq “torpaqdan məhsula” deyil, “torpaqdan bazara və brendə” keçməkdir. Növbəti mərhələdə aqrar siyasətin effektivliyi məhsuldarlıq, əlavə dəyər, ixrac gəliri, emal dərinliyi və resurs səmərəliliyi kimi göstəricilərlə ölçüləcək.

Lakin bu balansın təmin edilməsi yalnız istehsal strukturunun dəyişməsi ilə mümkün deyil. Məhdud resurslar şəraitində məhsuldarlığın artırılması, əlavə dəyərin yüksəldilməsi və ixrac potensialının genişləndirilməsi üçün dövlət dəstəyi mexanizmlərinin və investisiya modelinin də yeni iqtisadi reallıqlara uyğunlaşdırılması zəruridir.

## Dövlət dəstəyi və özəl aktivlik

Dövlət Proqramının mühüm üstünlüklərindən biri aqrar subsidiyaların və dövlət dəstəyi mexanizmlərinin fəlsəfəsinin dəyişməsidir. Əvvəlki mərhələdə əsas məqsəd kənd yerlərində sosial sabitliyi qorumaq, fermer gəlirlərinin davamlılığını təmin etmək və istehsalın dayanıqlığını saxlamaq idi. Yeni mərhələdə isə prioritet məhsuldarlıq, rəqabətqabiliyyətlilik, əlavə dəyər və ixrac potensialının artırılmasıdır. Bu, aqrar siyasətdə səmərəlilik və nəticə əsaslı inkişafın ön plana çıxdığını göstərir.

Mövcud subsidiyaların strukturuna baxdıqda transformasiya ehtiyacı daha aydın görünür. Dövlət dəstəyinin əsas hissəsi bitkiçiliyə yönəlir, heyvandarlığın payı isə cəmi 6 faiz təşkil edir. Bu yanaşma uzun illər istehsalın davamlılığının və sosial sabitliyin qorunmasında mühüm rol oynayıb, eyni zamanda, mövcud potensialın formalaşmasına şərait yaradıb. Dövlət dəstəyi məhsuldarlıq artımı, texnologiya tətbiqi, su səmərəliliyi, emal dərinliyi və bazar inteqrasiyası kimi göstəricilərlə daha sıx əlaqələndirilir. Müasir suvarma sistemləri, intensiv heyvandarlıq, aqrar emal, istixana kompleksləri, rəqəmsallaşma və logistika infrastrukturu əsas prioritet istiqamətlərə çevrilir. Texnologiya əsaslı subsidiyalaşma dövlət dəstəyinin daha şəffaf və nəticəyönümlü idarə edilməsinə imkan yaradır.

Yeni aqrar inkişaf modelinin mühüm xüsusiyyətlərindən biri dövlətin daha çox infrastruktur, tənzimləmə və təşviqedici platforma roluna keçməsidir. Dövlət su, yol, enerji, subsidiya, sığorta, logistika və rəqəmsal idarəetmə infrastrukturunu formalaşdırır, özəl sektor isə emal, texnologiya və ixrac istiqamətlərində əsas investisiya daşıyıcısına çevrilir. Bu yanaşma aqrar siyasətdə yeni institusional bölgü yaradır. Çünki müasir suvarma sistemləri, aqrar emal müəssisələri, istixana kompleksləri və soyuq zəncir infrastrukturu böyük həcmli uzunmüddətli investisiyalar tələb edir. Dövlət Proqramında 2026–2030-cu illərdə aqrar sektora 3 milyard manatdan çox özəl investisiyanın cəlbi nəzərdə tutulur ki, bu da aqrar transformasiyanın əsas maliyyə dayaqlarından birinin məhz özəl kapital olacağını göstərir.

Prezident İlham Əliyevin müşavirədə vurğuladığı kimi, dövlət aqrar sektorun inkişafı üçün zəruri infrastruktur və dəstək mexanizmlərini formalaşdırır, lakin növbəti mərhələdə əsas nəticələr özəl sektorun fəallığından asılı olacaq. Bu baxımdan sahibkarların rolu yalnız istehsalı artırmaqla məhdudlaşmır, həm də texnologiya tətbiqi, emal, logistika və ixrac imkanlarının genişləndirilməsini əhatə edir.

Aqroparkların, aqrar-sənaye zonalarının, emal müəssisələrinin və logistika mərkəzlərinin genişləndirilməsi özəl investisiya fəallığını artırmağa hesablanıb. Nəticədə aqrar sektor tədricən aşağı gəlirli sosial sahədən yüksək investisiya, innovasiya və texnologiya cəlb edən iqtisadi sektora çevrilir.

Aqrar transformasiyanın davamlılığı insan kapitalının keyfiyyətindən asılı olacaq. Süni intellekt, rəqəmsal idarəetmə, dəqiq əkinçilik və müasir suvarma sistemləri yüksək ixtisaslı insan resursları olmadan effektiv nəticə verə bilməz. Proqramda aqrar təhsil, tətbiqi tədqiqatlar, ikili diplom proqramları və rəqəmsal bacarıqların inkişafı üzrə nəzərdə tutulan tədbirlər məhz bu məqsədə xidmət edir.

## Aqrar ticarət və yüksək gəlirli bazarlar

2021–2025-ci illərdə aqrar ixracın 1.1 milyard dollardan 1.5 milyard dollara yüksəlməsi Azərbaycanın aqrar ticarətdə mövqelərinin gücləndiyini göstərir. Bu dinamika təsadüfi deyil və aqrar sektorda son illərdə formalaşan struktur dəyişikliyin nəticəsidir. İxrac artımı bazarların şaxələnməsi, məhsul çeşidinin genişlənməsi, emal məhsullarının payının yüksəlməsi və logistika imkanlarının yaxşılaşması ilə müşayiət olunur. Xüsusilə meyvəçilik, tərəvəzçilik, fındıq, xurma, pambıq və şərabçılıq kimi sahələr Azərbaycanın aqrar ixrac strukturunda rəqabət üstünlüyü formalaşdıran istiqamətlər kimi ön plana çıxır. Bu məhsulların bir hissəsi artıq regional bazarlarda tanınmış ixrac brendlərinə çevrilməkdədir.

Eyni zamanda aqrar məhsullar üzrə idxalın həcminin 3,1 milyard ABŞ dolları səviyyəsində olması göstərir ki, daxili istehsal potensialının genişləndirilməsi hələ də əhəmiyyətini qoruyur. Xüsusilə buğda, bitki yağları, şəkər, kərə yağı və bəzi heyvandarlıq məhsulları üzrə idxal ehtiyacı ərzaq təhlükəsizliyi baxımından istehsalın məhsuldarlıq və rəqabətqabiliyyətlilik əsasında daha da gücləndirilməsini zəruri edir. Bu baxımdan Dövlət Proqramı yalnız ixrac potensialının artırılmasına deyil, həm də strateji məhsullar üzrə idxalın davamlı azaldılmasına yönəlmiş balanslı yanaşmanı formalaşdırır.

Bu yanaşmanın praktiki nəticəsi olaraq Azərbaycan bütün məhsullar üzrə tam daxili təminatı deyil, strateji məhsullar üzrə risklərin azaldılmasını və kritik asılılıqların minimuma endirilməsini hədəfləyir. Eyni zamanda rəqabət üstünlüyünə malik sahələrdə ixrac potensialının genişləndirilməsi prioritet kimi çıxış edir. Bu baxımdan ölkə buğda, bitki yağları, kərə yağı, ət və balıq kimi məhsullar üzrə daxili istehsal imkanlarını gücləndirir, habelə tərəvəz, meyvə, fındıq, xurma, pambıq lifi və digər rəqabətqabiliyyətli məhsullar üzrə xarici bazarlardakı mövqeyini möhkəmləndirir. Təsadüfi deyil ki, fındıq və xurma artıq Azərbaycanın ən rəqabətqabiliyyətli aqrar ixrac məhsulları sırasında yer alır. Bu isə ölkənin bəzi məhsullar üzrə müqayisəli üstünlüklər formalaşdırdığını və aqrar ixracın strukturunda ixtisaslaşmanın gücləndiyini göstərir.

Bu yanaşma aqrar siyasətdə mühüm konseptual dəyişiklik yaradır. Əvvəlki mərhələdə əsas məqsəd daha çox istehsal idisə, yeni mərhələdə əsas məqsəd daha yüksək gəlir, daha yüksək emal dərinliyi və daha güclü bazar mövqeyi formalaşdırmaqdır. Bu baxımdan Azərbaycan “dəyər zənciri iştirakçısı”na çevrilməyə çalışır. Müasir aqrar iqtisadiyyatda yüksək gəlirlilik məhsulun emalı, qablaşdırılması və brendləşdirilməsi ilə yaranır. Məsələn, pambığın mahlıc və ya iplik formasında ixracı, meyvələrin emal olunmuş məhsul kimi satışı və ya şərabçılığın inkişafı eyni xammaldan daha yüksək iqtisadi gəlir əldə etməyə imkan verir.

## 2030: aqrar transformasiyanın strateji nəticələri

Dövlət Proqramının strateji əhəmiyyəti yalnız aqrar istehsalın inkişafı ilə məhdudlaşmır. Əslində proqram qeyri-neft iqtisadiyyatının növbəti mərhələdə hansı istiqamətdə formalaşacağına dair geniş inkişaf baxışını əks etdirir. Bu baxımdan aqrar sektor tədricən ənənəvi istehsal sahəsindən çıxaraq iqtisadi dayanıqlılıq, regional inkişaf və geoiqtisadi mövqelənmənin mühüm elementlərindən birinə çevrilir.

Müasir dövrdə dövlətlərin iqtisadi gücü malik olduqları təbii resurslarla yanaşı, qlobal və regional dəyər zəncirlərində tutduqları mövqe ilə müəyyən olunur. Ərzaq, logistika və təchizat təhlükəsizliyi son illərdə enerji təhlükəsizliyi qədər strateji əhəmiyyət qazanıb. Bu baxımdan aqrar sektor qeyri-neft iqtisadiyyatında yeni ixrac istiqamətlərinin formalaşmasına, regional bazarlarla inteqrasiyanın dərinləşməsinə və xarici iqtisadi dayanıqlılığın güclənməsinə xidmət edə bilər.

Bu proses Azərbaycanın “orta güc” strategiyası ilə də uzlaşır. Müasir orta güclər həm də regional iqtisadi əlaqələrə təsir göstərmək, təchizat zəncirlərində etibarlı tərəfdaş kimi çıxış etmək və strateji məhsullar üzrə dayanıqlı təminat yaratmaq qabiliyyəti ilə fərqlənirlər. Azərbaycanın enerji, nəqliyyat və logistika sahələrində formalaşdırdığı üstünlüklərin aqrar sektorla tamamlanması ölkənin regional iqtisadi çəkisini daha da artırmaq potensialına malikdir.

Xüsusilə Orta Dəhlizin inkişafı, Zəngəzur dəhlizinin yaratdığı yeni imkanlar, Qarabağ və Şərqi Zəngəzurda formalaşdırılan müasir iqtisadi infrastruktur Azərbaycanın regional ərzaq-logistika sistemində rolunu gücləndirə bilər. Bu ərazilərdə yaradılan aqroparklar, emal müəssisələri və logistika mərkəzləri yalnız kənd təsərrüfatı layihələri deyil, eyni zamanda, ölkənin gələcək geoiqtisadi arxitekturasının mühüm elementləri kimi qiymətləndirilə bilər.

Bu mənada 2026–2030-cu illər Dövlət Proqramı aqrar sektorun inkişafına dair növbəti fəaliyyət planından daha geniş məna daşıyır. Proqramın uzunmüddətli məqsədi kənd təsərrüfatının iqtisadiyyatda rolunu yenidən müəyyənləşdirmək, onu regional inteqrasiyanın, ixracyönümlü inkişafın, yüksək gəlirli məşğulluğun və milli iqtisadi dayanıqlılığın əsas sütunlarından birinə çevirməkdir.

***Şaiq ADIGÖZƏLOV,***
***iqtisad üzrə fəlsəfə doktoru***

# Ermənistan 5 gündən sonra və seçimsonrası...

## *Seçkilər "sülh, yoxsa hərb" dilemması ilə yanaşı, digər vacib suallara da aydınlıq gətirməlidir*

**Dözülməz və kəskin siyasi gərginlik – son vaxtlar Moskva ilə İrəvan arasında münasibətlərə nüfuz edən ritorika səviyyəsini belə təsvir etmək mümkündür. Ermənistan hökumətinin "siyasi oriyentasiyasından" tutmuş, iqtisadi prioritetlərinə qədər bir sıra hərəkətləri Rusiya isteblişmentinin nümayəndələri tərəfindən tənqidlə qarşılanır. Kremlin seçkiqabağı "qələbə üçün bütün vasitələr məqbul sayılır" taktikasından yararlandığı bütün bucaqlardan görünür. Bu qeyri-bərabər, "sekundantsız duel"dən Paşinyanın qalib çıxacağı çoxlarına inandırıcı görünməyə bilər, amma İrəvanın Rusiyanın "zəncirindən savayı itirməyə heç nəyinin olmadığı" reallığını da diqqətdən kənarda saxlamaq olmaz.**




Ermənistan 5 gündən sonra üzünü hansı səmtə çevirəcək - sualının cavabını 35 il əvvəldə, onun müstəqilliyini elan etdiyi 1991-ci ildə axtarmaq daha məntiqi olar. O vaxtdan 2018-ci ilədək Ermənistan tam siyasi suverenliyə malik olmayıb. Xarici siyasət kursunun Moskvaya həvalə edilməsi, iqtisadiyyatın strateji sahələrinin Rusiya şirkətləri tərəfindən icarəyə götürülməsi Paşinyan hakimiyyətə gələnə qədərki dövrün reallığıdır. Həmin reallığın ən idbar sifəti 30 il beynəlxalq gündəmdə adı "Dağlıq Qarabağ münaqişəsi" kimi hallandırılan və iki müharibəni törədən, çoxsaylı sərhəd münaqişələri ilə müşayiət olunan sərsəm "Artsax" ideyası olub. İndi "ekslər", Rusiyaya bağlı digər siyasi qüvvələr Azərbaycanın tarixin arxivinə göndərdiyi separatçı rejimi, qondarma "Artsax"ı gündəmə gətirməyə çalışmaqla, seçki təbliğatını bunun üzərində qurmaqla İrəvanı Bakının sərt reaksiyası və onu gözlənilən daha ağır aqibətlə üz-üzə qoyurlar.

*

Kreml isə özünün rəsmi "emissar-ideoloqlarının" dili ilə İrəvana diplomatik "hücumu" davam etdirir. Xüsusilə, Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzinin, Baş nazirin müavini Aleksey Overçukun İrəvanın xarici siyasətinin pislənilməsinə, iqtisadi böhranla hədələnməsinə köklənən siyasi ritorikaları ona işarədir ki, Kreml Ermənistanın eyni vaxtda AİÎ və Aİ-də iştirakına dözmək niyyətində deyil. Yəni Paşinyan komandası da artıq iki stulda əyləşməyin mümkünsüzlüyünü anlayıb. Baş nazirin sözlərinə görə, Ermənistan dövlətlərarası məntiqlə hərəkət edir və bütün proseslərdə iştirak edərək AİÎ-nin tamhüquqlu üzvü olaraq qalır. Bəli, Kremlin yeganə məqsədi ona baş əyməyən Nikol Paşinyanı istənilən yolla hakimiyyətdən uzaqlaşdırmaqdır. Rusiyanın İrəvana şantaj səviyyəsinə çatmış aşkar təzyiqlərini şərtləndirən əsas amil budur. Bu siyasi duel Ermənistandakı seçkiqabağı vəziyyətə necə təsir edir? Seçkilər indiki pozitiv proqnozların əleyhinə nəticələnə bilərmi? Əgər bu baş verərsə, hadisələr hansı məcraya yönələcək? Bu suallara sahənin tanınmış ekspertləri ilə aydınlıq gətirməyə çalışacağıq.

*

"Hesab edirəm ki, Nikol Paşinyanın partiyası seçkilərdə qalib gələcək və böyük ehtimalla, təkbaşına hökuməti formalaşdıra biləcək. Birləşmiş müxalifətin konstitusion çoxluğa nail olmaq cəhdləri başadüşüləndir. Amma bu, sadəcə, ehtimaldır. Ermənistan elektoratı Moskvanın İrəvanla kobud və yekəxana davranışına, ölkənin daxili işlərinə müdaxiləsinə etiraz əlaməti olaraq Paşinyan komandasına səs verəcək". **Bu maraqlı və məntiqi proqnozu XQ-yə açıqlamasında Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov söylədi.** Kremlin ucuz qiymətə verdiyi neft və qazı kəsəcəyi təqdirdə Ermənistan iqtisadiyyatının çökəcəyi barədə bəyanatları mövzusuna toxunan politoloq bunu da seçkilərlə bağlı siyasi təzyiq vasitəsi sayır: "Uzağa getməyək. Əgər Rusiya təbii qazın min kubmetrini Ermənistana 170 dollara, onunla bütün diplomatik əlaqələri, ikitərəfli münasibətləri kəsmiş, Avropa İttfaqına üzvlüyə namizəd "düşmən" Gürcüstana 185 dollara satır. Ortada nə böyük fərq var ki? Baxmayaraq ki, gürcü enerji istehlakçıları Azərbaycan qazını daha ucuz qiymətə əldə edirlər. Konkret misal: Gürcüstanda A95 markalı benzinin litri 1,4 dollar, Ermənistanda isə 1,5 dollardır. Yəni, Moskvanın bu amillərlə İrəvanı şantaj etməsi sağlam məntiqə sığmır".



Deputat daha sonra Putinin Ermənistanda enerji daşıyıcılarının qiymətləri qalxacağı təqdirdə ölkə iqtisadiyyatının 14 faiz zərər görəcəyi ilə bağlı fikirlərinə də münasibət bildirdi: "Kökündən yalan sözdür. Neft-qazın qiymətinin artması heç bir halda bu qədər zərərə səbəb ola bilməz. İqtisadiyyata real təsir bilirsiniz nədən ibarət ola bilər: hazırda Rusiyadan Ermənistana pul köçürmələrinin illik həcmi təxminən 3,5 milyard dollardlr. Bu rəqəm ölkənin ümumi daxili məhsulunun (ÜDM) 12-13 faizini təşkil edir. Bəli, bu maliyyə emissiyası kəsilərsə, iqtisadiyyat zərər görər. Əslində, bu maliyyə mexanizmindən Qərbin sanksiyaları altına düşən Rusiyanın özü də az qazanmır".

7 iyun parlament seçkilərinin nəticələri ilə bağlı proqnozunda rəsmi Moskvanın bundan sonra da İrəvanla praqmatik münasibətlərini davam etdirəcəyinə əminliyini ifadə edən R.Musabəyov hətta ən pis variantda – Karapetyanın partiyası seçkini uddu və koalisyon hökumət qurdu – müxalifətin Azərbaycana qarşı hansısa iddia ilə çıxış etmək şansının olmayacağını vurğuladı: "İstənilən qüvvənin ölkəmizə qarşı revanşist hərəkətlərə yol verməsi Ermənistanın bir dövlət kimi intiharına qərar verməsi demək olacaq".

*

**Mövzu ilə bağlı fikirlərini qəzetimizlə bölüşən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi İdarə Heyətinin sədri Fərid Şəfiyev** budəfəki parlament seçkilərinin Ermənistan üçün konseptual xarakter daşıdığını bildirdi: "2021-ci il seçkilərindən fərqli olaraq, 7 iyun seçkilərində iki amil əsaslı şəkildə dəyişib. Bunlardan birincisi, Paşinyan İkinci Qarabağ müharibəsini uduzsa da, Xankəndidə separatçı yuvası hələ dururdu, Rusiyanın sülhməramlı kontingenti Qarabağda yerləşdirilmişdi. Ümumiyyətlə, Rusiyanın bölgəyə yönəlik strategiyasında bu amillərdən məqsədyönlü şəkildə istifadə olunurdu. Biz tam sülhə nail olmamışdıq, heç sülh sazişinin mətni də yox idi. Amma indi Azərbaycanın Qarabağ iqtisadi rayonunda separatizmin kökü kəsilib, bu ərazimizdə rus sülhməramlıları yoxdur və tərəflər sülh sazişinin mətnini paraflayıblar. İkinci amil isə rəsmi İrəvanın uzunmüddətli hədəfinin Avropa İttifaqına üzv olacağını bəyan etməsidir. Bu isə o deməkdir ki, Ermənistan nə vaxtsa Avrasiya İqtisadi İttifaqından çıxmalı olacaq. Siyasi mənzərəni dəyişən əsas reallıq budur".



Rusiyanın Ermənistana təzyiqlərinə gəlincə, bunların siyasi, iqtisadi aspektlərə söykəndiyinə diqqət çəkən mərkəzin sədri erməni mineral suyunda, gülündə, yaxud əriyində xəstəliyin aşkar olunmasının təsadüf sayılmadığını irəli sürdü: "Əlbəttə ki, Moskva bunlardan təzyiq aləti kimi istifadə edir. Proqnozlara gəlincə, son rəy sorğularının nəticələri Paşinyanın seçkidə qalib gələcəyindən xəbər verir. 7 iyun seçkilərində "Mülki müqavilə"yə müxalif qüvvələrin qalib gəlmək ehtimalını reallıqdan uzaq hesab edirəm. Amma seçkinin nəticələri elan edildikdən sonra qarşıdurmanın, çaxnaşmanın başlanması heç də istisna deyil. Seçkidə uduzan müxalif qüvvələrin səsvermə prosesində saxtakarlığa yol verildiyi iddiasını irəli sürmələri gözləniləndir. Bu hal baş verərsə, hadisələrdə Rusiyanın iştirak payını hiss edəcəyik. Polis və ordunun baş nazirin tərəfində olduğunu söyləyə bilərik, amma hər hansı gözlənilməz ssenarinin işə düşməsi ehtimalı da mümkündür".

*

Ermənistan baş nazirinin avrointeqrasiya ilə bağlı siyasi ideyası "Avropaya qaçmaq" deyil, daha çox, bütün postsovet dövründə erməni millətinin ideologiyası olmuş və Azərbaycanla müharibədə sarsıdıcı məğlubiyyətə uğramış "Qarabağ ideyası"nı effektiv şəkildə əvəz etmək cəhdidir. Paşinyan köhnəlmiş "miatsum" şüarlarına qayıtmaq əvəzinə, "bir az da Avropaya" çevrilməyə çağırır.

Rusiya isə özünü arzuladığı yeni hərbi qarşıdurmada Ermənistanı "xilas etməyə qadir" yeganə dövlət kimi aparır. Beləliklə, Moskva İrəvanı "idarəolunan rejimə" qaytarmaq və onu 2018-ə qədərki axarına salmaq istəyir. Paradoksal səslənsə də, Cənubi Qafqazda maraqlarından vaz keçməyən Rusiyadan ötrü Ermənistanın tam suverenliyinə qovuşması fəlakətdir. Çünki bu fakt regionda qüvvələr balansını əhəmiyyətli dərəcədə dəyişdirəcək.

Nikol Paşinyanın bu günlərdə dediyi sözlər qarşıdakı dəyişikliyin xarakterini göstərir: "Əminəm ki, biz Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasına nail olacağıq, bu isə o deməkdir ki, xarici siyasətin balanslaşdırılması prosesi başa çatacaq və bu, Ermənistan üçün yeni imkanlar yaradacaq".

*İmran BƏDİRXANLI*
*XQ*

# Xarici İşlər Nazirliyində görüşlər



**İyunun 1-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ Dövlət katibinin iqtisadi, enerji və biznes məsələləri üzrə köməkçisi Kaleb Orrun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan-ABŞ münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya əlaqələri, investisiyalar, ticarət, eləcə də regional gündəliyin qarşılıqlı maraq doğuran məsələləri müzakirə olunub.

Tərəflər Azərbaycan ilə ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq Xartiyasına uyğun olaraq qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar. İlk iclası keçiriləcək Azərbaycan-ABŞ İqtisadi Dialoqunun əməkdaşlıq əlaqələrinin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığı qeyd olunub.

Nazir Ceyhun Bayramov ölkəmizin əlverişli investisiya mühiti, regional bağlantı layihələri və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən təşəbbüslər barədə məlumat verib.

Görüşdə, ötən ilin avqust ayında Vaşinqton sammiti çərçivəsində əldə edilmiş tarixi razılaşmalardan sonra regionda mövcud vəziyyət və əhəmiyyətli irəliləyişlər, habelə kommunikasiya xətlərinin açılması, TRIPP layihəsinin icrası məsələləri müzakirə olunub.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

*

**Həmin gün Azərbaycan Respublikası xarici işlər nazirinin müavini və Azərbaycan–ABŞ Strateji İşçi Qrupunun həmsədri Elnur Məmmədov ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini və ABŞ tərəfindən Strateji İşçi Qrupun həmsədri Sonata Koulterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərin inkişafına həsr olunmuş görüşdə ABŞ-Azərbaycan Strateji Tərəfdaşlıq Xartiyası çərçivəsində əməkdaşlıq perspektivləri, iqtisadi əlaqələrin genişləndirilməsi, enerji təhlükəsizliyi, regional bağlantılar və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Tərəflər strateji tərəfdaşlığın möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıb və iyunun 2-də Bakıda keçiriləcək Azərbaycan-ABŞ İqtisadi Dialoqunun ilk iclasının ikitərəfli əməkdaşlığın inkişafına əlavə töhfə verəcəyini qeyd ediblər.

Bundan əlavə, görüşdə iqtisadi və ticari əlaqələrin dərinləşdirilməsi, enerji və nəqliyyat sahələrində əməkdaşlığın genişləndirilməsi, eləcə də regional sabitlik və rifahın təşviqi istiqamətində dialoqu davam etdirmək niyyəti ifadə olunub.

*XQ*

# Qlobal enerji mənzərəsi yenidən formalaşır



**Bu gün tək bir mənbəyə, marşruta və ya bazara güvənmək artıq dayanıqlı bir strategiya deyil. Artan geosiyasi gərginliklər, enerji bazarlarındakı dəyişkənlik, təchizat zəncirindəki fasilələr, elektrikləşmənin sürətlənməsi və yaşıl keçid qlobal enerji mənzərəsini əhəmiyyətli dərəcədə yenidən formalaşdırır.**

Bu sözləri energetika naziri Pərviz Şahbazov D-8 Üzv Dövlətlərinin Enerji Nazirlərinin I görüşündə çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bu yeni geosiyasi kontekstdə enerji siyasətlərinin şaxələndirilməsi, yeni bazarlara genişlənmə və yeni tərəfdaşlıqların formalaşdırılması dövlətlərin strateji dayanıqlılığını gücləndirmək üçün vacibdir.

"Azərbaycan neft-qazdan tutmuş, elektrik və yaşıl enerjiyə qədər regional enerji dəhlizlərini inkişaf etdirərkən enerji təhlükəsizliyi ilə enerji keçidi arasında tarazlı yanaşmanı ardıcıl olaraq həyata keçirir. Eyni zamanda, ölkə strateji qitələrarası enerji və tranzit qovşağına çevrilir. Bakı-Tbilisi-Ceyhan neft kəməri, TANAP və TAP kimi strateji qaz dəhlizləri vasitəsilə Azərbaycan uzun müddətdir ki, regional və Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır və indi bu rolu Cənubi Qafqaz, Mərkəzi Asiya, Türkiyə və Avropa arasında yaşıl enerji dəhlizləri vasitəsilə daha da genişləndirir", – deyə o nəzərə çatdırıb.

*XQ*

# Mərkəzi Asiya–Azərbaycan Yaşıl Enerji Dəhlizinin regionlararası əməkdaşlığa töhfəsi

**"Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" layihəsi regionlararası enerji əməkdaşlığının yeni mərhələsini formalaşdırır.**

Bunu energetika naziri Pərviz Şahbazov Bakı Enerji Forumu çərçivəsində keçirilən "Nazirlər arasında dialoq: Asiyada bərpaolunan enerji mənbələrinə əsaslanan enerji keçidi" mövzusundakı panel müzakirələrdə çıxışı zamanı deyib.

"Regionda enerji əməkdaşlığı istiqamətində artıq konkret və strateji əhəmiyyət daşıyan layihələr həyata keçirilir. Onlardan ən mühümlərindən biri "Mərkəzi Asiya-Azərbaycan Yaşıl Enerji Dəhlizi" təşəbbüsüdür. Ölkələrimizin nümayiş etdirdiyi siyasi iradə və uzunmüddətli baxış startegiyası sayəsində iki il əvvəl Bakıda strateji tərəfdaşlıq sənədi imzalanıb. Azərbaycan və Qazaxıstan prezidentlərinin dəstəyi ilə yürüdülən bu təşəbbüs regionlararası enerji əməkdaşlığının yeni mərhələsini formalaşdırır. Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığın inkişafı bu prosesdə mühüm yer tutur. Azərbaycan Prezidenti İlham Əliyevin baxışına uyğun olaraq, Cənubi Qafqaz və Mərkəzi Asiya vahid strateji məkan kimi nəzərdən keçirilir. Trans-Xəzər enerji dəhlizlərinin inkişafı ölkələrimizin enerji sistemlərini birləşdirərək daha geniş regional inteqrasiyaya xidmət edir. Eyni zamanda, bu layihələr Orta Dəhlizin inkişafına da mühüm töhfə verir. Orta Dəhliz Avropa ilə Asiyanı, o cümlədən Çini Xəzər dənizi üzərindən birləşdirən strateji əlaqə xəttinə çevrilir. Yaşıl enerji dəhlizləri bu marşrutun iqtisadi və geosiyasi əhəmiyyətini daha da artırır", – deyə nazir qeyd edib.

O bildirib ki, bu istiqamətdə artıq institusional mexanizmlər formalaşdırılıb: "Layihənin koordinasiyası üçün xüsusi ofis yaradılıb, Asiya İnkişaf Bankı və İslam İnkişaf Bankının dəstəyi ilə ilkin texniki-iqtisadi araşdırmalar həyata keçirilməyə başlanıb. Regional tərəfdaşlıq əsasında inkişaf etdirilən bu təşəbbüslər strateji əhəmiyyətli layihələrin reallaşdırılmasına mühüm töhfə verir".

*XQ*

# Ümummilli liderin dövlətçilik dərsləri

**Tez-tez keçmişə nəzər salır, dahi şəxsiyyətləri, görkəmli insanları xatırlayır, onların taleyi, həyatı barədə düşünürəm. "Nə üçün bu insanlar əzab-əziyyətlərə, məhrumiyyətlərə qatlaşaraq həyatlarını xalqın yolunda qurban vermişlər" sualı ilə hər dəfə qarşılaşanda fikirlərim haçalanır, gözlərimin qarşısında müxtəlif mənzərələr, fikrimdə yeni suallar yaranır: Görəsən Babək, Koroğlu, Şah İsmayıl öz qılıncı, şücaəti, Nizami, Füzuli, Nəsimi, Sabir, Mirzə Cəlil, Səməd Vurğun qələmi, sözü, Dədə Qorqud, Ələsgər sazı, Üzeyir bəy, Qara Qarayev, Arif Məlikov musiqisi, N.Nərimanov, Rəsulzadə cəfakeşliyi, Heydər Əliyev böyük, müdrik siyasəti ilə xalqını, Vətənini ucaltmağa çalışarkən Azərbaycanın belə xoşbəxt, azad, suveren olacağını zənn edirdilərmi? Bu günümüzə, torpaqlarımızın tam azadlığına əmin idilərmi?"**

Sualın cavabını tarix özü verir: "Bəli əmin idilər, bu günümüzə inanırdılar və məhz buna görə mübarizə aparır, həyatlarını qurban verirdilər".

Bu dahi şəxsiyyətlərin, onların timsalında Azərbaycanın gələcəyi üçün əməyi olan hər insanı peşəsindən, vəzifəsindən, dilindən, dinindən asılı olmayaraq bir amal, bir məqsəd birləşdirir. Bu, Vətən, torpaq, xalq sevgisidir, insana məhəbbət, nəslə, kökə sədaqət və hörmətdir.

Ulu öndərimiz Heydər Əliyev dönə-dönə xatırladırdı: "Tarix heç nəyi silmir. Tarix həmişə hər şeyi öz yerinə qoyur". Əlbəttə belədir, tarix həm də Vətəninin, xalqının, torpağının uğrunda mübarizə aparanları unutmur, onları əbədiləşdirir, əsrlər boyu yaşadır. Heydər Əliyev tarixləşən, əbədiləşən, heç vaxt unudulmayan, daim xatırlanan, böyük hörmət və ehtiramla yad edilən insanların ön sırasındadır.

Əməkdar mədəniyyət işçisi, tanınmış jurnalist, uzun illər Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) rəhbərlik etmiş, dövlət ordenləri və mükafatlarına layiq görülmüş Aslan Aslanovun qələmə aldığı "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" kitabında Ulu öndərimizin əbədiyaşar bir ömrə sahib olmasından bəhs edir və ölməz rəhbərə sonsuz məhəbbətin əyani ifadəsidir.

Ümummilli liderimizin xarici ölkələrdə, respublikamızda keçirdiyi görüşlərin, danışıqların uzun illər iştirakçısı olan və həmin tədbirləri işıqlandıran, həm də Ulu öndərimiz tərəfindən həmişə dəyərləndirilən müəllif bu kitabı yazmaqla unudulmaz liderimizə sonsuz ehtiramını bir daha bildirmiş, öz borcunu qaytarmağa çalışmışdır.

A.Aslanov "Heydər Əliyev və AZƏRTAC", "AZƏRTAC-dan AZƏRTAC-a mürəkkəb və sərfəli yol", "AZƏRTAC-90", "Dövlət siyasətinin informasiya təminatı", "Media və zamanın çağırışları" kitablarında olduğu kimi, bu kitabında da Heydər Əliyevin siyasi fəaliyyətini, dövlət quruculuğu və idarəetmə prinsiplərini, milli-mənəvi dəyərlərə əsaslanan baxışlarını, insana qayğı və diqqətini, bəşəri ideyalara sadiqliyini bir müşahidəçi, jurnalist kimi fikir süzgəcindən keçirərək maraqlı, oxunaqlı bir əsər yaratmışdır.

"Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" kitabı bu mövzuya həsr olunan birinci kitab olmaqla 1993-1995-ci illərdə ölkədə baş verən hadisələri, gərgin anları özündə əks etdirir və müəllifin bilavasitə şəxsi münasibətlərinin və xatirələrinin əksi olduğu üçün səciyyəvidir. Kitabdakı faktlar, hadisələr, müşahidələr canlı, real olduğuna görə Ulu öndərimizin dövlətçilik və siyasi irsinin öyrənilməsi, təşviq edilməsi baxımından çox əhəmiyyətlidir.

1993–95-ci illər Azərbaycan tarixinin ən ziddiyyətli, mürəkkəb ictimai-siyasi dövrüdür. SSRİ-nin süqutundan sonra Azərbaycan öz müstəqilliyini qazanmasına baxmayaraq, xarici və daxili qüvvələrin təsiri nəticəsində ölkədə baş alıb gedən özbaşınalıq, qarşıdurmalar, idarəetmədə səriştəsizlik, torpaqlarımızın erməni təcavüzkarları tərəfindən işğalı respublikanı çətin, çıxılmaz vəziyyətə salmışdı.

Sosial, siyasi, iqtisadi, hüquqi və ideoloji sahələrdə xaosun hökm sürdüyü belə bir dövrdə xalqın təkidi və tələbi ilə Heydər Əliyev kimi müdrik siyasətçinin, yüksək idarəetmə qabiliyyətinə, dövlətçilik ənənələrinə, diplomatiyada ustalığa malik şəxsiyyətin hakimiyyətə gətirilməsi dövrün tələbi idi. Həmin çətin, mürəkkəb ictimai-siyasi dövrdə, 1993-cü ilin 15 iyununda Ulu öndərimiz yenidən hakimiyyətə gəlməsəydi, əlbəttə, respublikamızın bugünkü xoşbəxt günlərindən danışmaq mümkün deyildi.

Kitabın dövlətçiliyimizin məhz həmin mürəkkəb dövrünə həsr edilməsi, müəllifin o dövrlərdə Heydər Əliyev tərəfindən həyata keçirilən tədbirlərdə, xarici səfərlərdə, görüşlərdə bir jurnalist kimi bilavasitə iştirakı və həmin hadisələri işıqlandırması, düşüncələrinə həkk etməsi, xronoloji ardıcıllıqla verilməsi onun təsir dairəsini xeyli genişləndirir və oxucuda ətraflı təsəvvür yaradır.

Kitabda hər birimizi düşündürən və gələcək nəsillərə nümunə olacaq faktlar çoxdur. A.Aslanov diqqəti ilk olaraq Heydər Əliyevin 1993-cü ilin iyununda Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri ilə görüşünə yönəldir: "Heydər Əliyev ətrafındakılarla birlikdə İsmailiyyənin geniş pilləkənləri ilə yuxarı qalxdı. ABŞ-ın, Böyük Britaniyanın Azərbaycandakı səfirləri onu böyük hörmət və rəğbətlə qarşıladılar".

Müəllif yazır ki, Ulu öndərimizin səsi indi də qulaqlarımda əks-səda verir: "Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Azərbaycanda vəziyyət çox gərgindir, ölkə vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qalıb, hər gün qan tökülür. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin torpaqlarımızı işğal etməsi, digər tərəfdən daxili çəkişmələr ölkəni ağır vəziyyətə salıb. Biz BMT Təhlükəsizlik Şurasının, böyük dövlətlərin və bütün beynəlxalq təşkilatların Azərbaycanı müharibə şəraitindən çıxarmaq, işğal olunmuş torpaqlarını geri qaytarmaq üçün səylərini artırmasını istəyirik".

Sonra Heydər Əliyev Türkiyənin Azərbaycandakı səfirliyinə gedir. Sonrakı görüşlər, çıxışlar və bir neçə gündən sonra – iyunun 15-də Heydər Əliyev Milli Məclisin sədri seçilir. Göstərilən etimada görə minnətdarlığını bildirən Ulu öndərimiz qətiyyətlə deyirdi: "Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm".

Ürəkdən gələn, çağırış, bəyanat sədalı bu ifadələrdə həm dövrə, zamana, ədalətsizliyə, təcavüzə bir etiraz, həm də gələcəyə böyük inam var. Heydər Əliyev məhz bu bəyanatları, qətiyyətli etirazları, düşmənə, ədalətsizliyə nifrəti, eləcə də Azərbaycanın gələcəyinə, müstəqilliyinə, dövlətçiliyinə inamı, etibarı, sədaqəti ilə böyük insan, lider idi.




Kitabda Heydər Əliyevin 1969-1982-ci ildə Azərbaycana rəhbərlik etdiyi illərə də ekskurs edilir, gördüyü möhtəşəm işlər nəzərə çatdırılır, İran İslam Respublikasının Prezidenti Əkbər Haşimi – Rədsəncaninin ölkəmizə səfəri, Ulu öndərimizin Fransaya, Türkiyəyə, Böyük Britaniyaya, Çin Xalq Respublikasına, Brüsselə, Səudiyyə Ərəbistanına, Misir Ərəb Respublikasına, ABŞ-a, Türkmənistana, Macarıstana, Mərakeşə, İsveçrəyə, Belçikaya, Rusiyaya rəsmi səfərləri, xaricdə və ölkə də keçirdiyi çoxsaylı görüşləri, mühüm tədbirlər, əsrin müqaviləsinin bağlanması, beynəlxalq tədbirlər haqqında məlumatlar, çıxışlar haqqında şərhlər yer almışdır və çox yaxşı haldır ki, bu tarixlər, illər xronoloji ardıcıllıqla əks olunmuşdur.

Aslan Aslanov bu çoxsaylı görüşlərin hər anının, saatının qiymətli olduğunun təəssüratını yaratmaqla bir daha göstərir ki, həmin çətin dövrlərdə Ulu öndərimiz hər vasitədən, hər andan istifadə edərək ölkəni düşdüyü çətin vəziyyətdən çıxarmağa, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmağa çalışırdı.

Heydər Əliyevin Prezident seçildikdən sonra ilk rəsmi səfərini erməni lobbisinin təsir dairəsində olan Fransaya etməsi bu baxımdan səbəbsiz deyildi. Kitabda göstərilir: "Yenisey Sarayında imzalanmış dostluq, qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında müqaviləni Azərbaycan üçün beynəlxalq münasibətlərdə yeni mərhələ adlandıran Heydər Əliyev vurğuladı ki, biz Azərbaycan-Fransa uzunmüddətli əməkdaşlığının əsasını qoyduq, cəmi iki il əvvəl dövlət müstəqilliyi əldə etmiş respublikamız üçün bu, mühüm tarixi hadisədir".

O dövrdə Ulu öndərimiz sözsüz ki, Fransanın ermənipərəst mövqeyini, erməni lobbisinin nəyə qadir olduğunu yaxşı bilirdi. Ancaq iki ölkə arasında imzalanmış sənədlər Fransua Mitteranın Heydər Əliyev, dövlətimiz haqqında dediyi sözlər erməniləri xeyli neytrallaşdırdı. Bu, dövlətimizin rəhbərinin uzaqgörən siyasətinin ifadəsi idi.

Bu səfərlərin, görüşlərin bilavasitə iştirakçısı olan və onu informasiya vasitəsi ilə çatdıran müəllif hər bir cümləsində Heydər Əliyevin öz xalqı, Vətəni naminə etdiyi siyasi, diplomatik gedişləri ön plana çəkməyə cəhd etmişdir. O bildirir ki, bu səfərlərin, görüşlərin əsas mövzusu Azərbaycanın düşdüyü çətin vəziyyət, torpaqlarımızın işğal altında, Ermənistanın təcavüzkarlığı və bu vəziyyətdən çıxış yollarının axtarılması, dünya ölkələrinin diqqətinin dövlətimizə cəlb edilməsi idi.

Ulu öndər hər bir səfər, görüş zamanı Qarabağ məsələsini ön plana çəkir, xəritə qarşısında dövlət rəhbərlərinə, beynəlxalq təşkilatlara, siyasi xadimlərə məlumatlar verir, əslində, dərs keçir və ədalətsizliyə qarşı qətiyyətlə səsini ucaldırdı. Birləşmiş Millətlər Təşkilatının tribunasında, NATO Şurasının tədbirlərində, beynəlxalq təşkilatların tədbirlərində ucaldılan bu səs Azərbaycanın müstəqilliyinə, suverenliyinə, torpaqlarımızın azadlığına və əlbəttə ki, bu günümüzə xidmət edirdi.

Azərbaycanın dövlətçilik tarixi qədim olduğu qədər də keşməkeşlidir. Dövlətimiz, xalqımız müstəqillik yolunda ağır sınaqlardan, çətin yollardan keçmişdir. Ancaq uzun illər dayanıqlı dövlət kimi formalaşa bilməmişdir. Keçən əsrin sonlarında müstəqilliyini yenidən bərpa edən Azərbaycan onu yenidən itirmək təhlükəsi qarşısında qalarkən köməyə çatan, xalqı və Vətəni ağır bəlalardan qurtaran, xilaskar missiyasını üzərinə götürən məhz Heydər Əliyev oldu.

Müstəqil, güclü, inkişaf edən, dayanıqlı, müasir, hüquqi dövlət formalaşdırmaq, dünyaya yeni, çiçəklənən bir Azərbaycan bəxş etmək Heydər Əliyevin amalı idi. O, dövlətçilik ənənələrinə, milli düşüncə, mənlik amillərinə, bəşəri dəyərlərə sadiq olaraq siyasi iradəsi, sarsılmaz qətiyyəti və dərin strateji baxışları, uzaqgörən liderlik, güclü idarəçilik bacarığı ilə yeni bir Azərbaycan qura bildi, onun müstəqilliyini qoruyub saxlamağı bacardı.

A.Aslanovun kitabında bu dəyərlər, amallar yüksək qiymətləndirilir və gözlərimiz qarşısında böyük bir insanın, əvəzsiz liderin, dünya şöhrətli siyasətçinin, ölməz rəhbərin, müstəqilliyimizin və dövlətçiliyimizin banisinin – Heydər Əliyevin canlı obrazı ucalır. Bu ucalıqda müstəqil, torpaqları azad, dünyada tanınan bir Azərbaycan var – dövlətçiliyi Ulu öndərimizin amalları, əməlləri ilə formalaşan və Prezidentimiz cənab İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində daha da şöhrətlənən, dünyada tanınan və sözünü deməyə qadir bir Azərbaycan.

Heydər Əliyev ideyalarından güc alan, İlham Əliyevin əməlləri ilə inkişaf edən, torpaqları azad, tam suveren, qalib, dünyanın diqqət mərkəzində olan Azərbaycan bu gün ən möhtəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir, mötəbər görüşlərin, danışıqların təşkilatçısı, iştirakçısıdır. İşğaldan azad edilmiş torpaqlarında yeni şəhərlər, kəndlər salınır, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, yaşayış binaları tikilir, körpülər, yollar çəkilir, təyyarə limanları, xidmət obyektləri istifadəyə verilir.

Bu uğurlar xalqla Prezidentin birliyinin, vətəndaş həmrəyliyinin bəhrəsi olmaqla, əlbəttə ki, Ulu öndərimizin amallarından qaynaqlanır, vüsət alır. Bu nailiyyətlər haqqında çox yazılsa da, ancaq yenə də yeni-yeni kitabların mövzusudur. Əmin etmək olar ki, Aslan Aslanovun "Heydər Əliyevin dövlətçilik və diplomatiya dərsləri" birinci kitabının davamı olacaq və Ulu öndərimizin çoxsahəli, dərin siyasi və dövlətçilik irsinin öyrənilməsi üçün vacib olan yeni nəşrlər ərsəyə gələcəkdir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# İqtisadi arqument, yoxsa siyasi təzyiq?

## Moskvanın İrəvana enerji mesajının açması

**Ermənistanın Avropa İttifaqına (Aİ) yaxınlaşma cəhdləri Rusiyanın narazılığı ilə qarşılanır. Rusiyanın energetika naziri Sergey Tsivilyov qeyd edib ki, Ermənistan iqtisadiyyatının son illərdəki artımında ölkəsindən idxal olunan ucuz enerji resursları rol oynayıb. Moskva hesab edir ki, İrəvanın iqtisadi sabitliyi və rəqabət qabiliyyəti birbaşa Rusiya ilə inteqrasiya mexanizmlərindən asılıdır.**

Bu mövqe mayın 29-da Astanada keçirilən Avrasiya İqtisadi İttifaqının (AİI) sammitində səsləndirilib. **Rusiya Baş nazirinin müavini Aleksey Overçuk** isə



vurğulayıb ki, Ermənistanın faydalandığı iqtisadi güzəştlər və enerji sahəsindəki xüsusi şərtlər məhz AİI-yə üzvlüyünün nəticəsidir. Onun sözlərinə görə, Ermənistan hazırda 180 milyonluq ittifaq bazarına maneəsiz çıxış əldə edir və İranla azad ticarət imkanlarından yararlanır. Qərb istiqamətində buna bərabər alternativ tapmaq isə çətindir: "Avrasiya İqtisadi İttifaqından kənarda Ermənistan üçün qaz bahalı olacaq və Avropa standartlarına keçid enerji tariflərinin artması, istehsalın azalması və həyat səviyyəsinin aşağı düşməsi ilə nəticələnəcək... Biz bazarın vəziyyətindən çox yaxşı xəbərdarıq. Orada heç vaxt Rusiyadan başqa qaz olmayacaq", – deyə Overçuk vurğulayıb.

Moskva həmçinin xəbərdarlıq edib ki, Ermənistan Aİ-yə inteqrasiyanı davam etdirərsə, qaz, neft və yanacaq sahəsində mövcud güzəştli şərtlər yenidən nəzərdən keçirilə və ya ləğv oluna bilər. Şübhəsiz ki, Overçukun "Ermənistanın heç vaxt Rusiya qazından başqa qazı olmayacaq" fikri iqtisadi arqumentdən daha çox, siyasi bəyanat təsiri bağışlayır. Bir neçə il əvvəl Avropanın da Rusiya qazından asılı olduğu və bu asılılığın aradan qaldırıla bilməyəcəyi iddia edilirdi. Lakin son hadisələr göstərdi ki, siyasi iradə, investisiya və vaxt olduqda enerji marşrutlarını dəyişmək mümkündür. Əgər Rusiya qazı həqiqətən Ermənistan



üçün bu qədər sərfəli və əvəzolunmazdırsa, bunun əsas sübutu təhdidlər deyil, bazar şərtləri olmalıdır. Hər siyasi fikir ayrılığı fonunda güzəştli qiymətlərin ləğv ediləcəyi barədə xəbərdarlıqlar iqtisadi üstünlükdən daha çox siyasi təzyiq xarakteri daşıyır.

Tərəflər arasında müzakirələrin diqqətçəkən məqamlarından biri də qarşılıqlı asılılıq məsələsidir. Ermənistanın enerji sistemində Rusiyanın rolu böyük olsa da, münasibətlər birtərəfli xarakter daşımır. Bu gün "Gazprom" Ermənistanın qaz infrastrukturunun əsas hissəsinə nəzarət edir və ölkə bazarından ciddi gəlir əldə edir. Buna görə də münasibətlərin pisləşməsi təkcə Ermənistan üçün deyil, Rusiyanın iqtisadi maraqları baxımından da müəyyən risklər yarada bilər.

Bundan əlavə, Ermənistanın iqtisadi göstəricilərində enerji resursları mühüm rol oynasa da, iqtisadi artımın əsas mənbələri arasında xidmət sektoru, informasiya texnologiyaları, turizm, ticarət, investisiyalar və xaricdən daxil olan maliyyə axınları da yer alır. Bu səbəbdən ölkənin bütün iqtisadi uğurlarını yalnız enerji qiymətləri ilə əlaqələndirmək doğru yanaşma hesab edilə bilməz. Deməli, əməkdaşlığın mümkün pozulması yalnız bir tərəfin ziyanına deyil, qarşılıqlı təsir effekti yarada bilər.

Müzakirələrin digər mühüm istiqaməti qazın qiyməti məsələsidir. Ermənistan tərəfinin arqumentlərinə görə, ölkənin qazı 170 dollara aldığı barədə tez-tez səsləndirilən rəqəm son istehlakçının ödədiyi real tarifi əks etdirmir. Qazın qiyməti ətrafında gedən mübahisələr bu diskussiyanın diqqətçəkən məqamlarındandır. Bu barədə Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan bildirib: "Biz qazı 170 dollara almırıq... Deyirlər ki, qazı Avropaya 600 dollara satırlar, amma bizə 170 dollara. Əvvəla, orada 600 dollar deyil, daha aşağıdır, indi 450 dollardır... və burada, üzr istəyirəm, 170 dollar deyil, 350 dollardır. Bəli, 350 ilə 450 dollar arasında fərq var, amma 600 ilə 170 dollar arasındakı fərq deyil". Bu baxımdan Ermənistanla Avropa bazarları arasındakı qiymət fərqinin təqdim edildiyi qədər böyük olmadığı bildirilir.

Bütün bunlar göstərir ki, Ermənistanın qarşısında təkcə enerji seçimi deyil, həm də geosiyasi seçim dayanır. Bir tərəfdə Rusiya ilə formalaşmış iqtisadi və enerji əlaqələri, digər tərəfdə isə Avropa ilə daha sıx inteqrasiya perspektivi mövcuddur. Hazırda bu iki istiqamət arasında balans yaratmağa çalışan İrəvan üçün əsas məsələ qısamüddətli iqtisadi risklərlə uzunmüddətli strateji hədəflər arasında seçim etməkdir. Məhz buna görə də Ermənistanın enerji təhlükəsizliyi, Avrasiya İqtisadi İttifaqındakı gələcəyi və Avropa ilə münasibətləri ətrafında müzakirələrin yaxın dövrdə daha da intensivləşəcəyi gözlənilir.

Bununla bağlı Ermənistanın Baş naziri Nikol Paşinyan hələ də Rusiyanın tələb etdiyi referendumdan imtina edir. "Ermənistan rəsmi olaraq Aİ üzvlüyünə müraciət edənə və ya Aİ namizədi statusuna yaxınlaşana qədər hər hansı referendum keçirmək məntiqsizdir, çünki bunun üçün heç bir əsas yoxdur", – deyə Nikol Paşinyan bildirib. Onun sözlərinə görə, Ermənistan mümkün qədər, yəni Aİ namizədi statusunun alınması üçün rəsmi prosedurlar başlayana qədər Avrasiya İqtisadi İttifaqında qalacaq.

Bəs Azərbaycan qazı alternativ ola bilərmi? Bununla bağlı **iqtisadçı-ekspert Mahir Zeynalov** bildirdi ki, Ermənistana Azərbaycan qazının nəqli nəzəri baxımdan mümkün olsa da, mövcud siyasi və infrastruktur reallıqları fonunda bunun yaxın perspektivdə reallaşma ehtimalı yüksək görünmür. Bununla belə, bu ssenarini tamamilə istisna etmək də doğru olmaz: "Hazırda Ermənistanın qaz infrastrukturu, əsasən, "Gazprom"un nəzarətindədir. Bu amil alternativ mənbələrin bazara daxil olmasını həm iqtisadi, həm də siyasi baxımdan çətinləşdirir. Bundan əlavə, ölkənin enerji sisteminin uzun illər Rusiya qazına inteqrasiya olunması qısamüddətli dövrdə başqa mənbəyə keçidi mürəkkəbləşdirir".

Ekspert hesab edir ki, regional kommunikasiyaların açılması və sülh prosesinin uğurla nəticələnməsi halında Azərbaycan qazının Ermənistana satılması həm iqtisadi, həm də siyasi baxımdan məntiqli variantlardan biridir: "Bu halda Ermənistan enerji mənbələrini şaxələndirər, Azərbaycan isə yeni bazar əldə edər. Eyni zamanda, belə əməkdaşlıq regionda qarşılıqlı asılılığı artıraraq uzunmüddətli sabitliyə töhfə verər".



Beləliklə, Azərbaycan qazının Ermənistana nəqli həm texniki, həm də iqtisadi baxımdan mümkün görünür. Lakin bu ssenarinin reallaşması ilk növbədə siyasi qərarlardan, Bakı-İrəvan münasibətlərinin normallaşmasından və regionda sabit təhlükəsizlik mühitinin formalaşmasından asılıdır. Ermənistanın enerji mənbələrini şaxələndirmək istəyi gələcəkdə Azərbaycan qazına marağı artıra bilər, lakin mövcud siyasi reallıqlar belə bir əməkdaşlığın yaxın perspektivdə mümkün olmadığını göstərir. Bu səbəbdən məsələ hazırda daha çox orta və uzunmüddətli perspektivdə nəzərdən keçirilən ehtimal kimi qiymətləndirilir. Enerji əməkdaşlığı isə gələcəkdə tərəflər arasında iqtisadi əlaqələrin genişlənməsinə və regional inteqrasiyaya töhfə verə biləcək amillərdən biri hesab olunur.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# WUF13: şəhərsalma və memarlıq ənənəsi kontekstində



**II MƏQALƏ**

## Şəhərsalma və memarlıq ənənəsi

Azərbaycanın qədimdən sivilizasiyalar, mədəniyyətlər və dinlərin birgə var olması məqamı yalnız unikal coğrafi anlam kəsb etmir – o, həm də tarixi-mədəni məna çalarlarına malikdir. Çünki hər hansı qövmün mədəniyyət və sivilizasiya konteksti onun kollektiv səviyyədə mövcudluğunun sosial, siyasi, mədəni, ekzistensial, demoqrafik, dövlətçilik və digər özəllikləri ilə sıx bağlıdır. Bu baxımdan Azərbaycan yalnız indiki Azərbaycan Respublikasının yerləşdiyi coğrafi məkanla məhdudlaşan tarixi-mədəni, siyasi və geosiyasi kimliyə malik deyildir – onun nüfuz dairəsi çox geniş coğrafiyanı əhatə etməkdədir.

O cümlədən şəhərsalma və memarlıq ənənəsi Avropadan başlamış Uzaq Şərqə qədər uzanan ucsuz-bucaqsız coğrafiyada özünü təsdiq etməkdədir. Azərbaycan "Turan elləri" adlanan tarixi, siyasi, geosiyasi və mədəni məkanın qəlbidir. Tarixçilər təsdiq edirlər ki, "Turan mədəniyyət mühiti" həm çox geniş coğrafiyanı əhatə edir, həm də onun Avropa mədəniyyət mühitinə ciddi təsirləri olmuşdur.

Bu tezisi J.Darkonun (yunan filoloqu – XX əsr), O.Menginin (Avstriya tarixşünası – XX əsr), U.Kuppersin (alman-Avstriya etnoloqu – XX əsr), G.Gontandonun (fransız etnoloqu – XX əsr) və onlarla digər araşdırmaçıların əsərlərində görmək olur. Onlar türklərin geniş ərazidə yaratdıqları mədəniyyət mühitinin davamlı olaraq ətraf mədəniyyət çevrələrinə müsbət təsir etdiyini və bütövlükdə "savaşçı çobanlar" ("hirtenkrieger") çöl mədəniyyəti formasında müasir dünya mədəniyyətinin təməlində durduğunu yazırlar.

Bu proses həm hərb mədəniyyətini, həm də bütövlükdə toplumun mədəniyyətinin fundamental aspektlərini əhatə edir. Bu bağlılıqda Azərbaycanda şəhərləşmə və memarlıq ənənəsinin bir sıra özəlliklərinə qısaca nəzər salmaq WUF13-ün Azərbaycanda təşkilinin tarixi-mədəni və siyasi əsaslılığına aydınlıq gətirir.

## Azərbaycan şəhərlərində mədəni inkişaf

Azərbaycan şəhərləri deyəndə Bakı, Ərdəbil, Təbriz, Naxçıvan, Xoy, Şamaxı, Marağa, Urmiya, Qazax, Quba, Lənkəran, Bərdə, Ağdam və onlarla digər şəhərlər göz önündə canlanır. Bundan başqa, qədimdən ümumiyyətlə, Azərbaycan coğrafiyasında yaranmış, keşməkeşli tarixi yaşamış yüzlərlə şəhər mövcud olmuşdur. Azərbaycan toplumunun formalaşma mədəniyyəti onları tarixi zamandan asılı olmayaraq əsas dəyərlər ətrafında birləşdirmişdir.

Azərbaycanın şəhərləşmə fəlsəfəsinin bünövrəsində bu möhtəşəm "kültür faktorları", yəni toplumun sosial kimliyi ilə onun konkret zaman-məkan vəhdətinə proyeksiyası olan mədəniyyət və mentalitet identikliyinin sintezi dayanır.

Həmin sintez şəhərləşmə mədəniyyətində başlıca olaraq 3 hüquq – hökmdar Qanunu (və ya hüququ), parlament Qanunu (və ya Divan hüququ) və türk toplumunun özünütəşkiletmə Qanunu (və ya Yosun hüququ) yer almışdır. Bu prosesin tarixi çox dərin və genişdir ki, burada üzərində dayanmaq imkansızdır.

Ancaq şəhərləşmə və memarlıq sənətinin münasibətləri kontekstində vurğulayaq ki, türklər tarix boyu həmin hüquq-qanun vəhdəti əsasında həm adi həyat tərzlərini yaratmış və tənzimləmiş, həm də mədəni inkişafda, dövlət quruculuğunda onlara söykənmişlər. Türklərin demoqrafik və sosial olaraq özünütəşkili bütövlükdə toplumun mərkəzi faktoru rolunu oynamışdır. Bununla türk qövmu daim kollektivləşmədə tarixi, mədəni, siyasi, demoqrafik, dizayn və digər faktorlara dəqiq işlənmiş mədəniyyət sistemində məna vermiş, onları dəyərləşdirmiş və inkişaf etdirmişlər.

Burada Azərbaycan şəhərləri üçün xarakterik olan bir məqamı vurğulamaq WUF13 kontekstində maraqlı olardı. Qədimdən Azərbaycan şəhərlərinin strukturunda və funksional özəlliklərində şəhərin məkan olaraq dizaynı ilə sosial, iqtisadi, siyasi xüsusiyyətləri mədəniyyətin özünəməxsusluğu prizmasında əyaniləşmişdir. Bu da Azərbaycanda memarlıq məktəblərinin güclü inkişafını motivə etmişdir. Nümunələrə baxaq.

## Şəhərsalmaya elmi yanaşma

529-cu ildə Bizans imperatoru I Yustinian akademiyaları bağlayandan sonra bir neçə yunan filosofu indiki İran ərazisinə qaçdılar. Qısa müddətdə onlar geri qayıtsalar da, yunan akademik fəlsəfi-elmi ənənəsinə uyğun bir neçə akademiyanın təməlini qoydular. Sonralar bu proses bütün ərəb-müsəlman mədəniyyət arealına yayıldı.

O cümlədən Azərbaycanın mədəniyyət və siyasi-coğrafi mövcudluğu məkanında akademiyalar əsas şəhərlərdə nəinki yaradıldı, hətta onların strukturunda və funksionallığında ciddi yer tutmağa başladı. Yəni Azərbaycan şəhərləri üçün elmi institutlaşma yalnız sırf elmi proses olmadı, fundamental qatlarda şəhər həyatının və dizaynının mühüm parçası oldu. Artıq Orta əsrlərdə Ərdəbil, Təbriz, Xoy, Naxçıvan, Şamaxı, Marağa, Urmiya və digər şəhərlərdə çoxsaylı elmi mərkəzlər yaradılmışdı. Onların cəmiyyətin həyatına təsirləri getdikcə artırdı. Eyni zamanda, şəhər infrastrukturunda memarlıq şərtləri daxilində elmi mərkəzlərin məkan konfiqurasiyası inkişaf edirdi.

## Təbriz–Marağa–Naxçıvan

Nümunə kimi N.Tusinin rəsədxanasının Marağa və Təbrizin şəhər arxitekturasına təsirinə baxa bilərik. Nəsirəddin Tusinin təşkil etdiyi Akademiyanın Rəyasət Heyəti Təbriz şəhərində yerləşirdi. Mənbələrin yazdığına görə, burada müasir elm və təhsil ocaqlarının infrastrukturu üçün əsas olan bütün memarlıq və fəaliyyət göstərmək məkanının elementləri vardı. Müəllimlərin işləməsi, istirahəti, gəzintisi, tələbələrin yaşaması, kitabxanası, təhsil alma məkanları, müəyyən vəsaitlə təmin olunmaları və digər infrastruktur komponentləri N.Tusi rəsədxanasına daxil idi.

Onu vurğulayaq ki, Marağadakı elmi mühit bütövlükdə Azərbaycana yayılmışdı. XI əsrdə Naxçıvan-Marağa memarlıq məktəbinin meydana gəlməsi təsadüfi deyildi. Əcəmi Naxçıvani həmin məktəbin görkəmli nümayəndəsi kimi dərin biliklərə sahib idi. Naxçıvan-Marağa memarlıq məktəbi həm Azərbaycanda şəhər arxitekturasının formalaşmasının elmi əsaslara malik olduğunu göstərir, həm də tarixçilərin vurğuladıqları "Turan kültür mühiti"nin yayılması və inkişafının fəlsəfi-elmi dərki baxımından mühüm faktdır.

XIII əsrdə Azərbaycan tarixçisi və məşhur həkimi Rəşidəddin Təbrizdə Elmlər Akademiyası yaratmışdır. Çindən, Misirdən, Hindistandan və Qərb ölkələrindən gəlmiş mütəxəssislər həmin Akademiyada çalışırdı. "Bu Akademiyanın idarələrinin hamısı Təbrizin yaxınlığındakı "Rübe-Rəşidi" ("Rəşidi kvadratı") adlanan ərazidə yerləşirdi". Mənbə bütövlükdə Təbriz Akademiyasının infrastrukturunu aşağıdakı kimi təsvir edir: "Bu Akademiyanın xarabalıqları indi də həmin yerdə durur. Burada o zaman alimlər küçəsi, alimlər evi, alimlərin işləməsi üçün geniş laboratoriyalar və s. mövcud idi. Bu Akademiyada əsas yeri tibb, əczaçılıq, botanika tutmuşdur. Maraqlıdır ki, həmin Akademiyanın yaxınlığında "Fəxrabad" adlı yerdə böyük botanika bağı varmış. Orada Akademiyanın klinikalarında müalicə olunan xəstələr üçün indiki dildə desək, ekoloji cəhətdən təmiz, yüksək keyfiyyətli göy-göyərti və meyvələr becərilirmiş".

XXI əsrin ən müasir elmi mərkəzlərinin yerləşdiyi şəhərlərdəki infrastrukturla müqayisə oluna biləcək mədəniyyət-memarlıq, şəhərləşmə dizaynı hadisəsidir. Bu, sırf Azərbaycan şəhərsalma və memarlıq sənətinin sintezində meydana gəlmiş urbanik hadisədir. Təbii ki, Təbrizin şəhər kimi sonrakı urbanizasiyası və memarlıq nümunəsi olaraq inkişafında bu məqam prinsipial rol oynamalı idi. Daha geniş miqyasda isə Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin vahid zaman-məkan mövcudluğu kontekstində əsas elementlərinin formalaşmasında mühüm rol oynamış özəllikdir. Bu prosesdə bütövlükdə Turan şəhərsalma və memarlıq kültür ənənəsi ilə Azərbaycana xas incə mədəni kimliyin püxtələşməsi də ayrıca yer tutmaqdadır.

Bu bağlılıqda Rəşidəddinin Azərbaycan alimləri haqqında fikirləri yalnız qiymət vermək demək deyildi – o, bütövlükdə Azərbaycan kültür mühitinin formalaşmasında ziyalılığın, alimliyin yeri və rolunu adekvat dərk etmək baxmından da əhəmiyyətlidir. Rəşidəddin yazırdı ki, Aristotel və Platonun öz dövrləri var idi. İndi isə başqa dönəmdir. O cümlədən Azərbaycanın dahi həkimlərindən olan Mahmud ibn İlyas və Mahzabəddin Təbrizinin dövrüdür.

Elm həyatının şəhər identikliyinə orqanik daxil olmasaydı, bu cür fikirlər söyləmək mümkün deyildi. O cümlədən Təbriz həmin dövrdə dünya miqyasında təsiri olan elmi mərkəzlərdən biri idi.

## Şamaxı Akademiyası: "mədəni yaddaş"

Ömər Osman oğlu XII əsrdə Şamaxı Akademiyasını yaratmışdı. Avropalı bir səyyah orada elmlərin tədrisində dünyəviliyin xüsusi yer tutmasından heyrətə gəlmişdi. Şamaxı Akademiyasının tərkibində ciddi araşdırmalar aparılan tibbi məktəb mövcud idi. Orada xarici tədqiqatçıların da çalışdığı haqqında informasiyalar vardır.

Şəhərin infrastrukturunda da Şamaxı Akademiyası xüsusi yer almışdı. İndi Şamaxı şəhərinin yaxınlığında olan Məlhəm kəndi həmin Akademiyanın dərmanlarını hazırlayan məkan kimi Şamaxı Akademiyasının bu günümüzə gəlib çatan "mədəni yaddaşı", əlaməti, "tarixi yadigarı"dır. Ömər Osman oğlunun doğulduğu yer indi də "Dədə Günəş" adı ilə məşhurdur. Ömər Osman oğlunun təşkil etdiyi Akademiyanın nəzdində kimyaçılar da fəaliyyət göstərirdilər.

Onun təşkil etdiyi Akademiyanın tibbi şöbəsi birinci növbədə Azərbaycanda klinika tədqiqat metodlarını yaymağa başlamışdır. Deməli, həmin Akademiyada xüsusi məkanlar yaradılmışdır ki, tibb üzrə həm dərman hazırlamaq, həm də müalicə aparmaq prosesləri bir-birini tamamlamışdır. Bu da mütləq surətdə Şamaxının şəhər kimi infrastrukturunda özəl komponentlərin yaradılması demək idi.

XV-XVIII əsrlərdə Azərbaycandakı elmi mərkəzlər fəaliyyətlərini davam etdirmişdir. Həmin dövrdə Əbdürrəşid Bakuvinin elmi fəaliyyəti çox səmərəli olmuşdur. Ə.Bakuvi həm də ölkənin mədəniyyət tarixində Bakının şəhər, memarlıq və mədəniyyət məkanı kimi özəl yerinin rəmzlərindən biridir.

Şəhərsalma və urbanizasiya ənənəsində Bakı fenomeni xüsusi yer tutur. Bunun konkret tarixi və mədəni səbəbləri mövcuddur. Prezident İlham Əliyev "Azərbaycanın Xəzər nefti" (2003) monoqrafiyasında vurğulayır ki, "Köhnə Bakı, iki sıra istehkam divarları ilə əhatə olunmuş kiçik bir şəhər olan İçərişəhərdir (Daxili Şəhər). Cəmi 2000-3000 əhalisi olan bu şəhər, iki çox bahalı sıra güclü istehkam divarları, şəhər körfəzində eyni dərəcədə güclü istehkamlar və müxtəlif məqsədli, öz dövrünə görə möhtəşəm qüllələrə malik idi. Burada gözəl, özünəməxsus orta əsr memarlığı qorunub saxlanılıb. Sıx yerli əhəngdaşı unikal, dərin daş oymaları ilə bəzədilmiş memarlıq şah əsərlərinin yaradılmasına imkan verirdi. Şəhər hər birinin öz məscidləri, hamamları və karvansaraları olan məhəllələrə (məhəllələrə) bölünmüşdü. Şəhərin təpəsinin zirvəsində əzəmətli Şirvanşahlar Sarayı kompleksi yerləşirdi".

Burada dəqiq, maraqlı və tarixi aspektdə əhəmiyyəti çox olan bir təsvir-təqdimat vardır. Çünki elə məqamlar vahid kontekstdə vurğulanmışdır ki, onları bir mənzərədə birləşdirəndə İçərişəhərin həmin dövrdə malik olduğu memarlıq özəlliyi göz önündə parlayır. Məsələn, şəhərin hər məhəlləsində məscid, hamam və karvansaranın olması şəhərsalma mədəniyyəti kontekstində memarlıq ənənəsinin sintezinin bariz nümunəsidir. Urbanizasiya baxımından bu, Azərbaycan şəhərlərində dinə (məscid), ekolojiyə və ya insanların təmizliyinə (hamam) və qonaqlara, iş adamlarına, tacirlərə (karvansara) münasibətin maraqlı təzahürüdür. Bunu bütövlükdə Azərbaycanda şəhərsalma mədəniyyətinin elementi kimi qəbul etmək gərəkdir. Həmin məqam çox qabarıq şəkildə şəhərin memarlıq xüsusiyyətlərində ifadəsini tapmışdır. O, ümumilikdə, Abşeron-Bakı memarlıq məktəbinin əsas estetik özəlliklərini ifadə etməkdədir.

Əsərdəki bu təqdimatda o dövrün Bakısında şəhərsalma və memarlığın məntiqi, dizayn, zaman-məkan kompleksləşməsinin məna keçidləri ilə estetik zövqü ifadə edən keçidlər bir-birini tamamlayırlar.

Bu, bütövlükdə, Azərbaycan şəhərsalma və memarlıq ənənələrinin daxili məntiqi, semantik, estetik, fəlsəfi və predmetləşmə xüsusiyyətlərinin WUF13 kontekstində anlamı üçün çox vacibdir. Həmin fikirlərdə bütövlükdə milli mədəniyyət kontekstində şəhərsalma və memarlıq ənənəsindən müasirliyə keçid prosesində rasionallıqla estetik zövqün nisbətini adekvat dərketmənin fəlsəfəsi vardır. Bu aspekt üzərində geniş dayanmaq gərəkdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Cənubi Qafqaz regionunda cərəyan edən proseslər qlobal güclərin bölgəyə olan marağını əhəmiyyətli dərəcədə artırır. Hazırkı dövrdə dövlətlərarası əlaqələrin təməlində dayanan strateji tərəfdaşlıq münasibətləri qlobal miqyasda sabitliyin təmin olunmasında mühüm rol oynayır. London və Bakı arasındakı ikitərəfli əlaqələr də məhz qeyd olunan regional təhlükəsizlik və diplomatiya dinamikasının mühüm tərkib hissəsi kimi çıxış edir. Londonun nüfuzlu "Lancaster House" sarayında Azərbaycanın müstəqilliyinin 108-ci ildönümünə həsr olunan rəsmi qəbul zamanı səsləndirilən bəyanatlar iki dövlət arasındakı diplomatik və hərbi əməkdaşlığın keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu nümayiş etdirir. Qəbulda çıxış edən Böyük Britaniyanın müdafiə məsələləri üzrə dövlət naziri Lord Vernon Koakerin fikirləri rəsmi Londonun regiona dair strateji baxışını və Azərbaycanın regional lider roluna verdiyi böyük dəyəri aydın şəkildə ortaya qoyur.**

# London Bakının sülh təşəbbüslərini dəstəkləyir

*Azərbaycanın regional liderliyi beynəlxalq arenada təqdir olunur*




Böyük Britaniyanın müdafiə nazirinin bəyanatında yer alan vacib məqam müasir narahat dünyamızda dost və müttəfiq ölkələrin varlığının əhəmiyyətinin xüsusi qeyd edilməsidir. Bu amil nümayiş etdirir ki, Böyük Britaniya Avropa və Yaxın Şərq arasında əhəmiyyətli keçid rolunu oynayan Cənubi Qafqazda sabitliyin qorunmasını mühüm strateji prioritet hesab edir. Lord Vernon Koaker çıxışında Azərbaycanın təhlükəsizlik və diplomatiya sahələrində Böyük Britaniya üçün vacib tərəfdaş olduğunu açıq şəkildə bəyan etdi. Təhlükəsizlik mühitinin gərginləşdiyi müasir şəraitdə etibarlı tərəfdaşlıq əlaqələri dövlətlərin xarici siyasətində mərkəzi mövqe tutur. Londonun Bakıya olan geosiyasi marağı təkcə hərbi əməkdaşlıqla məhdudlaşmır, eyni zamanda geniş diplomatiya müstəvisini də əhatə edir.

* * *

Tarixi nöqteyi-nəzərdən yanaşdıqda, Azərbaycanın 1918-ci il may ayının 28-də elan etdiyi müstəqilliyin 108-ci ildönümü mərasiminin Londonda yüksək səviyyədə qeyd edilməsi xüsusi məna daşıyır. Şərqdə ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin qurduğu demokratik ənənələr müasir dövrdə də uğurla davam etdirilir. London səfirliyinin təşkil etdiyi qəbulda rəsmi Britaniya hökumətinin təmsilçilərinin, parlament üzvlərinin və diplomatik korpusun geniş iştirakı Böyük Britaniya tərəfindən Azərbaycanın dövlətçilik tarixinə və suverenliyinə dərin hörmətin bariz göstəricisidir. Cari nöqteyi-nəzərdən, Lord Vernon Koakerin çıxışında Azərbaycanın tarix boyu və xüsusilə son illər ərzində əldə etdiyi mühüm nailiyyətlərə toxunması iki ölkə arasındakı qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu sübut edir.

Böyük Britaniyanın müdafiə nazirinin ötən ilin dekabr ayında Azərbaycana reallaşan rəsmi səfəri ikitərəfli münasibətlərin inkişafında dönüş nöqtəsi rolunu oynadı. Lord Vernon Koaker Londondakı qəbulda həmin səfəri olduqca xoş təəssüratlarla xatırlayaraq Azərbaycanın onda dərin rəğbət oyatdığını qeyd etdi. Səfər çərçivəsində paytaxt Bakıda keçirilən yüksək səviyyəli görüşlər, xüsusən də dövlət başçısı İlham Əliyev və digər rəsmi şəxslərlə aparılan müzakirələr müdafiə sahəsində strateji əməkdaşlığın gələcək perspektivlərini müəyyən etdi. Tarixi köklərə əsaslanan strateji əməkdaşlıq iki dövlət arasındakı bağları daha da möhkəmləndirir. Təhlükəsizlik sahəsindəki əlaqələrin dərinləşməsində hərbi təlimlər, təcrübə mübadiləsi və hərbi-texniki əməkdaşlıq mühüm yer tutur. Böyük Britaniyanın Bakıda daimi hərbi attaşelik idarəsini təsis etməsi və 2025-ci ilin oktyabr ayında Londonda imzalanan genişmiqyaslı ikitərəfli hərbi əməkdaşlıq proqramı hərbi sahədəki tərəfdaşlığın institusional əsaslarını daha da gücləndirdi.

Müdafiə nazirinin Bakı şəhəri haqqındakı heyranlıq dolu fikirləri ölkənin geosiyasi və mədəni imicinin beynəlxalq səviyyədə qəbul edilməsinin göstəricisidir. Lord Vernon Koaker Bakıda qədimliklə müasirliyin, həmçinin Şərq ilə Qərb mədəniyyətinin harmoniyasına heyran qaldığını dilə gətirdi. Azərbaycan xalqının qonaqpərvərliyi və mehribanlığı haqqında səslənən fikirlər ölkənin "yumşaq güc" diplomatiyasının uğurundan xəbər verir. Beynəlxalq münasibətlərdə mədəniyyətlərarası dialoq və tolerantlıq amili dövlətin xarici siyasətində mühüm diplomatik vasitə qismində çıxış edir.

Rəsmi Londonun Cənubi Qafqaza artan diqqəti təsadüfi xarakter daşımır. Azərbaycanın yerləşdiyi geosiyasi məkan Avrasiya qitəsinin təhlükəsizlik arxitekturasında mərkəzi mövqelərdən sayılır. Şərqlə Qərbin, həmçinin Şimal ilə Cənubun kəsişməsində yerləşən ölkə qlobal kommunikasiya şəbəkələrinin mərkəzi qovşağı rolunu oynayır. Belə strateji mövqe həm böyük imkanlar yaradır, həm də ciddi təhlükəsizlik məsuliyyəti tələb edir. Azərbaycan dövləti regional riskləri düzgün qiymətləndirərək çevik və balanslaşdırılmış təhlükəsizlik siyasəti həyata keçirir. Böyük Britaniya rəsmiləri Azərbaycanın həmin coğrafi və siyasi əhəmiyyətini dərindən dərk edir, bölgədəki fəaliyyətlərini Bakı ilə sıx koordinasiya şəraitində qurmağa çalışırlar.

* * *

İkitərəfli hərbi-siyasi əlaqələrin dərinləşməsində müdafiə sənayesi və hərbi təhsil sahəsindəki müştərək layihələr əsas hərəkətverici qüvvə sayılır. Böyük Britaniya müdafiə nazirliyinin təmsilçisinin Bakı səfəri zamanı gənc zabitlərin buraxılış mərasimində iştirak etməsi hərbi kadrların hazırlanması sahəsindəki əməkdaşlığın praktiki nəticələrindən xəbər verir. Azərbaycan ordusunun müasirləşdirilməsi və hərbi potensialının gücləndirilməsi prosesində qabaqcıl hərbi standartların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Londonun həmin sahədə təqdim etdiyi metodoloji və praktiki dəstək iki ölkə arasındakı hərbi etimadı ən yüksək səviyyəyə çatdırır. 2026-cı ilin mart ayında Bakıda ilk daimi Britaniya hərbi attaşesinin fəaliyyətə başlaması isə əlaqələrin artıq gündəlik və sistemli xarakter aldığını təsdiqləyir.

Diplomatik müstəvidə isə London və Bakı arasındakı dialoq qlobal forumlar və beynəlxalq təşkilatlar çərçivəsində aydın şəkildə görünür. Hazırda tərəflərin qlobal miqyaslı çağırışlara münasibətdə nümayiş etdirdikləri mövqe əksər hallarda üst-üstə düşür. Təhlükəsizlik və beynəlxalq hüququn aliliyi məsələlərində həmrəylik ikitərəfli əlaqələri daha da möhkəmləndirir. Böyük Britaniya Krallığının rəhbəri Kral III Çarlzın Azərbaycanın müstəqilliyi münasibətilə dövlət başçısı İlham Əliyevə ünvanladığı təbrik məktubu da qeyd olunan diplomatik yaxınlığın ali səviyyədə təsdiqi hesab edilə bilər. İki ölkə arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması istiqamətində atılan addımlar hər iki paytaxtın xarici siyasi prioritetlərindən sayılır.

Böyük Britaniya – Azərbaycan təhlükəsizlik və diplomatiya tərəfdaşlığı zamanın sınağından çıxmış möhkəm təməllər üzərində qurulur. Londonda Azərbaycanın müstəqilliyinin 108-ci ildönümünə həsr olunan təntənəli rəsmi qəbulda Böyük Britaniyanın müdafiə məsələləri üzrə dövlət naziri Lord Vernon Koakerin çıxışı əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini aydın şəkildə nümayiş etdirir. Qlobal qeyri-müəyyənlik və təhlükələrlə üzləşən müasir dünyada belə etibarlı tərəfdaşlıq hər iki dövlətin milli təhlükəsizliyinə, regional sabitliyin təmin olunmasına əvəzsiz töhfə verir. Bakı və Londonun nümayiş etdirdiyi müştərək siyasi iradə regional sülhün, təhlükəsizliyin qarantı qismində çıxış etməkdə davam edəcək.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Azərbaycan paytaxtında qlobal enerji təqdimatları

## Xəzər Neft və Qaz Sərgisi beynəlxalq əməkdaşlıq platformasıdır



**Bugünlərdə dünyanın enerji mərkəzlərinin diqqəti yenidən Azərbaycan paytaxtına yönəlib. Dünən öz işinə başlayan ənənəvi Bakı Enerji Həftəsinin ilk günündə 31-ci Beynəlxalq Xəzər neft-qaz, 14-cü Xəzər Beynəlxalq təmiz enerji sərgiləri, eləcə də 31-ci Bakı enerji forumun təntənəli açılış mərasimi keçirildi.**

Xatırladaq ki, builki sərgidə dünyanın 44 ölkəsindən gəlmiş 274 şirkət iştirak edir. Tədbirin coğrafiyası Azərbaycanla yanaşı Almaniya, Amerika Birləşmiş Ştatları, Avstriya, Belarus, Belçika, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çexiya, Çin, Çin Xalq Respublikasının Honkonq Xüsusi İnzibati Bölgəsi, Fransa, Hindistan, Filippin, Gürcüstan, İordaniya, İspaniya, İsveçrə, İtaliya, Lüksemburq, Qətər, Qazaxıstan, Kanada, Litva, Macarıstan, Misir, Moldova, Monako, Niderland, Norveç, Özbəkistan, Rumıniya, Rusiya, Sinqapur, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkiyə, Ukrayna, Yaponiya və digərlərini əhatə edir. Almaniya və Rusiya Bakı Enerji Həftəsində milli pavilyon ilə təmsil olunur.

Şirkətlərin bir çoxu ənənəvi neft-qaz sərgisinin daimi iştirakçıları olsalar da, bu mötəbər tədbirin debütantları da az deyil. Belə ki, builki iştirakçıların 35 faizini yeni şirkətlər təşkil edir ki, bu da Azərbaycanın neft, qaz və enerji sektoruna beynəlxalq marağın göstəricisidir. Ümumilikdə, sərgi iştirakçılarının, təxminən, 60 faizini xarici şirkətlər, 40 faizini isə yerli müəssisələr təşkil edir. Bu, yüksək səviyyəli beynəlxalq əməkdaşlıqla yanaşı, yerli biznesin fəal iştirakını da bir daha nümayiş etdirir.

Bakı Enerji Həftəsi 1994-cü ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə bünövrəsi qoyulmuş Xəzər neft-qaz sərgi və konfransının məntiqi davamı kimi formalaşaraq enerji sahəsində nüfuzlu beynəlxalq hadisəyə çevrilib. Artıq 31 ildir ki, beynəlxalq əməkdaşlıq və yeni biznes əlaqələrinin qurulduğu mühüm platforma kimi çıxış edən Bakı Enerji Həftəsi strateji tərəfdaşlıq əlaqələrinin qurulmasına, qlobal enerji xəritəsində ölkəmizin mövqeyinin möhkəmlənməsinə, enerji keçidi, "yaşıl enerji", rəqəmsallaşma, süni intellekt texnologiyaları, logistika, sənaye və infrastruktur sahələrini birləşdirən beynəlxalq biznes ekosisteminin inkişafına töhfələr verir.

Xəzər regionunun ən nüfuzlu enerji tədbirinin açılışında Azərbaycan Prezidenti İlham Əliyevin və bir çox dünya ölkələrinin dövlət xadimlərinin, şirkət nümayəndələrinin, yüksək səviyyəli qonaqların və beynəlxalq enerji ekspertlərinin iştirakı, eləcə də ABŞ və Türkiyə prezidentlərinin və Böyük Britaniyanın Baş nazirinin ünvanladıqları salamlama məktubları bu mühüm beynəlxalq enerji toplantısının əhəmiyyətini qat-qat artırır.

Azərbaycanın həm regionda, həm də Avropada enerji təhlükəsizliyi sahəsində önəmli rol oynadığını bir daha təsdiqləyən Bakı Enerji Həftəsi çərçivəsində keçirilən tədbirlərə Azərbaycan Respublikasının Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir.

31-ci Beynəlxalq Xəzər Neft-Qaz Sərgisinin əhatə etdiyi mühüm bölmələrdə neft-qaz yataqlarının işlənməsi, neft və qazı hasilatı və nəqli, telekommunikasiya, informasiya texnologiyaları, neft və qaz emalı, enerji sektorunda tikinti-quraşdırma işləri, innovative texnologiyalar daxildir. Sərgidə süni intellekt, dekarbonizasiya, qazma sahəsi, eləcə də qeyri-neft və qaz məhsullarının istehsalı və saxlanması ilə bağlı yeniliklər də təqdim olunur.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin ayrı-ayrı müəssisələrinin öz nailiyyət və perspektivlərini geniş nümayiş etdirməsi tədbirə marağı qat-qat artırırdı. Bundan əlavə, ölkəmizdə həyata keçirilən iri neft-qaz layihələrinin operatoru olan bp şirkəti, qardaş Türkiyənin TPAO, Fransanın Total, Özbəkistanın "Uzbeknefteqaz", Azərbaycanda bərpaolunan enerji layihələrinin iştirakçısı olan Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", eləcə də dünyanın neft-qaz, nəqliyyat-logistika və təchizat sahələrində fəaliyyət göstərən onlarca firma və şirkəti öz qabaqcıl təcrübə və nailiyyətlərini sərgidə nümayiş etdirmək üçün yaxşı imkan qazanmışdılar.

Yeri gəlmişkən, iştirakçıların istər bu müəssisələrin, istərsə də öz ekspozisiyalarını göstərən digər ölkələrin şirkətlərinin imkanları, nailiyyət və perspektivləri ilə yaxından maraqlanmaları bir daha sübut edirdi ki, ənənəvi "Xəzər Neft-Qaz Sərgisi" beynəlxalq əməkdaşlıq meydanı kimi mühüm statusunu qoruyub saxlaya bilib. Elə sərgi barədə rəy və təəssüratlarını öyrəndiyimiz iştirakçılar da bu mötəbər tədbirdə əməkdaşlıq əlaqələrini genişləndirmək, sərginin yaratdığı imkanlardan səmərəli istifadə etmək məqsədində olduqlarını vurğulayırdılar.

**Fuat Ege ASLAN, Türkiyənin "Evropower" şirkətinin beynəlxalq biznesin inkişafı üzrə meneceri:**



– Hər şeydən öncə, qeyd etmək istəyirəm ki, Bakı Enerji Həftəsi dünyanın enerji sektorunda fəaliyyət göstərən şirkətlər üçün olduqca önəmli bir tədbirdir. İştirakçıların çoxluğu isə onun əhəmiyyətini qat-qat artırır. Düşünürəm ki, sərgi şirkətlərə həm öz nailiyyətlərini nümayiş etdirmək, həm də yeni əməkdaşlıq əlaqələri yaratmaq baxımından son dərəcə əhəmiyyətlidir. Sərginin təşkilatçılığı da çox yüksək səviyyədədir.

"Evropower" şirkəti olaraq, bu il Bakı Enerji Həftəsi çərçivəsində keçirilən sərgidə ikinci dəfə iştirak edirik. Ötən il tədbirdə ilk dəfə qatılaraq bir sıra mühüm tərəfdaşlıqların və əməkdaşlıqların əsasını qoymağa nail olmuşuq. Eyni zamanda, bu platforma vasitəsilə yeni dostluqlar qazanır, peşəkar və işgüzar əlaqələrimizi daha da genişləndiririk.

Dost və qardaş ölkə olan Azərbaycanda formalaşan münasibətlər bizim üçün xüsusi önəm daşıyır. Builki sərgi çərçivəsində həm keçən il tanış olduğumuz tərəfdaşlarımızla görüşlərimizi davam etdirir, həm də yeni əməkdaşlıq imkanları qazanırıq. Ötən il olduğu kimi, bu dəfə də tədbirə marağın yüksək olduğunun şahidi oluruq. Xüsusilə enerji sektorunda, o cümlədən bərpa olunan enerji sahəsində fəallığın artdığını müşahidə edirik.

Şirkətimizin əsası 1999-cu ildə qoyulub. Enerji və elektrik avadanlıqları istehsalı sahəsində ixtisaslaşmış törəmə şirkətimiz isə 2006-cı ildə fəaliyyətə başlayıb. Müəssisəmiz yenilənəbilən enerji layihələri, yarımstansiyalar, yüksək və orta gərginlikli sistemlərin layihələndirilməsi və "açar təslim" həllərinin icrası üzrə fəaliyyət göstərir. Bununla yanaşı, elektrik avadanlıqlarının istehsalını həyata keçiririk. Bura aşağı və orta gərginlikli panellər, açar sistemləri, yüksək gərginlik avadanlıqları və güc transformatorları daxildir. Sadaladığım məhsullar isə geniş sahələrdə istifadə olunmaqla enerji infrastrukturunun əsas komponentlərini təşkil edir.

Azərbaycanla əməkdaşlığa gəldikdə isə, şirkətimizin burada fəaliyyət göstərən rəsmi nümayəndəliyi həm yerli, həm də beynəlxalq layihələrdə iştirak edir. Şirkətimiz Azərbaycanda birbaşa istehsal həyata keçirməsə də, müxtəlif layihələrdə tərəfdaş kimi fəaliyyət göstərir.

**Anna VANQ, "China petroleum pipeline engineering CO.LTD" şirkətinin mühəndisi:**




– Təmsil etdiyim şirkət Çin Milli Neft-Qaz Korporasiyasının tərkibində fəaliyyət göstərir. Şirkətimiz neft-qaz boru kəmərlərinin layihələndirilməsi, tikintisi, avadanlıqların satın alınması və texniki xidmət sahəsində ixtisaslaşıb. Mərkəzi Asiyada həyata keçirilən bir sıra iri boru kəməri layihələrində iştirak edən şirkətimiz ötən müddətdə bu sahədə geniş təcrübə əldə edib.

Bakı Enerji Həftəsi çərçivəsində keçirilən bu möhtəşəm sərgidə ilk dəfədir ki, iştirak edirik. Sərginin təşkilatçılığı yüksək səviyyədədir. Düşünürəm ki, burada iştirakımız bizə yeni dostlar, yeni tərəfdaşlar qazandıracaq. Və biz Azərbaycanın enerji sektoru ilə əməkdaşlıq imkanı əldə edəcəyik.

Azərbaycana ilk dəfə illər öncə səfər etmişdim. Lakin o zaman Bakını tam gəzmək imkanım olmamışdı. Yaxın günlərdə isə vaxt tapıb bu ecazkar şəhərin tarixi və mədəni məkanları ilə tanış olmağı planlaşdırıram. Xüsusən də İçərişəhər, Dənizkənarı Bulvar və müxtəlif muzeyləri ziyarət etməyi düşünürəm. Ümumilikdə isə, Bakı ilə bağlı təəssüratlarım olduqca yüksəkdir. Ötən müddətdə şəhəriniz tanınmaz dərəcədə dəyişib. Bakının yüksək səviyyəli inkişafı, təmizliyi, xüsusən də insanların qonaqpərvərliyi məni heyran edir.

**Elçin MƏMMƏDZADƏ, "AzSafety production" şirkətinin satış və əməliyyatlar üzrə meneceri:**



– Şirkətimiz 2018-ci ilə təsis edilib. Biz dəniz təhlükəsizliyi avadanlıqları, fərdi mühafizə vasitələri, xilasetmə salları, təxliyə sistemləri, yanğınsöndürmə avadanlıqları və ofşor əməliyyatlar üçün dəstək həllərindən ibarət tam inteqrasiya olunmuş xidmət və məhsul portfeli təqdim edirik. Xəzər regionunda illərə söykənən təcrübəmiz sayəsində hər bir əməliyyatda ən yüksək keyfiyyət, etibarlılıq və beynəlxalq standartlara tam uyğunluq təmin olnur.

"Xəzər Neft-Qaz Sərgisi"nə gəldikdə isə, şirkətimiz ikinci dəfədir ki, bu mötəbər toplantıya qatılır. Enerji sektoru üçün olduqca böyük əhəmiyyət daşıyan sərginin gedişində imzalanan sazişlər, layihələr, elan olunan yeniliklər bütün dünyada yayımlanır. Bu baxımdan sərgi çərçivəsində nailiyyətlərimizin, layihələrimizin nümayişi çox əhəmiyyətlidir.

Sərgi əməkdaşlıq baxımından da əla fürsətdir. Belə ki, ötən il sərgi çərçivəsində yeni əməkdaşlıq imkanı qazandığımız şirkətlə imzaladığımız sazişə əsasən, xilasedici salların texniki vəziyyətini təftiş etməklə yanaşı, həm də onlara lazımi texniki xidmət göstəririk. Bununla yanaşı, əməkdaşlıq etdiyimiz şirkətlərin istifadəsində olan stasionar və daşınabilən yanğınsöndürmə avadanlıqlarının illik təftişini həyata keçirir, istismar prosesi zamanı yaranan texniki çatışmazlıqları aradan qaldırırıq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Avropa ilə Asiyanı birləşdirən əsas nəqliyyat arteriyalarından hesab olunan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna, yaxud Orta Dəhlizə beynəlxalq maraq getdikcə genişlənir. Bu tendensiyanın başlıca səbəbi marşrutun alternativ yollarla müqayisədə daha qısa məsafə, yüksək təhlükəsizlik və etibarlı logistika imkanları təqdim etməsidir. Xüsusilə son illərdə Rusiya-Ukrayna müharibəsinin yaratdığı geosiyasi dəyişikliklər və Yaxın Şərqdə, o cümlədən İran ətrafında müşahidə olunan gərginliklər fonunda Orta Dəhliz qlobal ticarət və nəqliyyat sistemində strateji əhəmiyyət qazanan istiqamətlərdən birinə çevrilib.**

# Zəngəzur dəhlizi Asiya ilə Avropanı birləşdirəcək

## Bu yol Orta Dəhlizin önəmini də xeyli artıracaq



Bu baxımdan Orta Dəhlizin strateji həlqələrindən hesab olunan Zəngəzur dəhlizi xüsusi önəm kəsb edir. Layihənin reallaşması ilk növbədə regionun sosial-iqtisadi inkişafına yeni impuls verəcək, dövlətlər arasında iqtisadi əlaqələrin genişlənməsinə əlverişli şərait yaradacaq. Dəhlizin istifadəyə verilməsi əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə, qarşılıqlı etimadın güclənməsinə və uzunmüddətli sabitliyin təmin olunmasına mühüm töhfə verə bilər.

Prezident İlham Əliyev Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışı zamanı bildirdi ki, Şərq-Qərb dəhlizinin digər bir qolu olacaq Zəngəzur dəhlizi mütləq inşa ediləcək.

Ölkə başçısının Zəngəzur dəhlizi çərçivəsindəki nitqi onu deməyə əsas verir ki, yaxın zamanda ölkəmizin nəqliyyat habı funksiyası qlobal miqyasda daha da genişlənəcək. Hazırki vəziyyətdə də inşa olunan dəmir yolu və avtomobil magistralları ölkənin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat xətləri ilə vahid sistem təşkil edəcək. Eyni zamanda, Azərbaycanın Xəzər sahilində formalaşdırdığı iri logistika imkanları, o cümlədən Ələt limanının potensialı və azad edilmiş ərazilərdə fəaliyyət göstərən beynəlxalq hava limanları bu marşrutun rəqabət üstünlüklərini daha da artırır. Bütün bunlar Zəngəzur dəhlizinin Avropa ilə Asiya arasında yükdaşımaların həyata keçirildiyi ən perspektivli və səmərəli tranzit istiqamətlərindən birinə çevriləcəyini göstərir.

Statistik göstəricilər də bu fikiri təsdiqləyir. Belə ki, ötən il Orta Dəhliz üzrə daşınan yüklərin həcmi 11 faiz, Şimal-Cənub nəqliyyat dəhlizi üzrə isə 12 faiz artım nümayiş etdirib. Bu dinamika Azərbaycanın tranzit potensialının yüksəldiyini və beynəlxalq yükdaşımalar üçün etibarlı mərkəzə çevrildiyini göstərir.

***Nurlan ABDALOV***
***XQ***

### Ekspert rəyi



**Zahid MƏMMƏDOV,**
**İqtisad Universiteti İqtisadi Araşdırmalar İnstitutunun direktor müavini, professor**

Bəli, son dövrdə həm Azərbaycan Prezidentinin, həm də Ermənistan rəhbərliyinin açıqlamaları göstərir ki, Zəngəzur dəhlizi məsələsi regional gündəmin prioritet mövzularından biri olaraq qalır. İqtisadi baxımdan dəhlizin açılması regional inteqrasiyanın güclənməsi, logistika xərclərinin azalması və ticarət axınlarının sürətlənməsi baxımından mühüm əhəmiyyət daşıyır. Dünya Bankı, Asiya İnkişaf Bankı və digər beynəlxalq qurumların tədqiqatları göstərir ki, nəqliyyat dəhlizlərinin inkişafı iştirakçı ölkələrin ticarət dövriyyəsini 15–30 faizədək artıra bilir.

Hazırkı geosiyasi şəraitdə Orta Dəhlizin əhəmiyyətinin artması Zəngəzur dəhlizinə olan marağı daha da yüksəldir. Çin–Mərkəzi Asiya–Xəzər–Azərbaycan–Türkiyə–Avropa marşrutunun səmərəli fəaliyyəti üçün bu xətt strateji əhəmiyyət daşıyır.

Zəngəzur dəhlizinin açılması Azərbaycana bir neçə istiqamətdə mühüm dividendlər qazandıra bilər. Azərbaycan artıq Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından biridir. Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ölkəmizin tranzit potensialını daha da artıracaq. Tranzit yüklərdən əldə olunan gəlirlərin artması qeyri-neft sektorunun inkişafına əlavə stimul verəcək.

Son illər Avropa ilə Asiya arasında alternativ logistika marşrutlarına tələbat əhəmiyyətli dərəcədə artıb. Zəngəzur dəhlizi Orta Dəhlizin ən mühüm həlqələrindən birinə çevrilərək Azərbaycanın logistika mərkəzi kimi mövqeyini daha da möhkəmləndirəcək.

Dəhliz Azərbaycanı və Türkiyəni birbaşa quru yolu ilə birləşdirməklə Türk Dövlətləri Təşkilatı çərçivəsində iqtisadi əməkdaşlığı genişləndirəcək. Bu, ticarət dövriyyəsinin artmasına, yeni investisiya layihələrinin yaranmasına və regional bazarların inteqrasiyasına xidmət edəcək.

Müasir dünyada ölkələrin gücü təkcə təbii resurslarla deyil, həm də nəqliyyat və logistika imkanları ilə ölçülür. Zəngəzur dəhlizi Azərbaycanın geoiqtisadi əhəmiyyətini artıraraq ölkəmizi Avrasiya ticarət marşrutlarının əsas iştirakçılarından birinə çevirə bilər. Layihənin reallaşması nəticəsində Azərbaycan tranzit ölkədən regional logistika mərkəzinə transformasiya prosesini sürətləndirə, qeyri-neft gəlirlərini artıra və Türk dünyası ilə Avropa arasında strateji körpü rolunu daha da gücləndirə bilər.

### Ekspert rəyi



**Eyyub KƏRİMLİ,**
**İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri**

Prezident İlham Əliyevin iyunun 1-də Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 31-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi "Caspian Oil and Gas", 14-cü Xəzər Beynəlxalq Təmiz Enerji Sərgisi "Caspian Power" və 31-ci "Baku Energy Forum"un rəsmi açılış mərasimində səsləndirdiyi fikirlər göstərir ki, Zəngəzur dəhlizi artıq yalnız regional nəqliyyat layihəsi kimi deyil, həm də geniş iqtisadi gündəliyin mühüm tərkib hissəsi kimi qiymətləndirilir. Bu baxımdan dəhlizin açılması istiqamətində siyasi və diplomatik manevr imkanlarının getdikcə məhdudlaşdığını söyləmək mümkündür.

Layihənin digər mühüm üstünlüyü Azərbaycanın geoiqtisadi mövqeyinin daha da güclənməsidir. Belə ki, ölkə artıq enerji ixracatçısı kimi deyil, həm də Avropa ilə Asiya arasında strateji nəqliyyat və ticarət qovşağı kimi mövqeyini möhkəmləndirir. Zəngəzur dəhlizi Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Dəhliz və digər regional nəqliyyat infrastrukturları ilə birlikdə Azərbaycanın beynəlxalq ticarət, logistika və investisiya mərkəzi kimi rolunun artmasına mühüm töhfə verə bilər.

Bununla yanaşı, layihənin tam iqtisadi səmərəsinin əldə olunması üçün gömrük prosedurlarının sadələşdirilməsi, tarif siyasətinin uyğunlaşdırılması, logistika proseslərinin rəqəmsallaşdırılması və iştirakçı tərəflər arasında koordinasiyanın gücləndirilməsi əsas şərtlərdən biri olacaq.

Ən vacib məqamlardan biri isə odur ki, Zəngəzur dəhlizi Azərbaycanın beynəlxalq mövqeyini yeni mərhələyə yüksəldə bilər. Bu layihə ölkəni yalnız enerji resursları ixrac edən dövlət kimi deyil, həm də strateji nəqliyyat və ticarət qovşağı kimi ön plana çıxaracaq. Uzunmüddətli perspektivdə isə bu amil Azərbaycanın qeyri-neft sektorunun inkişafına, regional iqtisadi inteqrasiyanın dərinləşməsinə və ölkənin beynəlxalq iqtisadi əlaqələrinin genişlənməsinə əlavə təkan verəcək.

# Maliyyə sistemində rəqəmsal keçidin yol xəritəsi

## *Yeni Dövlət Proqramı xidmətlərə əlçatanlıqda bərabər imkanlar və üstün şərait yaradacaq*

**Prezident İlham Əliyevin 26 may 2026-cı il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı" ölkənin sosial-iqtisadi inkişaf siyasətində mühüm strateji sənədlərdən biri olaraq mühüm önəm daşıyır. Bu proqram maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi, rəqəmsal maliyyə həllərinin inkişaf etdirilməsi, maliyyə savadlılığının artırılması və bütün vətəndaşların maliyyə sistemindən bərabər şəkildə faydalanmasının gerçəkləşdirilməsini qarşıya prioritet vəzifə kimi qoyur.**

Müasir dünyada maliyyə əlçatanlığı iqtisadi inkişafın əsas göstəricilərindən biri hesab olunur. Beynəlxalq təcrübə göstərir ki, əhalinin və sahibkarlıq subyektlərinin bank, sığorta, ödəniş və investisiya xidmətlərinə çıxışının genişləndirilməsi iqtisadi fəallığı artırır, "kölgə" iqtisadiyyatının həcmini azaldır, maliyyə sabitliyini möhkəmləndirir və sosial rifahın yüksəlməsini şərtləndirir. Bununla bağlı Azərbaycan dövlətinin müəyyənləşdirdiyi yeni hədəflər respublikada inklüziv iqtisadi inkişaf modelinin daha da gücləndirilməsinə yönələn mühüm addımdır.

### Maliyyə ekosistemində rəqəmsal keçid

Maliyyə inklüzivliyi dedikdə bütün vətəndaşların və biznes subyektlərinin münasib qiymətlərlə təmin olunması, təhlükəsiz və keyfiyyətli maliyyə xidmətlərindən istifadə imkanlarının gerçəkləşdirilməsi nəzərdə tutulur. Buraya bank hesablarının açılması, kreditlərdən istifadə, sığorta məhsullarına çıxış, rəqəmsal ödəniş xidmətləri, investisiya imkanları və digər maliyyə vasitələri daxildir.

Azərbaycanda son illər maliyyə sektorunda mühüm islahatlar həyata keçirilsə də, bu gün bəzi regionlarda yaşayan əhali qruplarının, kənd yerlərində fəaliyyət göstərən sahibkarların, eləcə də mikro və kiçik biznes subyektlərinin maliyyə xidmətlərinə çıxış imkanlarının daha da genişləndirilməsinə ehtiyac duyulur. Adıçəkilən Dövlət Proqramı da məhz bu boşluqların aradan qaldırılmasına yönələn sistemli layihələri özündə birləşdirir.

Təsdiq olunan sənədin başlıca məqsədi isə əhali və mikro, kiçik və orta sahibkarlıq subyektləri üçün maliyyə xidmətlərinə əlçatanlığın artırılması, maliyyə savadlılığının gücləndirilməsi, maliyyə məhsullarının keyfiyyətinin yüksəldilməsi və müştəri məmnuniyyətinin gerçəkləşdirilməsidir. Eyni zamanda maliyyə xidmətlərindən istifadədə bərabərlik və şəffaflığın artırılması da prioritet istiqamətlər sırasındadır. Bu istiqamətlər maliyyə sahəsi ilə bağlı istehlakçı hüquqlarının qorunması, innovativ maliyyə texnologiyalarının tətbiqi və nağdsız ödənişlərin geniş yayılması kimi məsələləri də əhatə edir.

Son illər respublikada rəqəmsal ödənişlərin həcminin sürətlə artması, elektron bankçılıq və mobil tətbiqlərin geniş yayılması xüsusi diqqət çəkir. Bütün bu proseslərin daha da sürətləndirilməsi, şəffaflaşdırılması, eləcə də səmərəliləşdirilməsi qarşıda duran ən mühüm vəzifələrdən biridir. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılmış Rəqəmsal Dövlət Maliyyəsi Sisteminin artıq işə düşməsi isə bunun bariz ifadəsidir. Maliyyə naziri Sahil Babayevin ölkə mediasına müsahibəsində səsləndirdiyi fikirlərdən də bu, aydın nəzərə çarpır.

Müsahibədə "Biz büdcənin proqnozlaşdırılmasından tutmuş, büdcənin icrası, xəzinədarlığın fəaliyyəti, riskəsaslı yoxlama meyarları – bütün bu elektron platformaları vahid baza üzərində yaradırıq və onlar mərhələlərlə işə salınır", – deyən S.Babayev əlavə edib ki, hazırda artıq büdcə proqnozlaşdırılmasının böyük bir hissəsi elektron platformalar üzərindən həyata keçirilir. Xəzinədarlıq elektron sistemi ciddi şəkildə yenidən təşkil edilir və artıq xəzinədarlıq ödənişlərinin bank hesablarında olduğu kimi, maksimum bir gün ərzində icrası gerçəkləşdirilir. Bu yeni elektron sistemin ilin sonuna qədər tam fəaliyyətə başlaması ilə planlaşdırılan müddətin iki saata qədər azalacağı gözlənilir.



Yeni proqram sadalanan proseslərin daha da sürətləndirilməsini nəzərdə tutur. Rəqəmsal maliyyə xidmətlərinin inkişafı isə bir neçə üstünlük yaradır. Başqa sözlə, bu, ilk növbədə, vətəndaşların bank şöbələrinə getmədən maliyyə əməliyyatlarını həyata keçirməsinə imkan verir. Digər tərəfdən, maliyyə xidmətlərinin maya dəyərini azaldır, xidmətlərin operativliyini artırır və regionlarda yaşayan insanların maliyyə sisteminə inteqrasiyasını asanlaşdırır. Xüsusilə kənd yerlərində və ucqar yaşayış məntəqələrində rəqəmsal həllərin tətbiqi maliyyə xidmətlərinin coğrafi məhdudiyyətlərini aradan qaldıraraq əlçatanlığın daha da asanlaşmasını şərtləndirir.

### Şəffaflıq və vətəndaş məmnuniyyəti

Yeni Dövlət Proqramının prioritet istiqamətlərindən biri də mikro, kiçik və orta biznes subyektlərinin maliyyə resurslarına çıxışının genişləndirilməsidir. Azərbaycanın qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi və yeni iş yerlərinin yaradılması baxımından bu istiqamət xüsusi əhəmiyyət daşıyır. Maliyyə əlçatanlığının artırılması isə sahibkarların investisiya imkanlarının genişləndirilməsinə, innovativ layihələrin icrasının sürətləndirilməsinə və regionlarda iqtisadi fəallığın gücləndirilməsinə əlverişli zəmin yaradır.

Bundan savayı, kreditlərə çıxışın asanlaşdırılması, alternativ maliyyələşmə mexanizmlərinin tətbiqi və maliyyə xidmətlərinin keyfiyyətinin artırılması nəticəsində sahibkarlıq mühiti daha da yaxşılaşır. Bu isə iqtisadi artımın davamlılığının möhkəmlənməsinə, məşğulluğun yüksəlməsinə və əhalinin gəlirlərinin artmasına müsbət təsir göstərir.

Maliyyə xidmətlərinin əlçatan olması ilə yanaşı, onlardan səmərəli istifadə bacarığının formalaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Dövlət Proqramında maliyyə savadlılığının artırılması xüsusi yer tutur. Belə ki, maliyyə savadlılığı insanların gəlirlərini düzgün müəyyənləşdirməyə, qənaət amilinə daim diqqət yetirməyə, riskləri dəqiq qiymətləndirməyə və maliyyə qərarlarını daha düşünülmüş şəkildə qəbul etməyə imkan verir. Xüsusilə gənclər, qadınlar, kənd əhalisi və kiçik sahibkarlar üçün maarifləndirici proqramların genişləndirilməsi maliyyə əlçatanlığının keyfiyyət göstəricilərinin yüksəlməsinə gətirib çıxarır. Bununla yanaşı, maliyyə savadlılığının artırılması vətəndaşların dələduzluq halları və maliyyə riskləri barədə məlumatlılığını da gücləndirir.

Proqramın prioritet istiqamətlərindən biri də maliyyə məhsullarının keyfiyyətinin artırılması və istehlakçı hüquqlarının daha etibarlı qorunması ilə bağlıdır. Çünki müasir maliyyə sistemində vətəndaş etimadı əsas amillərdən biri hesab olunur, eyni zamanda, müştəri məmnuniyyətinin artırılması, xidmətlərin şəffaflığının reallaşdırılması və istehlakçıların hüquqlarının müdafiəsi maliyyə sektorunun dayanıqlı inkişafına xidmət edən əsas şərtlər sırasında yer alır. Dövlət Proqramında bu istiqamətdə nəzərdə tutulan layihələrin icrası ilə maliyyə bazarlarında sağlam rəqabətin sürətlə formalaşması da gözlənilir.

Onu da qeyd etmək lazımdır ki, ölkə Prezidentinin müvafiq sərəncamına əsasən Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsi və icrasına nəzarət Azərbaycan Respublikasının Mərkəzi Bankına həvalə olunub. Eyni zamanda, Mərkəzi Bankın proqramın icrası barədə hər il dövlət başçısına hesabat təqdim etməsi qərara alınıb. Tədbirlərin monitorinqi və qiymətləndirilməsi isə Mərkəzi Bankın sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcəyi nəzərdə tutulub. Bundan başqa, Maliyyə Nazirliyinə proqram çərçivəsində dövlət büdcəsi hesabına maliyyələşdiriləcək tədbirlər üçün zəruri vəsaitlərin 2027–2030-cu illər üzrə büdcə proqnozlarında diqqətə çatdırılması tapşırılıb.

Burada bir məqamı da xatırlatmaq istərdik. Son onilliklər ərzində maliyyə inklüzivliyi dünyanın əksər ölkələrinin iqtisadi siyasətində əsas prioritet istiqamətlərdən birinə çevrilib. Beynəlxalq təcrübə göstərir ki, əhalinin və biznes subyektlərinin maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi yoxsulluğun azaldılması, iqtisadi fəallığın yüksəldilməsi, investisiyaların artırılması və sosial rifahın yaxşılaşdırılması baxımından mühüm nəticələr verir.

Beynəlxalq təşkilatların araşdırmaları da göstərir ki, maliyyə sisteminə inteqrasiya olunan hər bir vətəndaş öz gəlirlərini daha səmərəli idarə edir, yığımlarını artırır, sahibkarlıq fəaliyyətinə daha çox meyil göstərir və müxtəlif iqtisadi risklərdən daha yaxşı qoruna bilir. Bu səbəbdən maliyyə inklüzivliyi artıq təkcə bank sektorunun deyil, ümumilikdə, dövlət idarəçiliyinin və sosial siyasətin vacib elementlərindən biri hesab edilir.

Hindistan maliyyə inklüzivliyinin genişləndirilməsi sahəsində son illərdəki fəaliyyəti ilə dünyanın ən uğurlu ölkələrdən biri kimi qiymətləndirilir. Bu dövlətdə hökumətin həyata keçirdiyi genişmiqyaslı proqramlar nəticəsində yüz milyonlarla insanın ilk dəfə bank hesabı açması, rəqəmsal identifikasiya sistemlərinin və elektron ödəniş platformalarının yaradılması ilə bağlı maliyyə xidmətlərinin ən ucqar yaşayış məntəqələrinə qədər çatdırılması vurğulanan fikrin bariz ifadəsidir.

Avropa İttifaqı ölkələrində də maliyyə inklüzivliyi daha çox rəqəmsal transformasiya, istehlakçı hüquqlarının qorunması və maliyyə savadlılığının artırılması istiqamətində inkişaf etdirilir. Burada əsas məqsəd vətəndaşların maliyyə xidmətlərinə çıxışını təmin etmək, həm də həmin xidmətlərin təhlükəsiz, şəffaf və keyfiyyətli olmasına nail olmaqdır. Xüsusilə Skandinaviya ölkələrinin təcrübəsi göstərir ki, nağdsız ödənişlərin geniş yayılması iqtisadiyyatın şəffaflığını artırır, əməliyyat xərclərini azaldır və maliyyə sektorunun səmərəliliyini yüksəldir. Türkiyə, Qazaxıstan və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrin təcrübəsi də sübut edir ki, müasir maliyyə infrastrukturuna qoyulan investisiyalar iqtisadi artımın sürətlənməsinə, yeni biznes modellərinin formalaşmasına və maliyyə bazarlarının genişlənməsinə şərait yaradır.

Azərbaycanın qəbul etdiyi yeni Dövlət Proqramı da məhz bu qlobal tendensiyalara uyğun olaraq hazırlanıb. Sənəddə nəzərdə tutulan layihələr ölkəmizdə maliyyə xidmətlərinin daha əlçatan, innovativ və təhlükəsiz olmasını reallaşdırmaqla yanaşı, beynəlxalq təcrübədə özünü doğruldan mexanizmlərin tətbiqinə imkan yaradacaq. Burada ən mühüm məqamlardan biri isə ondan ibarətdir ki, Azərbaycan maliyyə inklüzivliyini yalnız bank xidmətlərinin genişləndirilməsi kimi deyil, bütövlükdə, iqtisadi inkişafın, sosial ədalətin və insan kapitalının gücləndirilməsinin vacib vasitəsi kimi qiymətləndirir. Bu yanaşma isə ölkənin uzunmüddətli inkişaf strategiyasına tam uyğun gəlir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Namiq HÜSEYNOV,**
**maliyyəçi-ekspert**

"Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı" ölkənin maliyyə sisteminin daha əlçatan, şəffaf və innovativ model əsasında inkişaf etdirilməsini nəzərdə tutan mühüm strateji sənəddir. Proqramın uğurlu icrası nəticəsində vətəndaşların və sahibkarların maliyyə xidmətlərinə çıxışı genişlənəcək, rəqəmsal maliyyə ekosistemi daha da inkişaf edəcək, maliyyə savadlılığı yüksələcək və iqtisadi artımın inklüziv xarakteri güclənəcək.

Dövlət Proqramında bankçılıq və qeyri-bankçılıq, eləcə də sığorta, investisiya və ödəniş sektorları ilə bağlı konkret hədəflər müəyyən olunub. Bu hədəflərlə Azərbaycanda həm maliyyə xidmətlərindən istifadə üzrə göstəricilərin artırılması, həm də bir sıra yeniliklər, məsələn, maliyyə institutlarının "Öz müştərini tanı" sisteminə qoşulması, "Açıq sığorta modeli"nin tətbiq olunması, fərdi investorlara yönələn azı bir investisiya fondunun yaradılmasını, ödəniş xidməti təchizatçılarının isə "Açıq bankçılıq" modelinin tətbiqinə üstünlük verilməsi nəzərdə tutulub.

Bu hədəflərə nail olmaq üçün dövlət və ictimaitəşkilatlarla yanaşı, özəl qurumlar da fəal olmalıdır. Söhbət maliyyə bazarı iştirakçılarından – banklar və bank olmayan kredit təşkilatlarından, sığorta və investisiya şirkətlərindən, ödəniş təşkilatlarından gedir. Ən azı iri maliyyə qurumları Dövlət Proqramının icrası ilə bağlı üzərlərinə düşəni etməlidir. Məqsəd inkişaf etmiş ölkələrdəki kimi, əhalinin böyük hissəsinin maliyyə xidmətləri ilə əhatə edilməsidir.

Göründüyü kimi, bu sənəd Azərbaycanın sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsi olmaqla yanaşı, ölkədə insan kapitalının inkişafına, sahibkarlığın dəstəklənməsinə və müasir maliyyə infrastrukturunun formalaşdırılmasına xidmət edən uzunmüddətli yol xəritəsi kimi çıxış edir. Qarşıdakı illərdə proqram çərçivəsində həyata keçiriləcək layihələrin respublikanın iqtisadi potensialının daha da gücləndirilməsinə və vətəndaş rifahının yüksəlməsinə mühüm töhfələr verəcəyi şübhəsizdir.

# Avropa İttifaqında yeni inkişaf meyilləri

## *Veto hüququ və məhdudlaşdırılmış səlahiyyət modeli*

**Avropa İttifaqı tarixinin ən həssas mərhələlərindən birinə daxil olur. Uzun illər "birləşmiş Avropa" ideyasının əsas dayaqlarından biri hesab edilən genişlənmə siyasəti bu gün artıq dərin siyasi təhlükəsizlik və idarəetmə dilemmasına çevrilib. İttifaq daxilində səslənən yeni təşəbbüslər isə həmin dilemmanı daha da kəskinləşdirir. Artıq gələcək üzv dövlətlərin veto hüququnun müəyyən müddətə məhdudlaşdırılması ideyası müzakirə edilir. Sözügedən yanaşma Avropa Komissiyası daxilində ciddi şəkildə araşdırılan ssenarilərdən biri kimi qiymətləndirilir və onun əsas məqsədi genişlənmə prosesini sürətləndirmək, eyni zamanda, İttifaqın daxili qərarvermə mexanizmini daha dayanıqlı etməkdir.**

Məlumdur ki, Aİ son onillikdə genişlənmə prosesində ciddi ləngimələrlə üzləşib. Qərbi Balkan ölkələrinin illərlə davam edən gözləməsi, Moldova kimi yeni iddialı dövlətlərin Avropa inteqrasiyası yolunda artan siyasi iradəsi və eyni zamanda İttifaq daxilində konsensusun əldə edilməsində yaranan çətinliklər Brüsseli yeni model axtarışına sövq edib. Əsas problem isə qərarların yekdillik prinsipi ilə qəbul edildiyi sahələrdə ortaya çıxır. Xarici siyasət, təhlükəsizlik və vergi kimi strateji məsələlərdə bir üzv dövlətin veto hüququ bütün prosesi dayandıra bilir. Yəni həmin mexanizm uzun illər Aİnin balans aləti kimi işləsə də, son dövrlər daha çox siyasi bloklama vasitəsinə çevrilib. Hazırda Brüssel rəsmilərinin narahatlığı ondan ibarətdir ki, genişlənmə dalğası bu mexanizmi daha da zəiflədə və İttifaqı daxili parçalanma riski ilə üz-üzə qoya bilər. Ona görə də yeni üzvlərə münasibətdə keçid dövrü üçün veto məhdudiyyəti ideyası gündəmə




gəlib. Bugünlərdə müzakirə olunan plana əsasən, Moldova və Qərbi Balkan ölkələri kimi namizəd dövlətlər İttifaqa qəbul olunduqdan sonra müəyyən müddət ərzində tam veto hüququ əldə etməyə bilərlər. Bu, xüsusilə xarici siyasət qərarlarına və yekdillik tələb edən maliyyə mexanizmlərinə aiddir. Yanaşmanın tərəfdarları hesab edirlər ki, yeni üzvlərin dərhal tam veto gücünə sahib olması İttifaqın qərarvermə sistemini iflic vəziyyətinə sala bilər. Onların fikrincə, Avropa İttifaqı genişlənmə prosesini sürətləndirmək istəyirsə, eyni zamanda, öz daxili effektivliyini qorumaq üçün mərhələli inteqrasiya modelinə keçməlidir. Görünür, yeni üzvlər əvvəlcə məhdud səlahiyyətlərlə İttifaqa daxil olacaqlar, müəyyən müddət keçdikdən sonra isə tam hüquqlu üzv statusuna yüksələcəklər. Bununla həm siyasi uyğunlaşma prosesi təmin ediləcək, həm də institusional risklər azaldılacaq.

Hazırda sözügedən müzakirələrin mərkəzində Qərbi Balkanların ən irəlidə gedən ölkələrindən biri – Monteneqro dayanır. Cəmi 624 min əhalisi olan bu kiçik dövlət 14 ildir Avropa İttifaqına üzvlük danışıqları aparır. Monteneqro 2028-ci ilə qədər İttifaqın növbəti üzvü olmağı hədəfləyir. Bu məqsədlə yaxın günlərdə ilk dəfə olaraq üzvlük müqaviləsinin texniki detalları üzərində işləyəcək xüsusi qrup yaradılıb. Bu, uzun illər davam edən danışıqların artıq siyasi bəyanatlardan real hüquqi mexanizmlərə keçdiyini göstərir. Lakin Monteneqronun mümkün üzvlüyü Avropa İttifaqının genişlənmə siyasətinin sınaq modeli kimi də dəyərləndirilir. Əgər veto hüququnun məhdudlaşdırılması ideyası qəbul edilərsə, Monteneqro bu yeni sistemin ilk tətbiq sahələrindən biri ola bilər.

Genişlənmə siyasətinin ikinci mühüm istiqaməti Moldova və Qərbi Balkan ölkələridir. Adıçəkilən regionlar Avropa İttifaqı üçün geosiyasi baxımdan xüsusi əhəmiyyət daşıyır. Xüsusilə Ukrayna müharibəsindən sonra Şərqi Avropada yaranmış təhlükəsizlik mühiti Brüsseli genişlənməni sürətləndirməyə məcbur edən əsas amillərdən biri olub. Moldova kimi ölkələrin Avropa inteqrasiyasına can atması isə prosesə siyasi legitimlik qazandırır. Maraqlısı odur ki, İttifaq daxilində qərarvermə mexanizminin zəifləməsi riski də yüksəlir. Mövcud balansı qorumaq üçün təklif edilən veto məhdudiyyəti ideyası ziddiyyətin nəticəsi kimi ortaya çıxır.

Qısa bir xatırlatma edək: Avropa İttifaqının yeni yanaşmaya yönəlməsinin əsas səbəblərindən biri keçmiş təcrübələrdir. Son illər bəzi üzv dövlətlərin veto hüququndan istifadə edərək ümumi Avropa qərarlarını bloklaması Brüsseldə ciddi narahatlıq yaradıb. Xüsusilə keçmiş baş nazir Viktor Orbanın dövründə Macarıstanın müəyyən xarici siyasət və maliyyə qərarlarına qarşı veto tətbiq etməsi İttifaq daxilində dərin müzakirələrə səbəb olub. Ukraynaya yönəlik 90 milyard avroluq maliyyə dəstəyi paketinin bloklanması gərginliyin ən çox diqqətçəkən nümunələrindən birinə çevrilib. Belə hadisələr göstərir ki, yekdillik prinsipi bəzən strateji qərarların gecikməsinə və ya tamamilə dayandırılmasına səbəb ola bilir.

Veto hüququnun məhdudlaşdırılması ideyası həm də suverenlik anlayışının yenidən interpretasiyası kimi dəyərləndirilir. Yeni üzv dövlətlər üçün bu, İttifaqa daxil olarkən tam siyasi bərabərlik əldə etmədən müəyyən mərhələli inteqrasiya modelinə razılıq vermək anlamına gəlir. Belə olan halda, layihəsinin əsas fəlsəfəsi ilə ziddiyyət təşkil edən bir sual gündəmə gəlir ki, Avropa İttifaqı doğrudanmı bərabər üzvlərin ittifaqıdır? Bəzi analitiklər hesab edirlər ki, sözügedən model İttifaq daxilində "ikisürətli Avropa" anlayışını daha da dərinləşdirəcək. Lakin bunun əksini düşünənlər də az deyil. Yenə də bütün bu müzakirələr göstərir ki, Avropa İttifaqı klassik genişlənmə modelindən tədricən uzaqlaşır və daha çevik, mərhələli inteqrasiya sisteminə doğru hərəkət edir.

Sonda bu nəticəyə gəlmək olar ki, gələcəkdə İttifaqın strukturu daha çox dəyişkən və çoxsürətli ola bilər. Bəzi ölkələr tamhüquqlu üzv kimi fəaliyyət göstərərkən, digərlərinin keçid mərhələsində məhdud səlahiyyətlərlə iştirakı gözləniləndir.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*



**Züriyyə QARAYEVA,**
**politoloq**

Son vaxtlar Brüsseldə müzakirə olunan məsələlər Aİ-nin genişlənmə siyasətində daha çox siyasi zərurət kimi görünür. Macarıstanın son illərdə Ukrayna, sanksiyalar və xarici siyasət qərarlarını bloklaması Aİ daxilində "bir ölkə bütün ittifaqı girov saxlaya bilərmi?" sualını aktuallaşdırıb. Yeni üzvlərin müəyyən müddət veto hüququndan məhrum edilməsi Qərbi Balkanlar, Moldova və gələcəkdə Ukraynanın qəbulunu asanlaşdıra bilər, amma eyni zamanda, "ikinci dərəcəli üzvlük" narahatlığı yarada bilər.

Yəni bu addım parçalanma riskini tam aradan qaldırmır, əksinə, düzgün izah olunmasa, Aİ daxilində yeni narazılıqların yaranmasına yol aça bilər. Qərarvermə mexanizmi islah olunmadığı təqdirdə, veto hüququ səbəbindən ittifaq siyasi iflic vəziyyətinə düşə bilər. Hesab edirəm ki, Aİ modeli tam dağılmasa da, klassik "bərabərhüquqlu üzvlük" anlayışı xeyli dəyişə bilər.

“Azərbaycan Mədəniyyəti – 2040”

# Sumqayıt səhnəsindən dünyaya boylanan sənət həqiqətləri

**Mədəniyyətin ayrılmaz tərkib hissəsi olan teatrlar xalqların tarixi yaddaşını, mənəvi dünyasını və adət-ənənələrini yaşadan, təbliğ edən cazibədar bir sahədir. Kökü qədim xalq tamaşalarından su içən Azərbaycan peşəkar teatr sənətinin təşəkkülünün əsr yarımdan artıq tarixi var. Bəs bu gün teatrlarımızın “nəbz”i necə vurur, səhnə sənətinin mövcud vəziyyəti günümüzün tələblərinə cavab verə bilirmi?**

Bəri başdan deyək ki, bu məsələ mədəniyyətin inkişafına böyük önəm verən ölkə rəhbərliyinin daimi diqqətindədir. Cari ilin əvvəlində Prezident İlham Əliyevin imzaladığı sərəncamla “Azərbaycan Mədəniyyəti - 2040” Konsepsiyası təsdiq edilib. Bu sənəd qlobal və ölkədaxili çağırışlar nəzərə alınmaqla, Azərbaycanın milli kimliyinə əsaslanan müasir mədəniyyət modelinin yaradılması, inkişafı və 2040-cı ilədək digər mədəniyyətlərlə təmaslarının genişləndirilməsi üçün dövlət siyasətinin istiqamətlərini müəyyən edən strateji yol xəritəsidir.

Təbii ki, konsepsiya teatr sahəsinin reallıq və perspektivlərini də geniş şəkildə ehtiva edir. Paytaxtla bərabər, regionlarda teatr infrastrukturunun müasirləşdirilməsi, yerli yaradıcı potensialın dəstəklənməsi, bir sözlə, teatr həyatının daha da canlandırılması hədəflənir. Buraya, həmçinin teatrda rəqəmsallaşma, müasir səhnə texnologiyalarının tətbiqi, tamaşaların bütün sosial qruplar üçün əlçatanlığına nail olunması daxildir.

Konsepsiyadan irəli gələn vəzifələr Sumqayıt Dövlət Dram Teatrının da gündəmindədir. Bu teatr Azərbaycanın öncül səhnə sənəti ocaqlarından biridir və cəmiyyət arasında mənəvi-əxlaqi dəyərləri layiqincə təbliğ edir, insanların estetik zövqünün formalaşmasına töhfələr verir.

Sumqayıtlılar inişil martın 14-də gənclik şəhəri teatrının 55 illiyinin təntənə ilə qeyd edilməsini yaxşı xatırlayırlar. Bu yubiley həm də Sumqayıtın 75 illiyinə təsadüf etdiyi üçün truppa Firudin Məhərrəmlinin quruluşunda dramaturq Əli Əmirlinin “Sevgilim Sumqayıt” lirik-psixoloji pyesini səhnədə böyük uğurla canlandırdı. Sonda şəhər rəhbərliyi, nazirliyin nümayəndələri, ziyalılar yubiley münasibətilə kollektivi təbrik etdilər. Unudulmaz bir gün oldu.

Bu gün Sumqayıt teatrında həm ənənələrin yaşadılması, həm də inklüziv inkişaf modelinə keçidlə bağlı hansı konkret addımlar atılır və ya atılmalıdır? **Teatrın direktoru Samir Şəfiyevlə** bu suallar ətrafında söhbətləşdik, fikir mübadiləsi apardıq.



Samir müəllim mərhum kinoaktyor, “Əhməd haradadır” (Əhməd) və “Uşaqlığın son gecəsi” (Rüstəm) bədii filmlərnin baş qəhrəmanı kimi daha çox tanınan Əməkdar artist Səyavuş Şəfiyevin və onun bacısı - Əməkdar mədəniyyət işçisi, Heydər Əliyev Sarayının baş rejissoru olmuş Gülçöhrə Şəfiyevanın nəslindəndir. O, 2003-cü ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) rejissorluq fakültəsini bitirib. Xalq artisti Azərpaşa Nemətovdan və bir çox digər görkəmli sənətkarlardan dərs alıb. Bu teatrda rejissor assistenti və rejissor kimi fəaliyyət göstərib. Sonra Sumqayıtın ayrı-ayrı mədəniyyət müəssisələrinə rəhbərlik edib. 2024-cü ildən Sumqayıt teatrının direktorudur.

***– Samir müəllim, bildiyimiz kimi, Sumqayıtda peşəkar teatr 1968-ci ilin sentyabr ayında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə yaradılıb və Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Gənclər Teatrı kimi fəaliyyətə başlayıb. O dövrə qısa nəzər salsaq, nələri qeyd etmək olar?***

– Əlbəttə, bu, mədəniyyət adına şərəfli bir tarixdir. Səhnə pərdəsini 1969-cu il mart ayının 14-də milli dramaturgiyamızın banisi M.F.Axundovun “Müsyo Jordan və Dərviş Məstəli şah” (rejissor Cənnət Səlimova) məzhəkəsi ilə açan teatr, ertəsi gün tamaşaçılarını ingilis dramaturqu Con Patrikin “Qəribə missis Cəvic” tragikomediyası ilə sevindirib. 1974-cü ildə Mədəniyyət Nazirliyinin qərarı ilə Sumqayıt Dövlət Dram teatrı statusu alıb. Bir-birinin ardınca




bu teatra işləməyə gələn Xalq artistləri Barat Şəkinskaya, Rza Əfqanlı, Əliağa Ağayev, Məlik Dadaşov, Əməkdar artistlər Sadıq Həsənzadə və Məmmədcəfər Cəfərov gənc aktyorlara səhnə sirlərini öyrətməklə yanaşı, sanballı tamaşaların hazırlanmasında əllərindən gələni əsirgəməyiblər. “Toy” (S.Rəhman), “Müsibəti Fəxrəddin” (N.B.Vəzirov), “Maskarad” (M.Lermantov), “Arvadımın əri” və “Elbrus evlənir” (G.Xuqayev), “Tribunal” (A.Makayonak), “Solğun çiçəklər” (C.Cabbarlı), “Skapenin kələkləri” (Molyer) və s. məhz həmin illərin məhsuludur.

***– Teatrınız ölkəmizdə və dünyada da varlığını duydura bilib. Uğurlarınız isə layiqincə dəyərləndirilib.***

– Elədir. 1981-ci ildə Moskvada keçirilən Ümumittifaq teatr festivalında Nəriman Həsənzadənin “Bütün Şərq bilsin” əsərinin tamaşası ilə çıxış edən Sumqayıt teatrı və N.Nərimanovun obrazını yaradan Xalq artisti Məlik Dadaşov festivalın yüksək dərəcəli diplomlarına layiq görülüblər. O zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyev tamaşaya baxdıqdan sonra səhnəyə qalxaraq dərin bilikli bir teatrşünas kimi əsər haqqında müsbət fikirlərini bildirib və yaradıcı heyətə təbriklərini çatdıraraq yeni uğurlar diləyib. Bununla bağlı xatırə şəklini qiymətli yadigar kimi qoruyub saxlayırıq.

Yeri gəlmişkən, 2003-cü il aprel ayının 3-də Sumqayıt şəhərinə gələn Ümummilli liderimiz şəhərin fəalları qarşısındakı çıxışında da teatrın işini yüksək qiymətləndirib. Ulu öndərin verdiyi dəyərdən fərəhlənən kollektiv yeni tamaşalar üzərində daha böyük həvəslə işləyib. Bir-birinin ardınca hazırlanan M.Mayomenin “Lotoreya”, M.F.Axundovun “Hekayəti xırs quldurbasan”, N.Hikmətin “Bayramın birinci günü”, Ç.Aytmatovun “Ümid sahili”, H.Cavidin “Ana”, A.Babayevin “Xilaskar” tamaşaları məhz həmin dövrün məhsulladır.

Sumqayıt teatrının uğurlarında tanınmış rejissorların böyük zəhməti olub. Onlar fərqli dram əsərlərini səhnələşdirərək, tamaşaçı rəğbəti qazandırıblar. Tanınmış sənətkarlar Afaq Bəşirqızı, Valeh Kərimov, Əli Nur (bir müddət teatrın direktoru da olub), Vaqif Əliyev, Məzahir Süleymanov, Sabir Məmmədov və başqaları burada sanballı aktyor ansamblı yaradıblar. Dramatik və komik obrazları ilə tamaşaçı rəğbəti qazanmış Xalq artisti Valeh Kərimov, Əməkdar artist Növrəstə Haşımova və digərləri bu gün də teatrla sıx əlaqə saxlayır, sənətə xidmət edirlər. Elə bu yaxınlarda Valeh Kərimovun quruluşunda və baş rolda ifası ilə tatar dramaturqu Tufan Minnullinin “Sonuncu qonaq” tamaşası teatrsevərlərə təqdim olunub. Gənc istedadlı aktyorlar nəsli estafeti davam etdirir.

***– Amma əyalət mühitindən dünya arenasına doğru inamla irəliləyən teatrın uzun illər öz binası olmayıb...***

– Təəssüf ki, elə olub. Teatr kimya zavoduna aid olan bu binada 40 il kirayənişin kimi fəaliyyət göstərib. Nəhayət, 2008-ci ildə Prezident İlham Əliyevin tapşırığı ilə teatrın 40 illik yubileyində bina teatrın balansına keçirilib. Yaradıcı heyət bu qərarı böyük sevinclə qarşılayıb. 2016-cı ildə şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcovun dəstəyi ilə bina əsaslı təmir olunaraq yenidən qurulub. Dövlət başçımız həmin il Sumqayıta səfəri zamanı teatra da



baş çəkərək, görülən işlərlə tanış olub. Artıq 10 ildir ki, yaradıcı heyət normal şəraitdə səhnə əsərləri hazırlayıb təqdim edir və sumqayıtlılar tamaşaları hər cür rahatlıqla izləyə bilirlər.

***– Qastrollar, yaradıcılıq ezamiyyətləri də teatrın heyətinə stimul verirmi?***

– Əlbəttə. Hər bir yaradıcı kollektiv, hər bir truppa üçün qastrol çox vacibdir. Kollektivimiz vaxtaşırı səfərlərdə olur. Sumqayıt teatrı xarici ölkələrdə Azərbaycanı həmişə layiqincə təmsil edib. Onu da deyim ki, Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə teatrların regionlara ardıcıl qastrol səfərləri olur. Bu ünvanlara Bakı, Gəncə, Mingəçevir, Naxçıvan səhnələri daxildir.

Aktyor və rejissorlarımız 1990-cı ildən bu günə kimi Azərbaycan Teatr Xadimləri İttifaqının Mədəniyyət Nazirliyi ilə birgə davamlı olaraq keçirdiyi “Mono-tamaşalar” festivallarında da mütəmadi olaraq çıxış edib, mükafatlara, diplom və fəxri fərmanlara layiq görülüblər.

***– Sumqayıt səhnəsində oynanılan əsərlərin tamaşaçı axını “şkala”sı hansı aralıqda tərəddüd edir?***

– Mən buna axın deməzdim, amma maraq yüksəkdir. Əslində, Sumqayıt öz teatral mühiti olan şəhərdir. Yerli sənətsevərlər çox zövqlü tamaşaçılardır. Sadəcə, hazırkı texnologoyalar, onlayn internet şəbəkələri səbəbi ilə teatra üz tutanların sayı bir qədər azalıb. Bu da bilet satışı ilə bağlı müəyyən çətinliklər yaradır. Desəm ki, biz hər tamaşaya kütləvi surətdə xeyli bilet satırıq, düz olmaz. Amma daha çox tamaşaçı cəlb etmək üçün çalışırıq. Son vaxtlar teatrın sosial şəbəkə səhifələri, həmçinin yerli saytlar və şəhərin elektron monitorları vasitəsilə yeni səhnə əsərlərimizlə bağlı ictimaiyyəti məlumatlandırırıq.

Böyüklərlə yanaşı, məktəblilər, daha kiçik yaşlı uşaqlar hər zaman teatrımıza həvəslə gələrək tamaşaları izləyirlər. Biz də onların maraqlarını nəzərə alır və hər mövsümdə 1-2 yeni uşaq tamaşası hazırlayırıq.

***– Teatra gənc kadrların cəlb edilməsi barədə nə deyə bilərsiniz?***

– Bu məsələ Sumqayıt teatrı üçün də aktualdır. Teatrımız Bakının yaxınlığında yerləşən, mən deyərdim ki, paytaxt səviyyəsində olan mədəniyyət ocağıdır. Azərbaycanın aparıcı teatrlarında çalışan aktyorların böyük bir qismi Sumqayıt teatrında yetişənlərdir. Bu teatr, demək olar ki, bir baza rolunu oynayıb. Ancaq bütün teatrlar kimi, Sumqayıt Dövlət Dram Teatrının da gənc kadrlara ehtiyacı var.

2 ilə yaxındır ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbələrini teatra cəlb etmişik. Əsasən yerli kadrlara üstünlük verməyə çalışırıq. Hazırda ADMİU-da aktyorluq ixtisası üzrə təhsil alan 4-5 sumqayıtlı gənc bizim hədəfimizdədir. Bu barədə Mədəniyyət Nazirliyinə də məlumat vermişik. Həmin gənclər hazırlanan 4 tamaşanın 3-də rol alırlar. Bizim də istəyimiz odur ki, həmin tələbələri öz heyətimizə cəlb edək və teatrın gənclər heyətini daha da gücləndirək...

**Teatrın yaradıcılıq şöbəsinin müdiri, Xalq artisti Firudin Məhərrəmov** yaradıcı heyətin uğurlarını qeyd etməklə bəra-



bər, qayğılarını da dilə gətirdi.

Əsl teatr fədaisi olan Firudin müəllim ADMİU-da Xalq artisti Mehdi Məmmədovun kursunda təhsil alıb. Hələ o vaxtlar bir neçə tamaşaya quruluş verib və fərqlənib. “Mono-tamaşalar” festivallarının laureatı və diplomçusu olub. O, həmçinin 4 pyesin tərcüməçisi, 5 pyesin isə müəllifidir. Uzun illərdir ki, taleyini Sumqayıt teatrı ilə bağlayıb. Burada məhsuldar çalışmaqla yanaşı, Azərbaycanın bir çox teatrları ilə də yaradıcılıq əlaqələri saxlayıb. Akademik Milli Dram, Musiqili Komediya Teatrında, İrəvan, Mingəçevir, Füzuli, Lənkəran, Şuşa, Qazax teatrlarında tamaşalar hazırlayıb. 2011-ci ildə isə onun quruluşunda M.F.Axundovun “Müsyo Jordan və Dərviş Məstəli şah” əsəri oynanılmaqla Nyu-Yorkda Azərbaycan teatrının əsası qoyulub. Firudin Məhərrəmov iki dəfə “Qızıl dərviş” mükafatı alıb. Prezident mükafatçısıdır. Ötən il Teatr Xadimləri İttifaqının qızıl medalına layiq görülüb. Ona ilk sualımız ictimaiyyətin teatra münasibəti barədə oldu.

***– Firudin müəllim, uzun illərdir ki, bu teatrın rejissoru sahəsinə rəhbərlik edirsiniz. Görkəmli rejissorlar Nəsir Sadıqzadə, Ağakişi Kazımov, Vaqif Şərifov, Mərahim Fərzəlibəyov, Oruc Qurbanov, Yusif Əkbərov, Ağalar İdrisoğlunun burada yaratdıqları ənənələri layiqincə davam və inkişaf etdirirsiniz. Bəzən deyirlər ki, teatra maraq azalıb, mədəniyyətin bu sahəsi artıq əvvəlki təsir gücünə malik deyil. Bununla bağlı fikirlərinizi bilmək istərdik.***

– Bu yanaşma ilə razı deyiləm. Teatr canlı sənət növüdür və onun gücü birbaşa tamaşaçı ilə qurulan ünsiyyətdədir. Əgər bu ünsiyyət düzgün qurulursa, teatrın yaşaması və inkişafı da daimidir. Bu gün bunu sübut edən tamaşalarımız və həmin tamaşalara maraqla baxan, emosional reaksiya verən tamaşaçılarımız var. Hazırda teatrımızın repertuarında böyüklər üçün 25, uşaq və yeniyetmələr üçün isə 10 tamaşa yer alır. Bu əsərlər tamaşaçı sınağından uğurla keçib və müsbət rəylər qazanıb. Hətta bir qismi beynəlxalq festivallarda nümayiş olunaraq yüksək qiymətləndirilib.

Balanslaşdırılmış repertuar siyasətinə ciddi riayət edilməsi də əsas şərtdir. Bizim teatrın “güzgü”sünə baxsaq, klassik və müasir Azərbaycan, rus və xarici ölkə dramaturqlarının çeşidli pyeslərini görərik. Mövcud olduğu yarım əsrdən artıq müddətdə teatrımız Azərbaycan və dünya klassiklərinin 250-dən artıq əsərini uğurla tamaşaya hazırlamışdır.

***– Bəs, cari problemlər nədən ibarətdir?***

– Teatrın fəaliyyətinə təsir edən obyektiv çətinliklər yox deyil. Xüsusilə, maddi-texniki bazanın məhdudluğu inkişaf prosesinə təsirsiz ötüşmür. Dekorasiyaları sürətlə dəyişmək, səhnədə dinamik hərəkət effektləri yaratmaq üçün fırlanan səhnə texnikasının daha da müasirləşdirilməsi, əlbəsə (geyim) təminatı və daha zəngin işıq effektlərinə ehtiyac var. Bundan başqa, il ərzində yeni tamaşaların hazırlanması, binanın kommunal xərcləri, reklam və PR fəaliyyəti kimi istiqamətlər teatr üçün ciddi maliyyə yükü yaradır. Bu səbəbdən repertuarın davamlı işləməsi və tamaşaçı axınının sabit saxlanılması zəruridir.

Sovet dövründə teatrların bütün tamaşa xərcləri dövlət tərəfindən qarşılanırdı. İndi isə sistem dəyişib və teatrlar öz xərclərini əsasən özləri qarşılamağa çalışır. Bir çox ölkələrdə isə teatrlara dövlət dəstəyi – tamaşa və kommunal xərclərin qarşılanması – hələ də tətbiq olunur və bu, onların fəaliyyətini xeyli asanlaşdırır.

Bu gün əsas çətinliklərdən biri bilet satışıdır. Məsələ tamaşalara marağın olmaması deyil, daha çox bu prosesin sistemli şəkildə təşkil edilməməsidir. Əlbəttə, teatra getmək könüllülük məsələsidir, amma burada təşkilatçılıq da lazımdır. Baxın, Sumqayıtda 40-dan çox məktəb fəaliyyət göstərir, lakin təhsil ocaqlarının, şagirdlərin teatrla əlaqəsi, demək olar ki, sistemli şəkildə qurulmayıb, ya da müntəzəm deyil. Əgər uşaq və yeniyetmələr teatrdan uzaq düşərlərsə, bu, onların mədəni zövqünün və dünyagörüşünün inkişafına mənfi təsir edər, natamamlıq kompleksi yaradar.

***– Bildiyimiz qədəri ilə Sumqayıt Dövlət Dram Teatrı 34 ildir ki, 2-ci dərəcə kateqoriyası ilə fəaliyyət göstərir...***

– Təəssüf ki, belədir. Teatrımız 57 illik zəngin tarixi olan sənət ocağıdır və bu müddət ərzində həm rəngarəng repertuarı, həm də yaradıcı kollektivin gücü ilə Azərbaycan teatr məkanında özünəməxsus mövqe formalaşdırıb. Buna baxmayaraq, hələ də 2-ci dərəcə kateqoriyasına aidik. Bu isə mədəniyyət müəssisələri praktikasında olduqca nadir hallarda rast gəlinən haldır. Əvvəlki dövrlərdə, xüsusilə, teatrın 40 illik yubiley zamanı bu məsələ ilə bağlı müsbət fikirlər səsləndirilmiş və yaxın zamanda həll ediləcəyi bildirilmişdi. İnanırıq ki, tezliklə Sumqayıt teatrı layiq olduğu 1-ci kateqoriya statusunu əldə edəcək. Bu, həm kollektivimizin motivasiyasına, həm də ümumi yaradıcılıq mühitinə çox müsbət təsir göstərəcək.

***– Sumqayıt teatrının aktyor və aktrisalarını tez-tez teleseriallarda görmək mümkündür. Bu mənada, teatr onlara necə şərait yaradır?***

– Azərbaycanda aktyoruna ən çox şərait yaradan, bəlkə də elə bizim teatrdır. Mən özüm vaxtilə serial sahəsində çalışmışam. Daha dəqiq desəm, serialların ssenari qrupunda yer almışam. Ona görə proseslərə yaxşı bələdəm. Biz aktyorların film və serial çəkilişlərində iştirakını qətiyyən məhdudlaşdırmırıq. Ancaq gərək teatrın da iş prosesi pozulmasın. Bəzən özümüz zəng edib çəkiliş qrupu ilə danışırıq ki, planı elə quraq, bu işlər teatrın məşqlərinə mane olmasın. Bu məsələdə aktyorun qarşısını kəsmək düzgün deyil. Onun çörəyinə bais olmaq olmaz.

***– Dediyiniz kimi, çətinliklər var, amma buna baxmayaraq, Sumqayıt teatrının kollektivi yaradıcılıq fəaliyyətini əzmlə davam etdirir, yeni layihələr həyata keçirir...***

– Bəli, ötən il start verdiyimiz “Heç kəs yaddan çıxmır, heç nə unudulmur” layihəsi çərçivəsində Vətən uğrunda şəhid olmuş qəhrəmanlara həsr edilən tamaşaların hazırlanmasına başlanılıb. Daha öncə Zəfər Gününə həsr olunan “Missiya” tamaşasının uğurlu səhnə təqdimatı olmuşdu. Bu layihənin ilk işi isə Birinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərmiş, Alban kilsəsində 5 gün təkbaşına düşmənə qarşı vuruşmuş və ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Milli Qəhrəman adına layiq görülmüş Natiq Qasımovun həyatına həsr olunan “Ölməz” tamaşasıdır. Tamaşanın müəllifi Elşən Sərxanoğlu, quruluşçu rejissoru mənəm. Qəhrəmanın obrazını isə istedadlı aktyorumuz Elay Xasıyev canlandırır.

Tamaşa indiyədək Sumqayıt səhnəsində dəfələrlə nümayiş olunub və böyük maraqla qarşılanıb. Eyni zamanda, Heydər Əliyev Fondunun dəstəyi və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Mingəçevir şəhərində də oynanılıb. Tamaşadan sonra mədəniyyət nazirinin müavini Murad Hüseynov çıxışında əsərin ölkənin bütün bölgələrində və türkdilli ölkələrdə göstərilməsinin vacibliyini vurğulayıb.

Bu layihə teatrımız üçün həm yaradıcılıq, həm də mənəvi baxımdan mühüm hadisədir. Növbəti tamaşaların da üstümüzdə haqqı olan digər şəhidlərimizə həsr olunması planlaşdırılır.

***– Yaradıcı kollektivinizə çətin və şərəfli işində yeni uğurlar arzulayırıq. Qoy, əyalət mühitindən başlayaraq dünya arenasına gedib çatan səsiniz, sorağınız daha gur eşidilsin!***

***Əli NƏCƏFXANLI***
***XQ***



*1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür*

# Dünyanın uşaqları – uşaqların dünyası



**1 İyun bəşəriyyətin ən dəyərli bayramlarından biri – Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür. Uşaq olmaq nağıllarla böyümək, hər an möcüzə axtarmaq və həyata sonsuz etibarla bağlanmaqdır. Onların xəyal dünyası sərhəd tanımır, qəlbləri isə yalnız sevgi ilə döyünür. Dünyanın ən böyük kəşfləri, ən füsunkar sənət əsərləri belə körpələrin daxili aləmindəki bənzərsiz paklığın yanında solğun görünür. Onlar Yer üzünün bəzəyi, ömrün ən şirin töhfəsidir.**

Ulu öndər Heydər Əliyev deyirdi: "Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır". Ümummilli liderin bu müdrik kəlamı ölkəmizdə Uşaqların Beynəlxalq Müdafiəsi Gününün mahiyyətinə verilən yüksək ali və mənəvi dəyərin bariz ifadəsidir.

Bu gün müstəqil dövlətimizin uşaq-gənclər siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsləri ilə uşaqlar keyfiyyətli təhsil və yüksək dünya standartlarına cavab verən tibbi xidmətlərlə təmin edilir, hərtərəfli qayğı ilə əhatə olunurlar.

Hər il olduğu kimi, bu il də 1 İyun yurdumuzda böyük coşqu və rəngarəng mərasimlərlə qarşılandı. Əlamətdar gün münasibətilə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi azyaşlı qonaqlar üçün silsilə bayram şənlikləri təşkil etdi. Tarixi küçələrin uşaq gülüşlərinə büründüyü, nağıl personajlarının qədim mühitə xüsusi rəng qatdığı bu möhtəşəm tədbir çərçivəsində biz də uşaqlarla və valideynlərlə həmsöhbət olduq.

**Aynurə SEYİDZADƏ, valideyn:**



– Övladlarımızın simasında sevinc, gözlərində işıq görmək hər bir valideyn üçün böyük xoşbəxtlikdir. Arzum budur ki, dünyadakı bütün körpələr hər zaman sevgi, sülh və əmin-amanlıq içində böyüsünlər, qəlblərindəki inamı heç vaxt itirməsinlər. Bizə bu gözəl bayramı, unudulmaz anları yaşadan, övladlarımızın sevincinə vəsilə olan hər kəsə minnətdaram.

**Dəniz HÜSEYNOVA, məktəbli:**



– Bu gün mənim üçün ilin ən əziz günüdür. Çünki hər tərəf rəngbərəng şarlarla bəzədilib, hamı bizə gülümsəyir. Arzu edirəm ki, dünyadakı bütün uşaqlar hər gün belə sevinsinlər, heç vaxt ağlamasınlar və həmişə xoşbəxt olsunlar.

**Natəvan XANKİŞİYEVA, Respublika Diaqnostika Mərkəzinin baş tibb bacısı:**



– Uşaqların cansağlığı və gümrahlığı bəşəriyyətin gələcək təminatıdır. Bu bayram günündə biz də tibb işçiləri olaraq azyaşlı qonaqlarımız üçün pulsuz müayinələr təşkil etdik, onların səhhəti ilə maraqlandıq. Müayinələr zamanı, təəssüf ki, 100-dən çox uşaqda müxtəlif sağlamlıq problemləri aşkarladıq. Lakin valideynlər tam arxayın olsunlar, biz həmin uşaqların hər biri ilə bundan sonra da yaxından maraqlanacaq, müalicə proseslərini diqqətdə saxlayacağıq. Çünki hər bir uşağın sağlam böyümək haqqı var. Arzum odur ki, heç bir körpə xəstəlik acısı çəkməsin, hər birinin sabahı şəfalı və aydın olsun. Onların üzündəki təbəssüm bizim bu yoldakı zəhmətimizin ən ali mükafatıdır.

**Nəzrin RZAZADƏ, məktəbli:**



– 1 İyun gələndə, sanki, dünya daha da gözəlləşir. Burada keçirilən oyunlar, hazırlanan ustad dərsləri mənə nağıllar aləmini xatırladır. Qəlbimiz sevgi ilə döyünür və göstərilən diqqət bizi çox sevindirir.

**Sevinc VERDİYEVA, valideyn:**



– Bir ana üçün dünyada övladının gələcəyindən daha önəmli duyğu yoxdur. Çünki hər bir ana övladının simasında bütöv bir nəslin gələcək ümidlərini görür. Bir körpənin sevgi və şəfqətlə böyüməsi, gələcəkdə cəmiyyətə xeyirli, qəlbi insanlıq sevgisi ilə döyünən bir fərd olaraq yetişməsinin ən birinci şərtidir. Bütün uşaqlara gözəl, parlaq və uğurlu tale arzulayıram.

**Şahin HÜSEYNOV, məktəbli:**



– Mən bu gün burada özümü çox şən və sərbəst hiss edirəm. Çoxlu maraqlı yarışlarda iştirak etdim, yeni dostlar qazandım. Gələcəkdə hərbçi olmaq istəyirəm və arzum budur ki, dünyada heç vaxt müharibələr olmasın, bütün uşaqlar dinc səma altında qorxusuz yaşasınlar.

**İnci RƏSULZADƏ, məktəbli:**



– Bugünkü bayram şənliyi mənə ən böyük töhfə oldu. Çoxlu hədiyyələr aldıq, dadlı təamlar daddıq. Biz uşaqları sevindirən, belə gözəl şərait yaradan hər kəsə təşəkkür edirəm. Arzu edirəm ki, bizim bu təmiz dünyamız həmişə rəngbərəng və işıqlı qalsın.

***Fidan ƏLİYEVA,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Bakı Zooloji Parkında bayram tədbiri



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 1 İyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Bakı Zooloji Parkında "Gələcək uşaqlara məxsusdur" adlı ənənəvi bayram şənliyi keçirilib.**

Bakı Abadlıq Xidmətinin dəstəyi ilə təşkil olunan şənlikdə 1, 2 və 3 saylı uşaq evlərindən, eləcə də müxtəlif uşaq inkişaf mərkəzləri və bağçalardan ümumilikdə 250-dən çox uşaq iştirak edib.

Tədbir çərçivəsində uşaqlar üçün əyləncəli və maarifləndirici proqram təqdim olunub. Zooloji Parkın müxtəlif guşələrində təşkil edilən müsabiqələr və oyunlar balacaların böyük marağına səbəb olub. Sehrbazların çıxışları və cizgi film qəhrəmanlarının iştirakı isə şənliyə xüsusi rəng qatıb.

Bayram tədbirində uşaqların yaradıcılıq bacarıqlarını nümayiş etdirməsi üçün də şərait yaradılıb. Balacalar rəsm çəkmə, ekoçantaların bəzədilməsi, gips fiqurların rənglənməsi kimi müxtəlif ustad dərslərində fəal iştirak ediblər.

Tədbirin əsas istiqamətlərindən biri də ekoloji maarifləndirmə olub. Bakı Zooloji Parkının lektoriyasında uşaqlara heyvanların həyat tərzini əks etdirən animasiyalar nümayiş etdirilib, onların biologiyası və davranış xüsusiyyətləri barədə maraqlı təqdimatlar keçirilib. Açıq hava ekskursiyası zamanı isə uşaqlar heyvanların xarici quruluşu, yaşayış mühiti və həyat şəraiti haqqında əyani məlumatlar əldə ediblər.

Təbiətə məsuliyyətli münasibətin formalaşdırılması və heyvanlara qarşı mərhəmət hissinin aşılanması məqsədilə uşaqlara bəzi heyvanlarla birbaşa təmasda olmaq, onları bəsləmək və qulluq etmək imkanı yaradılıb.





Tədbir çərçivəsində IDEA Heyvanlara Qayğı Mərkəzinin təşkilatçılığı ilə himayə guşəsi də fəaliyyət göstərib. Burada uşaqlara küçə heyvanlarına qayğı göstərməyin əhəmiyyəti barədə məlumat verilib, onlarda canlılara sevgi və məsuliyyət hissinin gücləndirilməsi təşviq olunub.

Bayram şənliyi uşaqların sevinc dolu anları, əyləncəli fəaliyyətləri və maarifləndirici proqramı ilə yadda qalıb.

***XQ***

# Xankəndi uşaq sevincinə bürünmüşdü

**Dünən dünyanın harasında yaşamasından asılı olmayaraq xalqların öz sabahını etibar edəcəyi uşaqların bayramı idi. Bu bayramdan onların nə qədərinə pay düşmüşdü, görəsən? Çalxalanan planetimizdə neçə faiz uşağın üzü gülürdü, hüquqları beynəlxalq səviyyədə müdafiə edilirdi? Onların hamısına, bir günlük də olsa, müharibələrsiz, qansız-qadasız, səfalətsiz dünya bəxş etmək, doğrudanmı mümkün deyil?**

Dünən azad Xankəndidəki parkda 3 uşaq oynayırdı. O yan-bu yana qaçan, yelləncəkdə yellənən, əylənən, sevinc dolu səsləri, şən gülüşləri ətrafa yayılan 9 yaşlı Damla, 7 yaşlı Mərd və 2 yaşlı Ayaz elə xoşbəxt görünürdülər ki, yanlarından eləcə keçib getmək, onlara qoşulub uşaqlaşmamaq, şirin dillərindən nəsə eşitməmək mümkünsüz idi!

Damla və Mərd Xankəndiyə olan sevgilərini ifadə etdilər, bir müddətdir yaşadıqları şəhəri tərifl ədilər. Bir də dedilər ki, məktəbə gedirik, yaxşı oxuyuruq. Məktəbimiz gözəldir, müəllimlərimiz çox mehribandırlar.

Ayazsa hələ yaxşı danışa bilmir, təzəcə tək-tək sözlər deməyi öyrənib. Danışsaydı, yəqin, deyərdi ki, yaşım az olsa da, bu Vətən torpağının neçə-neçə qəhrəman əmilərin, dayıların qanları bahasına azadlığına qovuşduğunu bilirəm. Nənələrin, babaların bu müqəddəs yerlər üçün göz yaşı axıtdıqlarından, illər boyu yurd həsrətindən qovrulduqlarından, inim-inim inlədiklərindən xəbərim var. Deyərdi ki, bir vaxtlar günahsız həmyaşıdlarımı vəhşiləşmiş, insan qanına susamış erməni cəlladları elə bu torpaqlarda qətlə yetiriblər, zülmə, işgəncəyə məruz qoyublar.



Və bir də deyərdi ki, mən azad, müstəqil, suveren Azərbaycanımızın qayğısız övladı kimi böyüyəcəyəm. İndi biz uşaqlar üçün təkcə təqvimin 1 iyunu deyil, hər gün bayramdır!

Dünən uşaqları, əsl sahibləri həyətlərindən birindəki parkda oyunlar oynayan Xankəndinin səması da tərtəmiz, masmavi idi. Daha şəhid ruhlarının razılıqla gülümsədiyi göylər top atəşlərindən qaralmır, hava barıt deyil, azadlıq qoxuyur. Daha on minlərlə uşaq atasız, valideynlər övladsız, bacılar qardaşsız, gənc qadınlar ərsiz qalmaq qorxusu yaşamırlar.

Çox şükür, qalib Azərbaycanımızın işğaldan azad edilən hər qarışına yenidən həyat qayıdır, Qarabağımız, Şərqi Zəngəzurumuz gündən-günə dirçəlir, inkişaf edir. Xankəndidə, Xocalıda, Şuşada, Kəlbəcərdə, Laçında, Ağdamda, bir sözlə, mənfur yağı tapdağından xilas etdiyimiz bütün tarixi yurd yerlərimizdə qayğısız böyüyən sevimli balacaların, şirin fidanların dərdsiz gülüşləri isə bu torpaqların azadlığı naminə çəkilən bütün əziyyətlərin ən böyük mükafatıdır. Dünya birliyinin adınıza ərməğan etdiyi uşaq gününüz mübarək! Siz hüquqları təmin edilmiş, azad Vətənin azad övladlarısınız!

* * *

**Dünən Xankəndi şəhərində 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə müxtəlif şənliklər keçirildi.**

Azərbaycan Futbol Federasiyaları Assosiyasiyasının (AFFA) Sosial və Ətraf Mühit Dayanıqlılığı Şöbəsinin təşkilatçılığı və AFFA hakimlərinin dəstəyi ilə Xankəndidə keçirilən sosial aksiya çərçivəsində şəhərdə yerləşən 1 nömrəli körpələr evi-uşaq bağçasının bu il birinci sinfə gedəcək uşaqlarına məktəb ləvazimatlarından ibarət hədiyyələr təqdim edildi. Mərasimdə AFFA-nın Sosial və Ətraf Mühit Dayanıqlığı Şöbəsinin rəhbəri Kifayət Mustafayeva uşaqların təhsil və rifahının dəstəklənməsinin vacibliyini vurğuladı.



Hədiyyələri təqdim edən beynəlxalq dərəcəli baş hakim Əliyar Ağayev və beynəlxalq dərəcəli köməkçi hakim Gülnurə Əkbərzadə də uşaqları təbrik etdilər. Aksiya uşaqların təhsilə hazırlığının dəstəklənməsi və onların bayram sevincinin bölüşülməsi məqsədilə təşkil olunub.

* * *

**Həmin gün Səhiyyə Nazirliyinin K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun ixtisaslı həkimləri Xankəndinin balaca sakinlərini tibbi müayinədən keçirildi.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən XQ-yə bildirilib ki, işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" proqramı çərçivəsində sağlam həyat tərzinin təşviqi məqsədilə təşkil edilən humanitar aksiyanın məqsədi Xankəndidə yaşayan uşaqların sağlamlığının qorunması, xəstəliklərin erkən aşkarlanması, profilaktik tədbirlərin gücləndirilməsi və ixtisaslaşmış tibbi xidmətlərin göstərilməsidir.

İnstitutun əməkdaşları 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bayram tədbiri də keçirdilər. Uşaqların sevinc dolu anlar yaşaması, onların bayram əhval-ruhiyyəsini hiss etməsi üçün xüsusi proqram təqdim edildi. Xankəndi şəhəri Nizami Gəncəvi adına 4 saylı tam orta məktəbdə uşaqlara müxtəlif hədiyyələr paylandı. Sonda havaya sülh və əmin-amanlıq nişanəsi olan ağ və mavi şarlar buraxıldı.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**

# NATO ABŞ olmadan yaşaya bilərmi?

**“NATO blokuna daxil olan Avropa ölkələri ABŞ-ın Şimali Atlantika Alyansından çıxa biləcəyi ssenariyə hazır olmalıdırlar”. Britaniyanın “The Telegraph” qəzeti hələ 2024-cü ilin martında, “NATO ölkələrindən olan diplomatlara” istinadən belə bir xəbərdarlıq etmişdi və Donald Trampın prezident seçkilərində qalib gələcəyi təqdirdə, bunun baş verə biləcəyini bildirmişdi. O tarixdən bu günə beynəlxalq siyasətdə bir çox hadisələr baş verib və onlardan da ən əsası Trampın ABŞ prezidenti seçilməsi, onun NATO ilə bağlı “The Telegraph”ın yaydığı xəbərdarlığı doğrulaya biləcək bir çox sərt bəyanatlarla çıxış etməsidir. Müxtəlif siyasi dairələrdə və ekspertlər arasında bu mümkün ssenari haqqında ciddi müzakirələr bir gün belə səngimir.**

Trampın hələ ilk prezidentlik müddəti ərzində ABŞ-ın NATO-da iştirakı məsələsi müntəzəm olaraq Amerika və Avropa arasında qızğın ictimai fikir ayrılıqları mövzusuna çevrilirdi. Qərb mediası müntəzəm olaraq Alyansın qaranlıq perspektivləri və hətta Prezident Trampın hərbi blokdan tamamilə çıxmaq istəyi barədə şayiələr yayırdı. Buna baxmayaraq, Tramp bu cür məlumatları açıq şəkildə təkzib edirdi. Lakin Tramp administrasiyası tərəfindən qəbul edilmiş ABŞ-ın Milli Təhlükəsizlik Strategiyasında avropalılarda Amerikanın müttəfiqlik öhdəliklərini yerinə yetirməyə davam etmək istəyinə dair şübhələri daha da artıran bir sıra müddəalar var idi. Tramp ardıcıl vurğulayırdı ki, müttəfiqlər ABŞ-ın dəstəyinə görə “ödənişlər etməlidirlər”.

Yəni Donald Tramp Ağ Evə gələn ilk gündən ABŞ-ın NATO-ya və Şimali Atlantika Qarşılıqlı Müdafiə Müqaviləsinin 5-ci maddəsinə sadiq qalmasının məqsədəuyğunluğunu şübhə altına alırdı. Bu açıqlamalar Avropanın aparıcı dövlətlərinin liderlərini özlərini necə müdafiə edəcəkləri barədə düşünməyə məcbur etməyə bilməzdi. 2019-cu ildə Fransa prezidenti Makron NATO-nun “beyninin öldüyünü” elan etdi və Avropanın “strateji muxtariyyəti” ideyasını – AB-nin maraqları Amerikanın maraqlarından fərqlənərsə, müstəqil hərəkət etmək qabiliyyətini dirçəltməyə çalışdı. Hətta ABŞ-ın İsraillə birgə İrana qarşı hərbi əməliyyatlara başlamasından və Avropa Birliyi dövlətlərinin bu münaqişədə tərəfsiz qalmasından sonra vəziyyət daha da gərginləşdi və Trampın sərt qınağı ilə qarşılaşan NATO müttəfiqləri arasında Avropa ordusu yaratmaq kimi uzun müddət davam edən ideya ətrafında söhbətlər yenidən başladı.

Tarixə baxsaq, görərik ki, Vaşinqtonun NATO üzvlərinin kollektiv hərbi xərclərin “ədalətli” payını ödəmədikləri təqdirdə, ABŞ “Köhnə dünya”dakı hərbi mövcudluğunu ən azı əhəmiyyətli dərəcədə azaltmaqla bağlı təhdidləri “Soyuq müharibə” dövrünə gedib çıxır. 1970-ci illərin ortalarından bəri, demək olar ki, hər bir ABŞ prezidenti bu və ya digər şəkildə avropalıları hərbi xərcləri artırmağa məcbur etməyə çalışıb. Macarıstanın artıq keçmiş Baş naziri Viktor Orban, hələ Ağ Evə qayıtması son dərəcə gərgin və proqnozlaşdırılması çətin olan seçki kampaniyası ilə üzləşən Trampla şəxsi iqamətgahında görüşəndən sonra bildirmişdi ki, “Tramp avropalıların əvəzinə Avropa üçün təhlükəsizlik təmin etmək istəmir, onlar ya bunun üçün pul ödəməli, ya da öz ordusunu yaratmalı olacaqlar”.

Lakin indi tamamilə fərqli vəziyyət yaranıb və Avropa özünü müstəqil müdafiə etmək haqqında düşünmək məcburiyyəti ilə üzləşib. Doğrudur, opponentlər arasında müstəqil Avropa müdafiə siyasətinin qeyri-real olduğunu deyənlər və hamını buna inandırmağa çalışan alyans tərəfdarları da var. Məsələn, Polşa, eləcə də Şimali və Mərkəzi Avropanın əksər ölkələri iddia edirlər ki, ABŞ-ın gözlənilməz bir prezidenti ilə işləmək nə qədər çətin olsa belə, hərbi cəhətdən zəif Avropa müttəfiqlərinə güvənməkdən daha üstündür. İtaliya və İspaniya kimi bəzi Aİ ölkələri isə “başlarını kolda gizlətməyə” çalışaraq, hərbi ehtiyaclara mümkün qədər az pul xərcləmək istəyirlər. Amma Macarıstanın keçmiş Baş naziri Viktor Orban və Slovakiyanın Baş naziri Robert Fitso da daxil olmaqla bəzi praqmatistlər Moskva ilə konstruktiv münasibətlər qurmağı təklif edirlər. Əslində, “hərbi müstəqillik” məsələsi çox ciddi problemə gətirib çıxarır: Avropa, ABŞ olmadan silahlı qüvvələrini formalaşdıra, silahlandıra və dəstəkləyə biləcəkmi?

NATO-nun Baş katibi Mark Rutte, bu il yanvarın 26-da Avropa Parlamentinin Müdafiə və Xarici İşlər Komitələrinin üzvləri ilə görüşdə bildirmişdi ki, Avropa yaxın gələcəkdə ABŞ-ın köməyi olmadan özünü müdafiə edə bilməyəcək. “Əgər burada kimsə düşünürsə ki, Avropa Birliyi və ya bütövlükdə Avropa ABŞ olmadan özünü müdafiə edə bilər, o zaman xəyal qurmağa davam edin. Bu, işə yaramayacaq”, - deyə “AFP” agentliyi Ruttenin çıxışından sitat gətirmişdi. Bu baxımdan, o, ABŞ-ın nüvə çətirini Avropanın “azadlığının əsas qarantı” adlandırmış və onun mövqeyini bölüşməyənlərə “uğurlar” arzulamışdı.

Aydın məsələdir ki, müzakirələr yenə gəlib üzvlük haqqının məbləğinə dirənirdi. Rutte qeyd edirdi ki, “ABŞ Kanada və özünün Alyansdakı müttəfiqləri qədər NATO-da maraqlıdır. Avropa və Kanada öz təhlükəsizlikləri üçün üzərlərinə daha çox məsuliyyət götürsəydilər, bu, ədalətli və məqsədəuyğun olardı. Xoş xəbər budur ki, onlar bunu edirlər", - deyə NATO-nun baş katibi qeyd etmişdi. Ruttenin sözlərinə görə, əgər Avropa həqiqətən “müstəqil hərəkət etmək” istəyirsə, onda hər bir ölkənin müdafiə xərcləri, NATO üzvlərinin 2025-ci ilin iyun ayında razılaşdığı kimi, ÜDM-in 5 faizi qədər deyil, 10 faizi qədər artırılmalıdır.

Rutte ABŞ prezidenti ilə görüşlərindən sonra vahid Avropa ordusunun yaradılması ideyasını tənqid etmişdi. Milli silahlı qüvvələrə əlavə olaraq belə bir birliyin yaradılması “çoxsaylı təkrarlanan strukturların” yaradılmasına səbəb olacaq ki, bu da “vəziyyəti çətinləşdirəcək”. O, hətta Rusiya Prezidenti Vladimir Putinin NATO-dan kənarda Avropada vahid ordunun yaradılmasını görməkdən “məmnun olacağı” barədə xəbərdarlıq edirdi.

Amma məsələ burasındadır ki, 2025-ci ildə Ağ Evə qayıdan Tramp, Avropa ölkələri üçün Amerika təhlükəsizlik zəmanətləri ilə bağlı daha sərt mövqe tutmaqla kifayətlənmədi. Tramp daha da irəli getdi: bu ilin yanvar ayında ABŞ prezidenti NATO üzvü olan Danimarkanı Qrenlandiyanın “nəzarətini ələ keçirməklə” hədələdi. Aprelin sonlarında isə məlum oldu ki, Tramp Almaniya kansleri Mertsin onun İrandakı hərəkətlərinə qarşı tənqidindən qəzəblənərək təxminən 5 min Amerika əsgərinin Almaniyadan çıxarılması ilə bağlı Pentaqona planlarını hazırlamağı əmr edib



və Almaniyada qanadlı raket qüvvələrinin yerləşdirilməsi qərarını ləğv edib.

Avropada belə diskussiyalar davam etdiyi və Avropa İttifaqının militarizasiyası fonunda NATO-nun keçmiş baş katibi Yens Stoltenberq İsveçin “SVT” televiziya kanalına verdiyi müsahibədə bildirib ki, “NATO ABŞ olmadan yaşaya bilməz və AB ittifaq rolunu yerinə yetirə bilməz. Mən AB-yə böyük hörmət edirəm, amma inanmıram ki, AB ümumi təhlükəsizlik və müdafiə zəmanətləri məsələlərində NATO-nu əvəz edə bilsin”.

Görünür, artıq “ox yaydan çıxıb”. Dövlət katibi Marko Rubio mayın əvvəlində İsveçdə NATO xarici işlər nazirlərinin görüşünə gedərkən bildirib ki, avropalıların ABŞ-ın İrana qarşı müharibəsini dəstəkləməkdən imtina etməsindən sonra “ABŞ administrasiyası müttəfiqləri ilə məsləhətləşmələrdə NATO-da iştirak məsələsini qaldırmağı ədalətli hesab edir”. Mayın 26-da isə Almaniyanın “Der Spiegel” qəzeti ABŞ səfirinin bu yaxınlarda NATO qərargahında keçirdiyi brifinq zamanı ABŞ-ın böhranda Avropa müttəfiqlərinə kömək etmək üçün yerləşdirməyə hazır olacağı hərbi potensialı əhəmiyyətli dərəcədə azaltmaq planlarını açıqlayıb. Yerləşdiriləcək bu hərbi potensial kifayət qədər əhəmiyyətli görünür. Bu plan, strateji bombardmançı və qırıcı təyyarələrin, pilotsuz uçuş aparatlarının, hərbi gəmilərin və yanacaqdolduran təyyarələrin sayının əhəmiyyətli dərəcədə azaldılmasını əhatə edir. Hətta sualtı qayıqların verilməsindən tamamilə imtina edilir.

“The Economist” jurnalının son sayında iddia olunur ki, Tramp administrasiyasının bu cür “şokedici” bəyanatları və hərəkətləri fonunda bəzi NATO üzvləri Amerikanın “Rusiya ilə müharibədən kənarda” qalacağından deyil, həm də digər ittifaq üzvlərinin cavab tədbirlərinə mane ola biləcəyindən qorxurlar. Bu ehtimal hələ mümkün hesab edilməsə də, bir neçə NATO ölkəsinin yüksək vəzifəli zabitləri və müdafiə strukturlarının rəsmiləri ilə müsahibələr ilk dəfə olaraq bu riski nə qədər ciddi qəbul etdiklərinə diqqət çəkib. Avropa ordularının bir sıra rəhbərləri, təkcə Amerikanın köməyi olmadan deyil, həm də NATO-nun komandanlıq və nəzarət infrastrukturunun əhəmiyyətli bir hissəsi olmadan, hərbi əməliyyatlar aparmaq üçün gizli planlar hazırlayırlar.

Ümumilikdə, Trampın ilk və hazırkı müddətinin təcrübəsi və Moskvanın həyati maraqlarını müdafiə etmək əzmindən qorxan Avropa İttifaqı son illərdə hərbi potensialını artırmaq üçün görünməmiş addımlar atıb. Lakin struktur, siyasi və hərbi-texniki reallıqların təhlili göstərir ki, yaxın gələcəkdə AB Avropada təhlükəsizliyin qarantı kimi NATO-nu əvəz edə bilməz. Əsas hərbi sahələrdə ABŞ-dan davamlı asılılıq, müdafiə səylərinin parçalanması və vahid kollektiv müdafiə mexanizminin olmaması “Avropa ordusu” anlayışını mümkün layihədən daha çox siyasi şüara çevirir.

Əvvəla, iki təşkilatın funksional məqsədlərindəki fundamental fərqi qəbul etmək lazımdır. NATO tarixən Vaşinqton Müqaviləsinin 5-ci maddəsində təsbit edilmiş vahid, inteqrasiya olunmuş komandanlıq strukturu və birmənalı təhlükəsizlik zəmanətləri olan hərbi ittifaq kimi yaradılmışdır. Avropa İttifaqı isə əksinə olaraq iqtisadi və siyasi layihə kimi inkişaf etmiş və onun hərbi ölçüsü - Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (ÜMTS) uzun müddət ikinci dərəcəli olmuşdur.

Digər tərəfdən, NATO planetin ən böyük hərbi-siyasi ittifaqı olsa da, faktiki olaraq, bu alyans öz silahlı qüvvələrinə malik deyil və üzv dövlətlər tərəfindən təmin edilən bölmələrə, o cümlədən xüsusi olaraq yaradılmış çoxmillətli briqadalara, korpuslara və digər qüvvələrə güvənir. Alyansın özü qərargah sisteminin fəaliyyətinə, qarşılıqlı əlaqələrin təşkilinə və böhran vəziyyətlərində komandanlığa cavabdehdir.

Bu səbəbdən fundamental məhdudiyyət Avropa ölkələrinin Amerika hərbi imkanlarından davamlı və orta müddətdə düzəlməz asılılığıdır. Beynəlxalq Strateji Araşdırmalar İnstitutunun (IISS) strateji kəşfiyyat və müşahidə, kosmik sistemlər, uzaq mənzilli dəqiq silahlar və bulud hesablamaları da daxil olmaqla, NATO-nun Avropa üzvlərinin imkanlarında davamlı kritik boşluqları müəyyən edir. “Military Times” tərəfindən tərtib edilmiş ekspert qiymətləndirmələri göstərir ki, inteqrasiya olunmuş hava, raketdən müdafiə və ya kosmik kəşfiyyat kimi sahələrdə özünü təminetməyə nail olması üçün Avropaya beş-on il lazım gələ bilər, bununla belə, bir sıra sahələrdə Amerika sistemlərinin tamamilə əvəz edilməsi isə ümumiyyətlə, gözlənilmir.

Nüvə amili də eyni dərəcədə əhəmiyyətlidir. NATO-nun strateji çəkindirmə gücü əsasən Amerikanın nüvə arsenalına əsaslanır. Avropa dövlətlərindən yalnız Fransa və Birləşmiş Krallıq öz nüvə silahlarına malikdir. Britaniyanın imkanları da Amerika sistemləri ilə dərin inteqrasiya olunub. Fransanın nüvə çətirinin “avropalaşması” təklifləri isə bir çox müttəfiqlər tərəfindən şübhə ilə qarşılanır. Etibarlı nüvə zəmanətləri olmadan, hər hansı sırf Avropa müdafiə arxitekturasının mövcud Transatlantik konstruksiya ilə müqayisədə strateji cəhətdən natamam olacağı ortadadır.

Maliyyə və sənaye mülahizələri də NATO-nun Avropa qüvvələri ilə sürətli əvəzlənməsi fərziyyəsinin əleyhinədir. 2025-ci ildə qəbul edilmiş “Hazırlıq 2030” (“Readiness 2030”) proqramı və SAFE mexanizmi müdafiə ehtiyacları üçün ümumilikdə 800 milyard avro səfərbər etmək və birgə silah tədarükünü stimullaşdırmaq üçün nəzərdə tutulub. Lakin Avropanın müdafiə sənayesi milli prinsiplərə görə pərakəndə vəziyyətdədir: hər bir dövlət öz istehsalçılarını və iş yerlərini qoruyur və birgə layihələr üçün təsdiq prosedurları ləng və bürokratik olaraq qalır. Bundan əlavə, Ukrayna münaqişəsinin təcrübəsi Avropanın istehsal potensialının məhdudiyyətlərini üzə çıxardı.

Nəhayət, AB-nin özünün institusional və siyasi müxtəlifliyi ciddi maneə olaraq qalır. Silahlı hücum halında kömək etmək öhdəliyini nəzərdə tutan Lissabon Müqaviləsinin 42.7-ci maddəsi yalnız bir dəfə, 2015-ci ildə Fransada baş verən terror hücumlarından sonra tətbiq edilib və böyük hərbi böhranda sınaqdan keçirilməyib. Birmənalı öhdəlikləri olan Vaşinqton Müqaviləsinin 5-ci maddəsindən fərqli olaraq, Avropa formulu şərh üçün xeyli yer qoyur.

Tramp administrasiyasının “anti-NATO” siyasətini nə dərəcədə ardıcıl şəkildə həyata keçirəcəyi hələ də müəmma olaraq qalır. Belə ki, mayın 22-də ABŞ da daxil olmaqla, NATO-nun bütün Arktika üzvləri tərəfindən imzalanan Arktika Təhlükəsizliyi ilə bağlı Birgə Bəyanat yayımlandı. Bəyanatda qeyd olunur ki, Şimal sürətlə artan geosiyasi strateji əhəmiyyətə malik bir əraziyə çevrilir. “Rusiyanın artan hərbi fəaliyyəti və Çinin strateji marağı fonunda...” NATO Arktika bölgəsində “sabitliyi gücləndirməyə” çalışır. İmza atanlar alyansın Arktikada və Şimalda hərbi mövcudluğunun, müşahidə imkanlarının və birgə təlimlərinin “əlaqəli və ölçülü” şəkildə artırılmasını alqışlayırlar.

Beləliklə, NATO-nun gələcəyi ilə bağlı dəqiq bir anlayış olmasa da, demək olar ki, Avropa Birliyinin aktiv və genişmiqyaslı militarizasiyası artıq başlayıb.

*Hazırladı:*
***İlqar RÜSTƏMOV***
***XQ***

*2 İyun Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günüdür*

**Bu gün mülki aviasiya yalnız sərnişin daşımalarını həyata keçirən nəqliyyat sahəsi deyil, həm də iqtisadiyyatın, turizmin, beynəlxalq əməkdaşlığın və regional inteqrasiyanın əsas dayaqlarından hesab olunur. Azərbaycan isə son illərdə bu sahədə əldə etdiyi nailiyyətlərlə regionun aparıcı aviasiya mərkəzlərindən birinə çevrilməkdədir.**

# Azərbaycanın səma qanadları



Azərbaycan mülki aviasiyasının inkişaf tarixində mühüm mərhələlərdən biri də bu sahədə çalışan insanların əməyinə dövlət səviyyəsində verilən yüksək qiymətdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 18 may 2006-cı il tarixli sərəncamı ilə hər il iyunun 2-si “Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü” elan edilib. Bu qərar ölkənin hava nəqliyyatı sisteminin inkişafında xidmətləri olan minlərlə aviasiya əməkdaşının fəaliyyətinə verilən yüksək dəyərin ifadəsidir.

Azərbaycan mülki aviasiyasının müasir inkişaf mərhələsinin əsasını isə ümummilli lider Heydər Əliyev qoyub. Məhz onun rəhbərliyi dövründə aviasiya sahəsində genişmiqyaslı islahatlara başlanılıb, maddi-texniki baza gücləndirilib, yeni kadrların hazırlanmasına xüsusi diqqət yetirilib. Peşəkar milli kadrlara olan tələbat nəzərə alınaraq, 1992-ci ildə Azərbaycan Milli Aviasiya Akademiyası yaradılıb.

Ulu öndər müstəqilliyin ilk illərində ölkənin hava nəqliyyatı sisteminin qorunub saxlanılması və beynəlxalq standartlara uyğun yenidən qurulmasını dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirib. Belə ki, Azərbaycan aviasiyasının beynəlxalq aviasiya ailəsinə inteqrasiyası sürətlənib, yeni hava gəmilərinin alınması, beynəlxalq marşrutların açılması və müasir hava limanlarının inşası istiqamətində mühüm addımlar atılıb. Bu strategiya sonrakı dövrdə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib və nəticədə Azərbaycan regionun ən müasir aviasiya infrastrukturuna malik ölkələrindən birinə çevrilib.

Bu gün Azərbaycanın mülki aviasiya infrastrukturu Cənubi Qafqazın ən müasir sistemlərindən biri hesab edilir. Bakıdakı Heydər Əliyev Beynəlxalq Hava Limanı regionun ən böyük tranzit qovşaqlarından biri olmaqla yanaşı, beynəlxalq reytinqlərdə xidmət keyfiyyətinə görə yüksək yerlərdə qərarlaşıb. Ölkədə hazırda Bakı, Gəncə, Ağstafa, Balakən, Naxçıvan, Qəbələ, Lənkəran, Zaqatala, Xocalı, Yevlax, Zəngilan və Füzuli beynəlxalq hava limanları fəaliyyət göstərir.

Azərbaycan mülki aviasiyasının son illərdəki ən mühüm uğurlarından biri Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yeni beynəlxalq hava limanlarının inşasıdır. 2021-ci ildə istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı işğaldan azad olunmuş ərazilərdə tikilən ilk beynəlxalq hava limanı kimi tarixə düşüb. Hava limanına ilk sınaq uçuşunu AZAL-ın "Qarabağ" adlı Airbus A340-500 təyyarəsi həyata keçirib. Füzuli hava limanı beynəlxalq ICAO və IATA standartlarına uyğun şəkildə qurulub və iri gövdəli təyyarələri qəbul etmək imkanına malikdir.

2022-ci ildə fəaliyyətə başlayan Zəngilan Beynəlxalq Hava Limanı isə Şərqi Zəngəzurun ilk hava nəqliyyatı qapısı oldu. Burada Almaniyanın DFS Aviation Services şirkətinin iştirakı ilə ən müasir “Phoenix” hava hərəkətinin idarəetmə sistemi quraşdırılıb. Mütəxəssislər bildirirlər ki, bu texnologiya uçuş təhlükəsizliyinin artırılması və hava məkanının daha səmərəli idarə olunması baxımından region üçün mühüm yenilik hesab edilir.

Azərbaycanın yeni hava qapılarından biri olan Laçın Beynəlxalq Hava Limanı da artıq ölkənin aviasiya xəritəsində mühüm yer tutur. Hava limanının idarəetmə sistemlərinin müasirləşdirilməsi istiqamətində beynəlxalq tərəfdaşlarla əməkdaşlıq həyata keçirilir və yaxın illərdə burada müntəzəm uçuşların daha da genişləndirilməsi nəzərdə tutulur. Rəsmi məlumatlara görə, Laçın hava limanının fəaliyyətinin regionda turizmin və iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcəyi gözlənilir.

Maraqlı faktlardan biri də budur ki, işğaldan azad olunmuş ərazilərdə tikilən hava limanları yalnız nəqliyyat layihələri deyil, həm də yüksək texnologiyaların tətbiq olunduğu mühəndislik kompleksləridir. Burada ən son naviqasiya sistemləri, avtomatlaşdırılmış hava hərəkətinin idarə olunması texnologiyaları və beynəlxalq təhlükəsizlik standartları tətbiq edilir.

Azərbaycanın milli aviadaşıyıcısı olan Azerbaijan Airlines (AZAL) ölkənin aviasiya inkişafında əsas lokomotiv rolunu oynayır. Donanmanın yenilənməsi, yeni təyyarələrin alınması, beynəlxalq marşrut şəbəkəsinin genişləndirilməsi və rəqəmsal xidmətlərin tətbiqi bu inkişafın əsas istiqamətlərini təşkil edir. Son illərin uçuş proqramında Bakıdan Avropa, Asiya və Yaxın Şərqin onlarla şəhərinə reyslərin həyata keçirilməsi Azərbaycanın beynəlxalq hava nəqliyyatı əlaqələrinin daha da genişləndiyini göstərir.

Müasir aeroportların tikintisi, innovativ idarəetmə sistemlərinin tətbiqi və beynəlxalq standartlara uyğun xidmətlərin təşkili Azərbaycanı regionun mühüm aviasiya mərkəzlərindən birinə çevirir. Eyni zamanda sərnişin təhlükəsizliyi, xidmət keyfiyyəti və peşəkar kadr hazırlığı AZAL-ın əsas prioritetləri olaraq qalır.

Bu gün Azərbaycan səmasında həyata keçirilən hər bir təhlükəsiz uçuşun arxasında minlərlə insanın peşəkarlığı, məsuliyyəti və zəhməti dayanır. Mülki aviasiya ölkənin dünyaya açılan qapısı, iqtisadi inkişafın mühüm hərəkətverici qüvvəsi və gələcəyə uzanan strateji körpüsüdür. İnanırıq ki, yeni hava limanları, müasir texnologiyalar və peşəkar insan resursları ilə Azərbaycan aviasiyası qarşıdakı illərdə də yüksəlişini davam etdirəcək, ölkənin adını beynəlxalq səviyyədə daha da möhkəmləndirəcək.

***Nurəngiz ADİLQIZI***
***XQ***

## “Market-Fell” ASC səhmdarlarının nəzərinə!

Hörmətli səhmdarlar, sizi “Market-Fell” ASC səhmdarlarının ümumi yığıncağında iştiraka dəvət edirik.

Yığıncaq 30 iyun 2026-cı il saat 11.00-da İmişli şəhəri, Qadir İsmayılzadə küçəsi 3 nömrəli ünvanda yerləşən inzibati binada keçiriləcəkdir.

## “ŞƏMKİR SƏRNİŞİNNƏQLİYYAT” ASC-nin 2025-ci il üzrə gəlir və xərc hesabatı

1. Əsas əməliyyat gəliri: 153809,40.
2. Satışın maya dəyəri (istehsal xərci): 274979,93.
3. Ümumi mənfəət (zərər) - 121170,53.
4. Sair əməliyyat gəliri: 13846,66.
5. Hesabat dövründə xalis mənfəət (zərər) - 107323,87.

***“Şəmkir sərnişinnəqliyyat” ASC***

## “Zaqatala Bazar”ASC səhmdarlarının nəzərinə!

20 iyun 2026-cı il saat 10.00-da “Zaqatala Bazar” ASC səhmdarlarının ümumi yığıncağı Zaqatala şəhəri, V.İsmayılov küçəsi 44 nömrəli ünvanda keçiriləcəkdir.

**Əlaqə telefonu:** 055-303-31-03.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 94 (31063) 2 iyun 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Boksçularımız Dünya kubokuna Qazaxıstanda hazırlaşacaq




**Kişi boksçulardan ibarət Azərbaycan millisi Qazaxıstana yollanıb. Ravşan Xocayevin baş məşqçisi olduğu komanda təlim-məşq toplanışını Çimkənddə davam etdirəcək.**

Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, 13 boksçunun cəlb olunduğu hazırlıq iyunun 12-də başa çatacaq. Toplanışda əsasən texniki-taktiki məşqlərə üstünlük veriləcək. Hazırlıq çərçivəsində sınaq döyüşləri də planlaşdırılır.

Qeyd edək ki, məşqlər Çində keçiriləcək Dünya kubokuna hazırlıq xarakteri daşıyır.

### Gənc oxatanların ölkə birinciliyi



**Kamandan oxatma idman növü üzrə gənclər arasında ölkə birinciliyinin rəsmi açılış mərasimi keçirilib. Mərasimdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Olimpiya və Paralimpiya idman növləri sektorunun müdiri Aydın Məmmədov çıxış edərək yarış iştirakçılarını salamlayıb.**

Sektor müdiri ölkədə bədən tərbiyəsi və idmanın inkişafı, idmanın kütləviliyinin təmin olunması istiqamətində həyata keçirilən dövlət siyasətinin uğurlarını diqqətə çatdırıb. A.Məmmədov bu qəbildən olan respublika miqyaslı yarışların gənc idmançıların potensialının üzə çıxarılmasındakı rolunu və əhəmiyyətini vurğulayıb.

Daha sonra Azərbaycan Kamandan Oxatma Federasiyasının Yarışların təşkili və klublarla iş şöbəsinin müdiri Kamran Həsənzadə çıxış edərək iştirakçılara müvəffəqiyyətlər arzulayıb. Rəsmi çıxışların ardınca yarışların təsnifat mərhələsinə start verilib. Birinciliyin ilk günündə U15, U18 və U21 yaş kateqoriyaları üzrə ümumilikdə 49 oxatan atış xəttinə çıxıb. İdmançılar 40, 60 və 70 metr məsafələrdən iki sessiya ərzində ümumilikdə 72 ox (hər sessiyada 36 ox) ataraq kvalifikasiya normalarını yerinə yetiriblər. Keçirilən gərgin mübarizənin yekun nəticələrinə əsasən, növbəti mərhələlərin iştirakçı heyəti müəyyənləşib.

Növbəti gün 1/8, 1/4, 1/2 yarımfinal və final mərhələlərinin qarşılaşmaları keçiriləcək. Qaliblər müvafiq diplom, medal və hədiyyələrlə təltif olunacaqlar.

### Dünya Seriyasının II mərhələsində 2 medal




**Xorvatiyanın Poreç şəhərində çimərlik güləşi üzrə Dünya Seriyasının II mərhələsi baş tutub.**

Azərbaycan Güləş Federasiyasından verilən məlumata görə, 80 kiloqramda ölkəmizi təmsil edən iki güləşçimiz fəxri kürsüyə qalxıb.

Sahib Dadaşov gümüş, Vüsal Əliyev isə bürünc medal qazanıb.

İslam İlyasov (+90 kq) dördüncü, Əşrəf Aşırov (90 kq) beşinci, Rübail İbrahimli (70 kq) isə doqquzuncu yeri tutub.

Yarışda I-S dərəcəli hakim Sədi Quliyev ədaləti qoruyub.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Əminə Yusifqızı – 75*

# Yarım əsr milli jurnalistikanın xidmətində

**Dünən Azərbaycan Mətbuat Şurasında şuranın Ahıl Jurnalistlər Məclisinin sədr müavini, Əməkdar jurnalist Əminə Yusifqızı Əhmədovanın 75 illik yubileyi təntənə ilə qeyd edildi.**




Mətbuat Şurasının sədri Rəşad Məcid bildirdi ki, Əminə Yusifqızı Azərbaycanın bölgə mətbuatının ənənələrini sevgi ilə yaşadan, istedadı və təşkilatçılığı ilə daim fərqlənən həmkarlarımızdandır. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin məzunu olmuş yubilyarın peşəkar fəaliyyəti Yevlax rayonunda çıxan "Kür" qəzeti (keçmiş "Təşəbbüs") ilə bağlıdır. Ali təhsildən sonra təyinatla burada yaradıcı fəaliyyətə başlamış gənc jurnalist ömrünün 50 ilini bu qəzetin ölkənin ən yaxşı bölgə nəşrlərindən biri kimi populyarlaşmasına həsr edib. Əminə xanım əvvəlcə qəzetdə ədəbi işçi, sonra şöbə müdiri işləyib, 1991-ci ildən bu kollektivə rəhbərlik edib.

Respublika mətbuatında uzun illər səmərəli fəaliyyətinə görə "Qızıl qələm", 2 dəfə "Həsən bəy Zərdabi", Məhsəti Gəncəvi adına və "Ali media" mükafatlarını almış Əminə Yusifqızına 1991-ci ildə Əməkdar jurnalist fəxri adı verilib. 2005-ci ildə o, "Tərəqqi", 2025-ci ildə isə "Azərbaycan milli mətbuatının 150 illiyi" yubiley medalları ilə təltif edilib. Həmkarımız çoxsaylı jurnalist yazıları müsabiqələrinin qalibi olub, diplom və fəxri fərmanlara layiq görülüb. Uzun illər Yevlax şəhərinin rəhbər qurumlarında təmsil olunub. O, yevlaxlı şəhidlərin həyat və döyüş yolundan bəhs edən "Zəfər fədailəri" və "Biz vətən üçün doğulduq" kitablarının müəllifidir.

MŞ sədri qeyd etdi ki, milli jurnalistikamızın Yevlax ictimaiyyətinə bəxş etdiyi yetkin ziyalı olan Əminə Yusifqızı hazırda şuranın Ahıl Jurnalistlər Məclisinin sədr müavini olaraq veteran jurnalistlərin qayğılarını gündəmə gətirməkdə, yubiley məclislərinin təşkilində, dünyasını dəyişmiş ustad jurnalistlərin xatirələrinin yad edilməsində təşəbbüskarlıq göstərir, ölkənin media həyatında fəal iştirak edir.




Yubilyarı həm də həssas və qayğıkeş dost, gözəl ana kimi səciyyələndirən Rəşad Məcid 75 yaşı tamam olan Əminə Yusifqızıya Mətbuat Şurasının diplomunu təqdim etdi, onu media ictimaiyyəti adından səmimi təbrik edib, xoş arzularını çatdırdı.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin kafedra müdiri, professor Cahangir Məmmədli istedadlı tələbə kimi xatırladığı Əminə Yusifqızının Yevlaxı Azərbaycan jurnalistikası üçün doğma məkana çevirdiyini vurğuladı. MŞ İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Elçin Mirzəbəyli Ə.Yusifqızının Azərbaycan jurnalistikasının peşəkar yetirmələrindən biri olduğunu söylədi. Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov yubilyarın ictimai fəallığının onu ölkədə vətənpərvər ziyalılardan biri kimi tanıtdığını dedi.

MŞ sədrinin müavini Səadət Məmmədova, İdarə Heyətinin üzvlərindən APA Holdinqin rəhbəri Vüsalə Mahirqızı, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli Əminə Yusifqızının qurumun fəaliyyətinə bölgədən dəstək vermiş fədakar həmkarımız olduğunu söylədilər.

Əslən Yevlax rayonundan olan Əməkdar mədəniyyət işçisi Məhəbbət Mehdiyeva, MŞ-nin Nəzarət-Təftiş Komissiyasının katibi, Orta Asiya və Güney Qafqaz Söz Azadlığı Şəbəkəsinin sədri Nadir Azəri, "Bakıvaxtı.az" saytının baş redaktoru Qalib İbrahimoğlu Əminə Yusifqızının və "Kür" qəzetinin onların jurnalist kimi formalaşmalarında rolunu qədirbilənliklə xatırladılar.

"Bizimyol.info" saytının baş redaktoru Bahəddin Həzi, MŞ-nin Nəzarət-Təftiş Komissiyasının sədri Rey Kərimoğlu, "Yeni təfəkkür" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Şəmsiyyə Kərimova, Əməkdar mədəniyyət işçisi Zöhrə Əliyeva, "Tərəqqi" medallı jurnalist Zərifə Bəşirqızı, yazıçı-publisist Şəfəq Nasir, yubilyarın dostları Elxan Pənahov, İbrahim Quliyev, Faizə Mehdiyeva və başqaları Əminə Yusifqızının milli jurnalistikamıza sədaqətlə qulluq edən peşəkar qələm sahibi olmsından səmimiyyətlə söz açdılar, ona yeni yaradıcılıq uğurları və möhkəm cansağlığı arzuladılar.

Sonda çıxış edən Əminə Yusifqızı həyat yoluna verdikləri yüksək dəyərə görə toplantı iştirakçılarına təşəkkürünü bildirdi.

*Tahir AYDINOĞLU*
*XQ*

**Redaksiyadan:** *"Xalq qəzeti"nin kollektivi də çoxillik müəlliflərindən olan Əməkdar jurnalist Əminə Yusifqızını 75 illik yubileyi münasibətilə təbrik edir, dəyərli həmkarımıza yeni uğurlar arzulayır.*

*Duyğu dili*

# "Məni bağışlayın, əllərim!.."

**Bəzən sızıldayan əllərim, sanki, məndən mənə şikayət edir: bizə niyə rəhmin gəlmir, elə həmişə özünü düşünürsən. Axı, biz həyatda sənin dayağın, yaxın simsarın olmuşuq. İstəklərinə çatmağın üçün bacardığımızı əsirgəməmişik. "Qa" deyəndə çörək, "qu" deyəndə su vermişik. Sən ürəyindən keçənləri bizimlə kağıza köçürüb yaxın-uzaqlara çatdırmısan. Sənin sevincinə ortaq olmuşuq. Fərəhlənmişik ki, bu sevincdə bizim də payımız var...**



Bax beləcə, əllərimin ağrı-acıya çevrilmiş umu-küsüsü gözü açılmış bulaq kimi qaynayır:

– Hər şeydən öncə, Uca Yaradana dua edəndə, günahlarının bağışlanmasını diləyəndə bizi göylərə qaldırırsan. Sanki sənin duaların ovcumuza yazılır və barmaqlarının ucundan səmaya uçub gedir...

Həyatda az-çox qazandığın uğurlara görə bizə təşəkkür etməlisən. Sən bizimlə ananın boynuna sarılmısan, onun doğma, işıqlı çöhrəsini öpmüsən. Sevdalı çağlarında sevgi məktubları yazmısan. Bax heç yadımızdan çıxmır, bir məhəbbət şeirini belə bitirmişdin:

***...Hardasa küləklər saçını darar,***
***Mənim barmaqlarım ağlayar onda.***

Kədər sənə güc, dünya dar gələndə, sakit bir yerə çəkilib için-için inləyəndə göz yaşlarını biz silmişik.

Nəvələrini qucaqlayanda, saçlarına sığal çəkəndə bizim də sevincimizin həddi-hüdudu olmayıb. Onların balaca toppuş əllərini ovucumuza alanda ürəyindən barmaqlarımıza axan həlimlik körpələrin üçün ən şirin nəvaziş olub.

Sən bizimlə dost əli sıxmısan, ona hər zaman arxa, dayaq, vəfalı olacağını çatdırmısan. Lazım gələndə bizimlə dostunu yıxıldığı yerdən qaldırıb, son gücünlə kürəyinə almısan... Axı dost hər zaman arxasınca gedə biləcəyin insandı. Dost səninlə sevinən, kədərinə ortaq olandı. Dost pas bağlamış ürəyin açarıdı... Dost güvəndiyin, arxalandığın dağdı....

Əkdiyin ağaclara, gül kollarına qayğını da bizim gücümüz, səyimizlə göstərmisən. Bu dünyada, bəlkə də, insan dostlarından çox ağac dostların var. Onları tez-tez yad edir, boylarına baxıb sevinir, hansınınsa bir budağı qırılanda ağrıyırsan...

Yadımızdadı, binanızın arxasındakı küçədə əkib-becərdiyin ağacdan yaz günü bir nənə yetişmiş tutları dərib nəvəsinə verəndə sən pəncərədən baxıb sevindin, hətta kövrəldin. Elə biz də çox sevindik. Axı, o ağacların böyüməsinə günlərlə əmək vermişik. Bu, bizim doğma torpaqda izimiz, onun gözəl olması üçün payımızdı. Deyirlər: əl çalışar – yer sevinər, yer barlanar – el sevinər. Hər kəsə əməli, xeyirxah işi ilə qiymət verilər. Bizim də az-çox bacardığımız budur...

Əllərimin umacağı belə-belə sonuclanır: "Biz hər zaman Səninləyik, sənin sevincinlə şadlanır, kədərinə qüssələnirik. Biz də ağrıyanda, sızlayanda sən də bizi düşün. Düşün ki, heç olmazsa, ömürlük kimə xidmət etdiyimizi sənin ürəyindən, gözlərindən oxuyaq".

Nə deyim, ay əllərim, haqlısınız. Həqiqət önündə, doğru söz qarşısında insan boynu qıldan incədi. Mən də bu həqiqəti dilimə gətirib deyirəm:

"Məni bağışlayın, əllərim! Ayaqlarım məni yer üstündə saxlayan dayaqlarımdırsa, siz məni dünyaya qovuşduran arzularımın qoşa qanadlarısınız!"

***Səməd MƏLİKZADƏ,***
***yazıçı-publisist***

## HAVA

### Qısamüddətli yağış, dolu...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin axşam qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq.**

Səhər saatlarından arabir güclənən şimal-qərb küləyi axşam tədricən mülayimləşəcək. Havanın temperaturu gecə 15-18, gündüz 19-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 55-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin səhər şimal və qərb rayonlarından başlayaraq, bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntının qısamüddətli intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 12-17, gündüz 23-28, dağlarda gecə 6-11, gündüz 13-18, bəzi yerlərdə 20-25 dərəcə isti olacağı ehtimal edilir.

*Q.ƏLİYEV*
*XQ*

***✓ 2019-cu ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən gizir Abbasov Tural Həsən oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi S.Mümtaz adına Azərbaycan Respublikası Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin şöbə müdiri Mətanət Qasımovaya atası

**YUNİS QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**T E L E F O N L A R:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**Ü N V A N I M I Z:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3183**
**SİFARİŞ 695**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Tahir AYDINOĞLU**
**Çapa imzalanmışdır 00:00**